# AZƏRBAYCAN DİLİ

DÖVLƏT DİLİ

## METODİK VƏSAİT

# 3

## SİNİF

İradə Əfəndiyeva
Məlahət Ələsgərova

# AZƏRBAYCAN DİLİ 3

Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
metodik vəsait

Bu nəşrlə bağlı irad və təkliflərinizi
*yndm21@day.az* və *dərslik@edu.gov.az*
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

XXI YNE

**Bakı - 2018**

# Mündəricat

Giriş ........ 4
Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili təliminin məzmunu ........ 4
Fəal dərsin mərhələləri ........ 8
Şagird nailiyyətlərinin qiymətləndirilməsi ........ 11
İllik tematik planlaşdırma ........ 20

**Doğma məktəb**

§1. Bilik günü ........ 22
§2. Uşaqların sevinci ........ 24
§3. Azərbaycan dili dərsində ........ 26
§4. İlk dərs ........ 29

**Milli dəyərlərimiz**

§ 5. Uşaqların sevimlisi ........ 31
§ 6. İçərişəhər ........ 33
§ 7. Milli musiqimiz ........ 36
§ 8. Bizim qəhrəmanlarımız ........ 38

**Azərbaycan – yurdum mənim**

§ 9. Azərbaycanım mənim ........ 40
§10. Bakı ........ 42
§11. Xəzər dənizi ........ 45
§12. Göygöl ........ 47
§13. Dağlar gözəli Şəki ........ 50

**Təbiəti qoruyaq**

§14. Təbiət ........ 52
§15. Günəş ........ 55
§16. Torpaq ........ 57
§17. Su həyatdır ........ 60
§18. Hava ........ 62

## Gəlin dostluq edək

§ 19. Hacıleylək və sərçə ........ 64
§ 20. Ləpirlər ........ 66
§ 21. Peşmançılıq ........ 69
§ 22. Yeddi nar çubuğu ........ 71

## Yaxşı insan olaq

§ 23. Səbət əhvalatı ........ 74
§ 24. Pis adət ........ 76
§ 25. Balaca ........ 78
§ 26. Şir və siçan ........ 79
§ 27. Ağacların bəhsi ........ 82

## Nağıllar aləminə səyahət

§ 28. Cırtdanın nağılı ........ 84
§ 29. Ana-bala məhəbbəti ........ 85
§ 30. Şir və tülkü ........ 87
§ 31. Qızılgülün nağılı ........ 89
§ 32. Bülbülün nağılı ........ 91

Əlamətdar günlər ........ 94
Sinifdənxaric oxu ........ 96
Gündəlik nitqimizdə işlədilən ifadələr ........ 102
Üzündən köçürmə yazı nümunələri və imlalar ........ 106
Şəkil üzrə iş nümunələri ........ 110
Tərcümə üçün mətnlər ........ 111

# Giriş

Müasir dövr təhsilin qarşısında hərtərəfli inkişaf etmiş, savadlı, intellektual səviyyəli şəxsiyyətlər formalaşdırmaq tələbini qoyur. Bu məqsədlə Azərbaycan hökuməti Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum) adlı sənəd qəbul etmişdir. Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir. Bu sənəd müəllim və məktəb qarşısında duran vəzifələri və onların həlli yollarını özündə əks etdirir. Sənəd milli səviyyədə hazırlandığına görə Milli Kurikulum adlanır.

Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum) əsasında fənn kurikulumları hazırlanmışdır ki, bunlardan biri "Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu"dur. Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu fənn üzrə ümumi təlim nəticələrini, siniflər üzrə məzmun standartlarını, təlim strategiyalarını, qiymətləndirmə məsələlərini əhatə edir.

Bu sənəd şagirdlərin təlim sahəsindəki nailiyyətlərini və inkişafını izləməyə imkan yaradır, təlim digər dillərdə aparılan məktəblərdə şagirdlərin Azərbaycan dilini dövlət dili kimi öyrənməsini təmin edir. Şagirdlər Azərbaycan dilində dinləyib-anlama, danışma, oxu və yazı üzrə müvafiq nitq vərdişlərinə yiyələnmək imkanı əldə edirlər. Təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dilinin dövlət dili kimi öyrənilməsi nəinki yalnız bu dildə danışmağı bacarmaq, nitq vərdişlərinə həssaslıqla yanaşmaq, başqaları ilə ünsiyyət qurmaq bacarığı formalaşdırır, eyni zamanda bu dildə olan elmi-kütləvi və bədii ədəbiyyatları, radio və televiziya verilişlərini, qəzet və jurnalları izləməyə, onların vasitəsilə bilik və məlumatlar əldə etməyə şərait yaradır.

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisinin məqsədi şagirdlərdə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqları formalaşdırmaqla onların nitqini inkişaf etdirməkdən ibarətdir.

"Azərbaycan dili" dərslik komplekti (III sinif "Azərbaycan dili" dərsliyi, "Metodik vəsait") Milli Kurikulum əsasında hazırlanmış struktura malikdir. Bu dərslik komplekti təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dilinin dövlət dili kimi tədris edilməsinin səmərəliliyini daha keyfiyyətli təmin edə bilər.

# Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili təliminin məzmunu

## 1.1. Ümumi təlim nəticələri

**İbtidai təhsil pilləsi (I - IV siniflər) üzrə şagird:**

- dinlədiyi fikirlərə münasibət bildirir;
- kiçikhəcmli mətnləri sürətli və düzgün oxuyur, məzmununu izah edir;
- söz birləşməsi və cümlə nümunələrindən, zəruri tələffüz və yazı qaydalarından istifadə edərək kiçikhəcmli yazılı mətnlər qurur və tərcümə edir;
- müşahidə etdiyi şəkil və illüstrasiyaların məzmun və əlamətlərini təsvir edir;
- məlumat xarakterli kiçik həcmli mətnləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

## 1.2. Məzmun xətləri

Fənn üzrə məqsəd və vəzifələrin həyata keçirilməsi üzrə aşağıdakı məzmun xətləri müəyyənləşdirilir.

- dinləyib - anlama;
- danışma;
- oxu;
- yazı;

## 1.3. İbtidai təhsil pilləsində məzmun xətləri üzrə təlim nəticələri

### Dinləyib - anlama

**Şagird:**

- danışanı dinləyir və ona münasibət bildirir;
- nitq səslərini, söz və cümlələri fərqləndirir;
- sadə şifahi müraciətləri dinləyir və ona münasibət bildirir;
- dinlədiyi kiçikhəcmli mətnləri (hekayə, nağıl, şeir, tapmaca və s.) anladığını nümayiş etdirir.

### Danışma

**Şagird:**

- öyrəndiyi söz, ifadə, cümlə modelləri əsasında fikirlərini ifadə edir;
- müşahidə etdiyi və maraqlarına uyğun olan kiçik fakt və hadisələri şərh edir;
- şəkil və illüstrasiyalar əsasında cümlə və mətn qurur;
- müəllim və yoldaşları ilə şifahi ünsiyyət qurur.

### Oxu

**Şagird:**

- öyrəndiyi yeni sözləri fərqləndirir, onların mənalarını izah edir;
- mətni səlis və düzgün oxuyur;
- mətndəki əsas fakt və fikirləri müəyyənləşdirir;
- oxuduğu mətnin məzmununa münasibət bildirir.

### Yazı

**Şagird:**

- davamlı və aydın yazı bacarığı nümayiş etdirir;
- öyrəndiyi orfoqrafiya, durğu işarəsi qaydalarını yazısında tətbiq edir;
- təqdim olunmuş mövzuda kiçikhəcmli nəqli və təsviri xarakterli yazılı mətnlər qurur;
- verilmiş mövzu üzrə kiçik təqdimatlar hazırlayır.

## 1.4. Məzmun standartları

**III sinfin sonunda şagird:**

- Dinlədiyi nitq nümunələrini anlayır.
- Öyrəndiyi söz və söz birləşmələrini düzgün tələffüz edir.
- Öyrəndiyi nitq nümunələrindən istifadə etməklə sadə formada ünsiyyət qurur.
- Düzgün oxu bacarıqları nümayiş etdirir.
- Düzgün yazı bacarıqları nümayiş etdirir.
- Məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri ana dilinə və əksinə tərcümə edir.

## 1. Dinləyib - anlama

**Şagird:**

1.1. Təqdim olunan nitq nümunələrini anladığını nümayiş etdirir.
1.1.1. Müraciətlərə uyğun tapşırıqlara əməl edir.
1.1.2. Dinlədiyi sözləri cümlələrdən fərqləndirir.
1.1.3. Dinlədiyi mətni hissələrə ayırır.

## 2. Danışma

**Şagird:**

2.1. Düzgün tələffüz bacarıqları nümayiş etdirir.
2.1.1. Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir.
2.1.2. Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.

2.2. Öyrəndiyi nitq nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqları nümayiş etdirir.
2.2.1. Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir.
2.2.2. Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin dili ilə təsvir edir.
2.2.3. Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) ibarət kiçikhəcmli mətnlər qurur və təqdim edir.

## 3. Oxu

**Şagird:**

3.1. Düzgün oxu bacarıqları nümayiş etdirir.
3.1.1. Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur.
3.1.2. Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir.
3.1.3. Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

## 4. Yazı

**Şagird:**

4.1. Düzgün yazı bacarıqları nümayiş etdirir.
4.1.1. Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır.
4.1.2. Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir.
4.1.3. Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır.

Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.

## Fəndaxili və fənlərarası inteqrasiyanın nəzərə alınması

Fəndaxili və fənlərarası inteqrasiyanın nəzərə alınması ümumpedaqoji prinsiplərdən biri kimi təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin didaktik əsasını təşkil edir, məzmun və təlim strategiyalarının formalaşmasında əhəmiyyətli rol oynayır. İlk növbədə, məzmun standartlarının müəyyən olunmasında və qruplaşdırılmasında ona istinad olunur.

**Fəndaxili** inteqrasiya Azərbaycan dili təlimində məzmun xətləri arasında qarşılıqlı əlaqələri təmin etməklə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarının bir vəhdət halında qavranılmasına imkan yaradır.

**Fənlərarası** inteqrasiya fənn üzrə müəyyən anlayışların öyrənilməsini asanlaşdırır, vaxta qənaət olunmasına imkan verir, öyrənilənlərin səmərəliliyini təmin edir. Fəndaxili inteqrasiya zamanı Azərbaycan dili ilə digər fənlərin uyğun anlayışları arasında əlaqələr müəyyənləşdirilir, dərsliklərdə, təlim prosesində ondan istifadə imkanları konkretləşdirilir. Bu əlaqələrin müəyyən olunmasında şagirdlərin ümumi bacarıqlarının formalaşdırılması zəruri məqsəd kimi diqqət mərkəzində saxlanılır.

Şagird dövlət dili olan – Azərbaycan dilini öyrənməklə yanaşı Vətənimizin tarixini, mədəniyyətini, incəsənətini, coğrafiyasını, iqtisadiyyatını öyrənir. Bu da digər fənlər üzrə bilik, bacarıq və vərdişlərin əlaqəli şəkildə öyrənilməsi prosesini intensivləşdirir, nitq fəaliyyətinin müxtəlif növləri üzrə bacarıqların təkmilləşməsinə imkan yaradır.

## Fəal təlimin təşkilində istifadə olunan forma və üsullar

**Fəal təlim** şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimdir. Onun əsas əlamətləri şagird - lərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsi ilə yanaşı, eyni zamanda kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməlidir.

**Fəai təlim** müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürünün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir.

## Fəal təlim metodlarının xarakterik xüsusiyyətləri

1. Diqqət ilk növbədə şagird şəxsiyyətinin formalaşdırılmasına yönəlir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olurlar.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.

5. Müəllim-şagird, şagird-şagird arasında əməkdaşlıq üçün şərait yaranır.
6. Dərslərin inteqrativ təşkilinə üstünlük verilir.
7. Qeyri-standart dərslərin tətbiqinə geniş yer verilir.

## Fəal dərsin mərhələləri

### I mərhələ: motivasiya, problemin qoyulması

Bu mərhələ şagirdləri düşünməyə sövq edir. Bu prosesdə tədqiqat işi problemi müəyyənləşdirməklə başlayır. Motivasiya üçün qeyri-adi, maraqlı material seçilir. Şagirdlərə öz fikirlərini ifadə etmək üçün imkan yaradılır. Sonra tədqiqat sualı qoyulur. Müəllim şagirdlərə yönəldici suallar verib onları həvəsləndirməlidir. Dərsin məqsədinə yönəlmiş tədqiqat sualı təlim nəticələrinə əsasən müəyyənləşdirilir.

### II mərhələ: tədqiqatın aparılması

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir. Tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq üçün məqsədyönlü iş aparılır. Şagirdlərə müxtəlif çalışmalar verilir. Beləliklə, tədqiqat sualına cavab tapmaq üçün zəmin yaranır. Toplanmış faktlar əsasında təqdimatlar hazırlanır.

### III mərhələ: informasiya mübadiləsi (məlumatın mübadiləsi)

Tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər məlumatın təqdimatına başlayaraq, əldə etdikləri məlumatları digərlərilə bölüşürlər. Həmin təqdimatların əks olunduğu iş vərəqləri lövhədən asılır.

### IV mərhələ: informasiyanın müzakirəsi və təşkili

Bu mərhələdə müəllim köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini təşkil edir. Məlumat, sxem, qrafik, cədvəl, təsnifat və s. formalarda təqdimatlar dinlənilir. Nəticədə tədqiqat sualına cavab aydınlaşır.

### V mərhələ: nəticə və ümumiləşdirmə

Nəticəyə gəlmək üçün müəllim şagirdlərin köməyi ilə əldə olunan bilgiləri ümumiləşdirir, əldə edilmiş ideyanın tədqiqat sualı və şagirdlərin ilkin fəaliyyətləri ilə müqayisəsini təşkil edir.

### VI mərhələ: yaradıcı tətbiqetmə

Bu mərhələ biliyi möhkəmləndirir. Bu məqsədlə şagirdlərə praktik tapşırıqlar verilir.

### VII mərhələ: qiymətləndirmə və refleksiya

**Qiymətləndirmə** – şagird nailiyyətlərinin dəyərləndirilməsi prosesidir.
**Refleksiya** – təlim prosesinin bütün mərhələlərini təhlil etmək və dərindən başa düşməyə imkan verir.

### VIII mərhələ: ev tapşırıqları

Dərsdə alınmış bilik, bacarıq və vərdişlər möhkəmləndirilir. Daha çox tədqiqat və yaradıcılıq elementləri olan tapşırıqlar verilir.

Fəal dərsi təşkil etmək üçün müəllim dərsini düzgün planlaşdırmağı bacarmalı, özü üçün aşağıdakı sualların cavablarını konkretləşdirməlidir.

- nə öyrəniləcək?
- necə öyrəniləcək?
- hansı şəraitdə öyrəniləcək?
- nəticələr necə qiymətləndiriləcək?

## İş formaları

Şagirdlərin fərdi, cütlərlə, kiçik və böyük qruplarla işi nəzərdə tutulur.

**Cütlərlə iş** – dərs prosesində şagirdlər iki-iki işləyir.

**Kiçik qruplarla iş** – şagirdlər (3-6 nəfər) kiçik qruplarda birləşir, hər hansı problemi həll etmək üçün birgə fəaliyyət göstərirlər.

**Böyük qrup** dedikdə bütün sinif birgə fəaliyyət göstərir.

## Fəal təlimin üsulları

### Beyin həmləsi (əqli hücum)

Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin nəzərinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər.

### BİBÖ (KWL)

BİBÖ – Bilirəm / İstəyirəm bilim / Öyrənirəm

Müəllim lövhədən cədvəl asır:




Şagirdlər problemlə bağlı bildiklərini I sütunda, həmin məsələ ilə bilmək istədiklərini II sütunda, mövzu ilə bağlı yeni öyrəndiklərini III sütunda qeyd edirlər.

### Auksion

Müəllim şagirdlərlə birlikdə öyrənilən əşya və ya hadisənin xüsusiyyətlərini ardıcıl şəkildə sadalayır. Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir. Hər bir fikirdən sonra müəllim sayır: “bir, iki ...”

Bu zaman iştirakçılardan biri tez təklif verə bilər. Sonuncu təklif verən “Auksion”u qazanır.

### Klaster (şaxələndirmə)

Müəllim lövhədə və ya vərəqlərdə dairə şəkli çəkir. Onun mərkəzində yazılmış anlayış ilə bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz, onunla əlaqəli sözlə xətlərlə birləşdirilir.

*Məsələn:*



### Suallar

Dərs prosesində tədqiqatların səmərəli qurulmasını stimullaşdırır. 4-5 sual vermək məqsədəuyğundur.

### Mühazirə

Məlumatın müəllim tərəfindən şagirdlərə ötürülmə üsuludur. 10-15 dəqiqə ərzində aparılır. Əyani və texniki vasitələrdən istifadə edilməlidir.

### Anlayışın müəyyən edilməsi

Bu üsul oyun – tapmaca formasında həyata keçirilir. Müəllim lövhədə kart asır, onun arxasında şagirdlərin tapacağı anlayışı yazır. 2, 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar. Sonda müəllim kartın yazılı tərəfini şagirdlərə göstərir.

### Söz assosiasiyaları

Öyrəniləcək mövzuya aid əsas söz lövhəyə yazılır. Şagirdlər həmin söz ilə bağlı fikirlərini söyləyirlər. Müəllim lövhəyə qeyd edir. Mövzu ilə bağlı sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və ya ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır.

### Rollar üzrə oyun

Müəllim ifa olunacaq rolların mətni yazılmış kartları paylayır. Rollar bölüşdürülür. Hazırlaşmaq üçün şagirdlərə vaxt verilir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir.

### VENN diaqramı



Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçündür. Müqayisə olunan obyektlər təsvir edilir. Fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur.

Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

### Ziqzaq

Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır.

Şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir.

Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

### Karusel

Dərsdən əvvəl iri ağ kağızlarda mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməyi ilə qruplara ötürülür. “Karusel” kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif sualları müzakirə edir.

## Şagird nailiyyətlərinin qiymətləndirilməsi

Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdlərin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

- şagirdin irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi)
- təlim prosesində qərarların qəbulu
- şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsi
- kurikulumun qiymətləndirilməsi

**Qiymətləndirmənin aşağıdakı növləri vardır:**

- İlkin səviyyənin qiymətləndirilməsi (*diaqnostik* qiymətləndirilmə) – şagirdlərin artıq nələri bildiyini müəyyən edir və təlimin düzgün qurulmasında müəllimə köməklik göstərir.

- Şagird irəliləyişlərinin monitorinqi (*formativ* qiymətləndirmə)- tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir.

Monitorinqlər müəyyən anlayışların mənimsədildiyini müşahidə etmək və ev tapşırıqlarını nəzərdən keçirməklə, yaxud daha formal qiymətləndirmə tipindən istifadə etməklə aparıla bilər. Monitorinqlərin hansı formada aparılmasından asılı olmayaraq, onlar müntəzəm xarakter daşımalı, hər altı həftədən gec olmayaraq təşkil edilməlidir.

- Yekun (*summativ*) qiymətləndirmə – standartların mənimsədilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirilmə növü mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir.

Yekun (summativ) qiymətləndirilmənin ən mühüm cəhəti şagirdlərin mənimsədikləri tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

Hər bir fənn kurikulumunda məzmun standartları, təlim strategiyaları ilə yanaşı, mənimsənilmiş təlim nəticələrinin qiymətləndirilməsi üçün müvafiq qiymətləndirmə standartları da müəyyənləşdirilmişdir. *Qiymətləndirmə standartları* milli kurikulumda əks olunmuş nailiyyətlərə (nəticələrə) uyğun hazırlanır.

Qiymətləndirmə standartları 4 səviyyə üzrə *qiymətləndirilmə sxemləri* (**QS**) şəklində hazırlanır.

Səviyyə – 1 ən aşağı, səviyyə – 4 ən yüksək səviyyəni əks etdirir. Səviyyə – 1 və səviyyə – 2 əksər şagirdlər, səviyyə – 3 və xüsusilə səviyyə – 4 isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Qiymətləndirmə sxemləri qiymətləndirilmənin daha ədalətli, obyektiv aparılmasına imkan verir, etibarlılığı və ardıcıllığı təmin edir, tədrisin səmərəli təşkili üçün müəllimləri zəruri məlumatlarla təmin edir.

Bu isə müəllimə imkan verir ki, konkret şəraitdə müvafiq şərtlər üzrə öz qiymətləndirmə meyarlarını müəyyənləşdirsin.

Qiymətləndirmə sxemləri mahiyyət etibarı ilə holistik (QS) və analitik (QS) olmaqla iki yerə ayrılır.

*Holistik* (QS) şagirdin işi ilə bağlı ümumi təəssürat yaradır, sürətli qiymətləndirmə aparmaqla şagirdin nailiyyətləri barədə ümumi mənzərəni təsvir etməyə imkan verir. Bu növ qiymətləndirmə şagird fəaliyyətlərinin səviyyəsini əks etdirən 4-5 ballıq şkalaya əsaslanır.

*Analitik* qiymətləndirmədə də, əsasən, 4-5 ballıq şkaladan istifadə edilir. Bu zaman şagirdin ayrı-ayrı fəaliyyət sahələri üzrə bacarıqlarının səviyyəsi qiymətləndirilir.

Qiymətləndirmə ardıcıl aparılır, şagird nailiyyətlərinin səviyyəsi barədə daha ətraflı informasiya toplanır. Analitik qiymətləndirmə üçün daha artıq vaxt tələb olunur.

Fəaliyyət səviyyələrinin qiymətləndirilməsi üçün şagird hər bir səviyyə üzrə tapşırıqları hazırlamalı, əvvəlcə "ən yüksək", sonra isə "ən aşağı", daha sonda isə "aralıq səviyyə" müəyyənləşdirilməlidir.

Tapşırıqlar hazırlanarkən "ən yüksək" səviyyənin real olmasına diqqət yetirilməlidir.

Şagirdlərin məzmun standartlarına necə nail olduğunu dəyərləndirmək və əldə edilmiş bacarıqlar üzrə *yekun* qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin (testlərin, tapşırıqların, sualların) hazırlanması zamanı bütün səviyyələrin, eləcə də ayrı-ayrı məzmun xətlərinin təmsil olunmasına diqqət yetirmək lazımdır. Tapşırıqlar elə tərtib olunmalıdır ki, hətta orta səviyyəli şagirdlər tərəfindən yerinə yetirilə bilsin. Yekun qiymətləndirmə üçün tapşırıqların tərtibində sualların səviyyələr üzrə bölgüsü aşağıdakı şəkildə müəyyənləşdirilsin:

Səviyyə – 1 üzrə suallar 20%, səviyyə – 2 üzrə suallar 30%, səviyyə – 3 üzrə suallar 30%, səviyyə – 4 üzrə suallar 20%.

## Qiymətləndirmə cədvəlləri

Müəllim şagirdlərlə birlikdə qiymətləndirməni həyata keçirir.

***Cədvəl 1.*** *Qrupları qiymətləndirmək üçün meyarlar:*

| Qrupların № - si | Əməkdaşlıq | Dinləmə | İntizam | Əlavələr | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |

Dərsin əvvəlindən sonunadək qrupun işindən asılı olaraq hər meyarın altında "**+**" və ya " – " yazılır. Sonuncu sütunda " **+** " və " – " hesablanır.

***Cədvəl 2.*** *Müəllim meyarlar üzrə qrupların fəaliyyətini qiymətləndirir:*

| Meyarlar / Qruplar | Müzakirədə iştirak edir | Tapşırıqları yerinə yetirir | Öz fikirlərini aydın ifadə edir | Yoldaşlarını dinləyir və suallar verir | Nəticə |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |

Dərsin əvvəlindən sonunadək müəllim təyin edilmiş ballar üzrə qrupun fəaliyyətini qiymətləndirir.

***Cədvəl 3.*** *Müəllim qrupların fəaliyyətini onların dərsdə iştirak etmə fəallığına görə fərqləndirir.*

| Meyarlar / Qruplar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Fəal iştirak edir | | | | |
| Tapşırıqları yerinə yetirir | | | | |
| Öz fikirlərini ifadə edir | | | | |
| Yoldaşlarını dinləyir və suallar verir | | | | |
| Ümumi nəticə | | | | |

Müəllim təyin edilmiş ballar üzrə şagirdlərin fəaliyyətini qiymətləndirir.

***Cədvəl 4.*** *Müəllim qrupların fəaliyyətini onların dərsdə iştirak etmə səviyyəsinə görə qiymətləndirir:*

| Meyarlar | Fikirini sərbəst ifadə edir | | | | Nəticə çıxarır | | | | Mühakimə yürüdür | | | | Əməkdaşlıq edir | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Səviyyə / Qrup № | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV |
| 1 | | | | | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | | | | | | |
| 4 | | | | | | | | | | | | | | | | |

Müəllim qiymətləndirməni 1-10 bal əsasında aparır.

***Cədvəl 5.*** *Şagirdin həm özünü, həm də yoldaşını qiymətləndirmə cədvəli.*

| № | Adı, soyadı, atasının adı | Meyarlar | | | Nəticə |
|---|---|---|---|---|---|
| | | Müzakirədə iştirak edir | Bir-birini dinləyir | Fərqli fikirlər irəli sürür | |
| 1. | Şagirdin öz adı | | | | |
| 2. | Yoldaşının adı | | | | |
| 3. | Yoldaşının adı | | | | |
| 4. | Yoldaşının adı | | | | |

Cədvəldə hər şagird həm özünə, həm də yoldaşına 1 baldan 10 bala qədər qiymət yazır.

## Şagirdin özünüqiymətləndirmə cədvəlləri:

***Cədvəl 6.***

| Meyarlar / Şagird | Təqdim edirəm | Cümlə qururam | Fərqləndirirəm | Nəticə çıxarıram |
|---|---|---|---|---|
| 1 | | | | |
| 2 | | | | |
| 3 | | | | |
| 4 | | | | |

*Cədvəl 7.*

| Meyarlar / Şagird | Təsvir edirəm | Müqayisə edirəm | Nəticə çıxarıram |
|---|---|---|---|
| 1 | | | |
| 2 | | | |
| 3 | | | |
| 4 | | | |

*Cədvəl 8.*

| Gözlənilən nailiyyətlər | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Çətinlik çəkmədən səlis və aydın oxuyuram | | | |
| Oxuduğum mətni başa düşürəm | | | |
| Yazanda və danışanda öyrəndiyim qaydalara riayət edirəm | | | |
| Danışarkən jestlərdən istifadə edirəm | | | |
| Dinlədiyimə öz münasibətimi bildirirəm | | | |

*Cədvəl 9.*

| Ballar / Meyarlar | 5 | 4 | 3 | 2 |
|---|---|---|---|---|
| 1. Tapşırığı başa düşürəm | | | | |
| 2. Yoldaşlarımla əməkdaşlıq edirəm | | | | |
| 3. İşin müəyyən hissəsini yerinə yetirirəm | | | | |
| 4. Fəallıq göstərirəm | | | | |
| 5. Fikirlərimi qrupla bölüşürəm | | | | |

## Səviyyələr üzrə qiymətləndirmə cədvəli

| I səviyyə | II səviyyə | III səviyyə | VI səviyyə |
|---|---|---|---|
| Tapşırıq xarakterli sadə müraciətlərə (dəftəri aç, təkrar et...) əməl edir. Təqdim olunan nitq vahidlərini düzgün intonasiya ilə tələffüz edir. Təqdim olunan kiçikhəcmli mətni çətinliklə oxuyur. Təqdim olunan sadə sözləri düzgün yazmağa çalışır. | Tapşırıq xarakterli müraciyətlərə ( təqdim et, cavab ver, rəngini, sayını təsvir et...) əməl edir. Təqdim olunan əmr və nida cümlələrini müvafiq qaydalara uyğun tələffüz edir. Eşitdiyi 10 sözdən ibarət kiçikhəcmli mətnin məzmununu danışmağa çalışır. Eşitdiyi 10 sözdən ibarət mətni düzgün yazır. | Dinlədiyi tanış sözləri cümlələrdən fərqləndirir, mətni bütöv hissələrə ayırır. Təqdim edilən əmr və nida cümlələrini müvafiq qaydalara uyğun tələffuz edir. Sadə nəqli, sual cümlələrindən istifadə etməklə bir kiçikhəcmli mətn qurur. Təqdim edilən kiçikhəcmli mətni sinfin səviyyəsinə uyğun olaraq düzgün oxuyur. Eşitdiyi 20 sözdən ibarət tanış rabitəli mətni düzgün yazır. | Dinlədiyi mətndəki hadisələri sadalayır, mətndən sözləri ayıraraq mənasını izah edir. Müşahidə etdiyi əşya və hadisələrə aid üçüncü şəxsin dili ilə cümlələr qurur. Sadə nəqli, sual cümlələrindən istifadə etməklə iki kiçikhəcmli mətn qurur. Təqdim edilən kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. Eşitdiyi 25 sözdən ibarət tanış olmayan mətni düzgün yazır. Mətni yazarkən durğu işarələrinə (nöqtə, sual, nida) aid qaydalara riayət edir. |

## Dərslik komplekti haqqında

Təlimin digər dillərdə aparıldığı məktəblərin III sinfi üçün yazılmış dərslik komplekti 3 hissədən ibarətdir: şagirdlər üçün nəzərdə tutulmuş III sinif "Azərbaycan dili" dərsliyi, həmin dərslik əsasında işlənmiş "Metodik vəsait". Bu komplekt Azərbaycan Respublikasının təlimin digər dillərdə aparıldığı ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu əsasında hazırlanmışdır. Ənənəvi dərsliklərdən fərqli olaraq, iki hissədən ibarət olan dərslik komplekti müasir təhsilin qarşımızda qoyduğu mühüm məsələləri səmərəli şəkildə həll etməyə imkan yaradır, fəal dərsin mərhələlərini tam və keyfiyyətli şəkildə həyata keçirməyi asanlaşdırır. Yeni dərslik şagirdlərin marağına səbəb ola biləcək mövzularla zənginləşdirilib və həmin dərslikdə şagirdlərin həvəslə yerinə yetirmək istədikləri tapşırıqlar toplanılıb. "Metodik vəsait"də interaktiv dərs modellərinin kifayət qədər nümunələri verilmişdir ki, bu da müəllimlərin işini düzgün istiqamətləndirmək üçün nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, dərslik komplekti müasir dərsin daha da keyfiyyətli və faydalı keçməsi üçün bir vasitədir.

**III sinif "Azərbaycan dili"** dərsliyi 32 mövzu, 68 dərsdən ibarətdir. Hər dərs müəyyən bir mövzuya həsr olunub. I dərsdə əsas mətn verilir, II dərsdə verilən mətn isə I mətnin mövzusu ilə əlaqələndirilir. Dərslikdə verilən bütün mətnlər 7 əsas mövzuda qruplaşdırılıb:

1. **Doğma məktəb;**
2. **Milli dəyərlərimiz;**
3. **Azərbaycan – yurdum mənim!**
4. **Təbiəti qoruyaq!**
5. **Gəlin dostluq edək!**
6. **Yaxşı insan olaq!**
7. **Nağıllar aləminə səyahət.**

Göründüyü kimi, seçilmiş bütün mövzular şagirdlərin milli-vətənpərvərlik, adət-ənənələrimizə sadiqlik ruhunda tərbiyə edilməsi, doğma yurda hörmət, məhəbbət hissinin aşılanması, milli dəyərlərimizin qorunması, xalq tərəfindən mühafizə edilməsi, eləcə də şagirdlərdə ən adi insani keyfiyyətlərin formalaşdırılması, onların düzgün tərbiyə olunması, böyüyə hörmət, təbiətə qayğı, əməksevərlik, düzgünlük kimi gözəl keyfiyyətlərin aşılanması üçün nəzərdə tutulmuşdur.

Dərslik boyu uşaqların sevimli nağıl qəhrəmanı Cırtdanın müraciətindən istifadə olunmuşdur. Bu, şagirdlərin dərsliyə bir dost münasibəti bəsləmələri üçündür. Cırtdanın müracəti şagirdləri daha çox maraqlandırır, müəlliflər tərəfindən Cırtdanın qoyduğu suallar daha cəlbedici olur.

Məlumdur ki, II sinif Azərbaycan dili kursunda şagirdlər Azərbaycan əlifbasını öyrən - miş, dərs ilinin sonunda bir neçə saat bu hərfləri təkrar etmişlər. III sinif Azərbaycan dili kursunun qarşısında duran məqsəd isə II sinifdə keçilmiş hərfləri, xüsusilə, spesifik səsləri təkrar etmək (hər bir spesifik səsin təkrarına bir mətn həsr edilmişdir), bəzi düzgün yazı və tələffüz qaydalarını öyrətmək (cəm şəkilçiləri, q – ğ, k – y əvəzlənməsi, saitlər, samitlər, heca), şagirdlərə düzgün oxu qaydalarını başa salmaq, öyrədiləcək mətnin məzmununu mənimsətmək, şagirdlərin şifahi nitqini inkişaf etdirməkdən ibarətdir.

Mövzunun şagirdlər tərəfindən tam mənimsənməsi üçün hər mətnin sonunda testin ən sadə üsulundan istifadə etməklə suallar qoyulmuşdur. Əvvəlki dərsliklərdən fərqli olaraq, çalışmalar da məzmunca fərqli, kiçikyaşlı məktəblilərin yaş səviyyəsinə uyğun, cəlbedicidir. Hər bir mətn şagirdə müsbət keyfiyyətlər aşılamaqla, onun məntiqi təfəkkürünü inkişaf etdirir, şagirdi qoyulan məsələ ətrafında düşünməyə vadar edir.

Dərslik boyu verilmiş çalışmaların çoxu şagirdlərin düzgün yazı bacarıqlarını inkişaf etdirmək üçündür. Bəzi ulduz işarəli (*) çalışmalar isə Azərbaycan dilini praktik cəhətdən yaxşı bilən şagirdlər üçün nəzərdə tutulmuşdur.

**Metodik vəsait** müəllimlərin yaradıcılıq işlərini müasir dərsin tələblərinə cavab verə biləcək səviyyəyə uyğun istiqamətləndirmək üçün nəzərdə tutulmuşdur. Bu vəsaitdə fəal dərsin təxmini modelləri verilmişdir. Əlbəttə, verilən nümunələr müəllimlər üçün məcburi deyil, öz işinə daha yaradıcı yanaşan müəlimlər dərslərini fəal dərsin mərhələlərinə uyğun, lakin başqa bir şəkildə qurub, yeni ideyalar irəli sürə bilərlər.

Vəsait dərslikdə verilmiş bütün mövzuların şərhini əhatə edir. Dərslikdə 32 mövzu, 68 dərs olduğu üçün, vəsaitdə də 32 mövzu – 68 dərsin şərhi – dərs modeli verilmişdir. Milli kurikuluma uyğun məzmun standartları, standarta uyğun məqsəd, şərh olunan dərsin tipi, iş forması və üsulu, resurslar, fənlərarası inteqrasiya dərsin əvvəlində verilmişdir. Fəal dərsin mərhələlərini müəlliflər müəllimlərin *seçimindən* asılı olaraq, sinfin fəallaşdırılmasından başlamışlar.

**Sinfin fəallaşdırılması** mərhələsi kiçikyaşlı şagirdlərin diqqətini cəmləşdirmək, qarşıda qoyulacaq məsələnin həllinə cəlb etmək üçündür. Bu mərhələdə yeni dərsin mövzusuna uyğun seçilmiş oyunlar verilmişdir. Bu oyunlar şagirdlərin marağına səbəb olur, onları fəallaşdırır. Bu, sadəcə, dərsə hazırlıq mərhələsidir. Müəllim bu üsuldan istifadə etməyə də bilər.

**Motivasiya** mərhələsində hər dərsin mövzusuna uyğun maraqlı motivasiyalar hazırlanmış, onların həllinə kömək edən **yardımçı sual**, qarşıda qoyulacaq problemin həllinə istiqamət verən **tədqiqat sualı** qoyulmuşdur.

**Tədqiqatın aparılması** mərhələsində müəllimin kiçik qruplarla iş, cütlərlə iş üsulundan istifadə etməsi məqsədəuyğundur.

Sonra **Dərslik** üzərində işə başlanır. Bu mərhələdə hər bir müəllim öz yaradıcılıq imkanlarından müxtəlif şəkildə istifadə edə bilər. Bəzi dərslərdə dərsliklə iş tədqiqatın aparılmasından əvvələ keçirilmişdir ki, bu da dərsin quruluşundan asılıdır. (Belə dərslərdə tədqiqatın aparılması dərslikdəki mətnin üzərində qurulmuşdur).

**Məlumat mübadiləsi** mərhələsində əldə edilmiş informasiyanı şagirdlər digərləri ilə bölüşürlər. Bundan sonra şagirdlər əldə olunmuş faktları məqsədyönlü şəkildə müzakirə edirlər.

**Nəticə** mərhələsində müəllim şagirdlərin köməyilə əldə olunan bilgiləri ümumiləşdirir.

**Yaradıcı tətbiqetmə** mərhələsində şagirdlərə yeni mövzuya uyğun praktik tapşırıqlar verilir.

**Qiymətləndirmə** – vəsaitin əvvəlində verilən müvafiq cədvələ uyğun olaraq aparılır. Bu mərhələdə müəllim sinifdə aparılan işə uyğun olaraq qiymətləndirmə cədvəli seçməkdə sərbəstdir. Ona görə də hər bir dərsin şərhinin sonunda qiymətləndirmə cədvəlinin dəqiq nömrəsi qeyd edilməyib.

**Ev tapşırığı** mərhələsində evə daha çox tədqiqat və yaradıcılıq elementləri olan tapşırıqların verilməsi məqsədəuyğundur. Məlumdur ki, fəal təlim metodlarına əsasən, evə tapşırıq verilməsi əldə edilmiş bilgilərin möhkəmləndirilməsi xüsusiyyətini daşıyır. Əslində, hər bir müəllim çalışmalıdır ki, dərsdə bütün materialın şagirdlər tərəfindən mənimsənilməsinə nail olsun. Şagird nailiyyətləri isə hər dərsin sonunda müxtəlif qiymətləndirmə növlərinə əsasən qiymətləndirilir (müəllimin şagirdi qiymətləndirməsi, şagirdin özünü və ya yoldaşlarını qiymətləndirməsi). Müəllim sinifdəki hər bir şagirdin yeni məlumatı nə dərəcədə mənimsədiyini bilməli, şagirdin müstəqil işini istiqamətləndirməlidir.

Fəal təlimin tələblərinə görə, ev tapşırıqlarının yoxlanılmasına ayrıca mərhələ ayırmaq da lazım deyil. Müəllim bu tapşırıqların yerinə yetirilmə səviyyəsini ya dərsin istənilən mərhələsində, ya da formativ, kiçik summativ qiymətləndirmədə öyrənə bilər. Məsələn, şagird irəliləyişlərinin monitorinqi, müəyyən anlayışların mənimsənildiyini müşahidə etmək və ev tapşırıqlarını nəzərdən keçirməklə müntəzəm xarakter daşımalı, hər 6 həftədən gec olmayaraq təşkil edilməlidir. Əks-halda, əgər şagirdin ev tapşırıqlarının yoxlanışı aparılmazsa, şagird fəaliyyətdən qalaraq məktəbdə aldığı bilgilərin möhkəmləndirilməsinə nail ola bilməz.

Vəsaitdə müəllimlərin işinin daha keyfiyyətli qurulması üçün bir neçə bölmə də ayrılmışdır.

**I bölmə**də əlamətdar günlər haqqında qısa məlumat verilmişdir. Bildiyimiz kimi, dərslikdə əlamətdar günlər haqqında məlumatları həmin günlərin keçirildiyi tarixlərə uyğun mövzularda vermək mümkün deyil. Ona görə də bu mövzular planlaşdırmada öz əksini tapmamışdır. Müəllimlərə tövsiyə olunur ki, müvafiq tarixlərə uyğun olaraq bu mətnlərdən seçib dərsdə istifadə etsinlər. Onlardan imla yazı növündə də istifadə etmək olar.

**II bölmə**də müəllimlər üçün sinifdənxaric oxu materialları toplanmışdır. Burada verilən uşaq şeirləri, atalar sözləri, tapmacalar, bayatıların (tərcümələri də verilmişdir) seçimində müəllimlər sərbəstdirlər (sinfin səviyyəsi və dili praktik cəhətdən yaxşı bilən şagirdlərin miqdarı nəzərə alınmaqla).

Bu bölmədə şagirdlərin şifahi nitqini inkişaf etdirmək məqsədilə frazeoloji birləşmələr və onların tərcümələri də verilmişdir.

Şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək, başqaları ilə ünsiyyət qurmaq bacarığını inkişaf etdirmək məqsədilə **III bölmə**nin verilməsi məqsədəuyğun hesab edilmişdir. Bu bölmədə şagirdlərin ictimai yerlərdə ünsiyyət qurmaq imkanları göstərilmişdir. Bu məqsədlə müxtəlif məqamlarda işlədilən dialoqların, nitq etiketlərinin nümunələri verilmişdir. Bu ifadələrdən müəllim dərsdə müəyyən mövzuya uyğunlaşdırılmış şəkildə müxtəlif situasiyalarda istifadə edə bilər.

Vəsaitdə səhifə16-da illik tematik planlaşdırma da müəllimlərin ixtiyarına verilmişdir. Bu planlaşdırmaya müəllimlər bəzi əlavələr edə bilərlər (əlavə materiallardan istifadə etdikdə).

Məlumdur ki, təlimin digər dillərdə aparıldığı məktəblərin ibtidai siniflərində Azərbaycan dili fənni üzrə yoxlama yazı işləri planlaşdırmaya daxil deyil. Şagirdlərin Azərbaycan dilində düzgün yazı vərdişlərini inkişaf etdirmək məqsədilə müəllim müəyyən dərslərdə üzündən köçürmə yazı işlərindən, lüğət üzrə imlalardan, 5-6 cümlədən ibarət imla yazılarından, hətta sinfin səviyyəsindən asılı olaraq, şəkil üzrə iş yazı növündən və əlavə mətnlərdən istifadə edə bilər. Bu məqsədlə vəsaitin **IV bölməsindəki** mətnlərdən istifadə etmək olar.

Şagirdlərin Azərbaycan dilində cümlə qurmaq bacarığını inkişaf etdirmək məqsədilə burada tərcümə mətnləri də verilmişdir. Müəllim bu yazı növündən qruplarla işləyərkən kartoçkalarda tapşırıq şəklində istifadə edə bilər.

## İllik tematik planlaşdırma

| № | Mövzular | Saat | Dərslik (səh) | Metodik vəsait (səh) | Standart | |
|---|---|---|---|---|---|---|
| | | | | | I dərs | II dərs |
| | **Doğma məktəb** | | | | | |
| 1 | Bilik günü | 2 | 6 | 23-24 | 1.1.2., 1.2.2. 3.1.2., 4.1.1. | 1.1.1., 2.2.2. 3.1.3., 4.1.1. |
| 2 | Uşaqların sevinci | 2 | 9 | 24-26 | 1.1.2., 2.1.2. 3.1.1., 4.1.1. | 1.1.1., 2.1.2. 2.2.1., 4.1.2. |
| 3 | Azərbaycan dili dərsində | 2 | 11 | 26-28 | 1.1.1., 2.2.1. 3.1.1., 4.1.2. | 1.1.3., 2.1.1. 3.1.3., 4.1.1. |
| 4 | ”İlk dərs” şeiri | 2 | 14 | 29-31 | 1.1.1., 2.1.2. 3.1.3., 4.1.1. | 1.1.1., 2.1.2. 3.1.2., 4.1.1. |
| | **Milli dəyərlərimiz** | | | | | |
| 5 | Uşaqların sevimlisi | 2 | 17 | 31-33 | 2.2.1., 3.1.2. 3.1.3., 4.1.1. | 1.1.3., 2.2.1. 3.1.1., 4.1.1. |
| 6 | İçərişəhər | 2 | 19 | 33-35 | 2.1.2. 3.1.2., 4.1.1. | 1.1.3., 2.1.1. 3.1.2., 4.1.1. |
| 7 | Milli musiqimiz | 2 | 22 | 36-37 | 1.1.2., 2.2.1. 3.1.2., 4.1.1. | 2.1.2. 4.1.1., 4.1.2. |
| 8 | Bizim qəhrəmanlarımız | 2 | 25 | 38-40 | 1.1.3., 2.2.1. 3.1.2., 4.1.1. | 1.1.1., 2.2.2. 3.1.2., 4.1.1. |
| | **Azərbaycan - yurdum mənim** | | | | | |
| 9 | Azərbaycanım mənim | 2 | 27 | 40-42 | 2.1.1. 3.1.1., 4.1.1. | 2.1.1. 3.1.1., 4.1.1. |
| 10 | Bakı | 2 | 30 | 42-45 | 1.1.1., 3.1.1., 4.1.1. | 1.1.3., 2.1.1. 3.1.2., 4.1.1. |
| 11 | Xəzər dənizi | 2 | 32 | 45-47 | 2.1.2. 3.1.2., 4.1.1. | 1.1.2., 2.1.2. 3.1.1., 4.1.1. |
| 12 | Göygöl | 2 | 35 | 47-49 | 1.1.3., 2.1.1. 3.1.3., 4.1.1. | 2.1.2., 2.2.1. 3.1.3., 4.1.1. |
| 13 | Dağlar gözəli Şəki | 2 | 37 | 50-52 | 1.1.3., 2.2.1. 3.1.2., 4.1.1. | 2.1.2. 3.1.2., 4.1.1. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Təbiəti qoruyaq** | | | | | | |
| 14 | Təbiət | 2 | 40 | 52-55 | 1.1.1., 2.2.3.<br>3.1.2., 4.1.1. | 2.1.1., 2.2.2.<br>4.1.2. |
| 15 | Günəş | 2 | 42 | 55-57 | 1.1.1., 2.1.2.<br>3.1.1., 4.1.1. | 1.1.1., 2.2.1.<br>3.1.2., 4.1.1. |
| 16 | Torpaq | 2 | 45 | 57-60 | 1.1.2., 2.2.1.<br>3.1.3., 4.1.1. | 1.1.1., 2.1.2.<br>3.1.2., 4.1.3. |
| 17 | Su həyatdır | 2 | 47 | 60-62 | 1.1.2., 2.2.1.<br>3.1.2., 4.1.3. | 1.1.1., 2.1.2.<br>3.1.1., 4.1.1. |
| 18 | Hava | 2 | 51 | 62-64 | 1.1.1., 2.1.2.<br>3.1.2., 4.1.1. | 1.1.1., 2.2.1.<br>3.1.1., 4.1.3. |
| **Gəlin dostluq edək** | | | | | | |
| 19 | Hacıleylək və sərçə | 2 | 54 | 64-66 | 1.1.2., 2.1.1.<br>3.1.1., 4.1.3. | 2.2.1., 2.2.3.<br>3.1.2., 4.1.1. |
| 20 | Ləpirlər | 2 | 56 | 66-68 | 2.2.1., 2.2.2.<br>3.1.2., 4.1.1. | 2.1.1., 2.2.1.<br>3.1.2., 4.1.1. |
| 21 | Peşmançılıq | 2 | 60 | 69-71 | 2.1.1., 2.2.1.<br>3.1.3., 4.1.3. | 1.1.1., 2.2.1.<br>3.1.2., 4.1.1. |
| 22 | Yeddi nar çubuğu | 2 | 63 | 71-73 | 1.1.1., 2.1.2.<br>3.1.1., 4.1.1. | 1.1.2., 2.2.1.<br>3.1.1., 4.1.2. |
| **Yaxşı insan olaq** | | | | | | |
| 23 | Səbət əhvalatı | 2 | 66 | 74-75 | 1.1.2., 3.1.2.<br>3.1.3., 4.1.3. | 2.2.1., 2.2.3.<br>3.1.2., 4.1.2. |
| 24 | Pis adət | 2 | 69 | 76-77 | 1.1.1., 2.1.2.<br>3.1.2. | 1.1.2., 2.1.2.<br>3.1.1. |
| 25 | Balaca | 2 | 72 | 78-79 | 2.1.2., 2.2.2.<br>3.1.2., 4.1.3. | 1.1.2., 2.1.2.<br>3.1.3., 4.1.1. |
| 26 | Şir və siçan | 2 | 76 | 79-81 | 1.1.1., 2.1.2.<br>3.1.3., 4.1.1. | 1.1.1., 2.1.2.<br>3.1.3. |
| 27 | Ağacların bəhsi | 2 | 80 | 82-83 | 1.1.1., 2.1.2.<br>3.1.1., 4.1.1. | 1.1.2., 2.2.1.<br>3.1.2., 4.1.2. |
| **Nağıllar aləminə səyahət** | | | | | | |
| 28 | Cırtdanın nağılı | 2 | 84 | 84-85 | 1.1.1., 2.1.1.<br>3.1.2., 4.1.1. | 1.1.2., 2.2.2.<br>4.1.3. |
| 29 | Ana-bala məhəbbəti | 2 | 87 | 85-87 | 1.1.2., 2.2.3.<br>3.1.2., 4.1.1. | 2.1.2.<br>3.1.2., 4.1.3. |
| 30 | Şir və tülkü | 2 | 90 | 87-89 | 1.1.2., 2.2.1.<br>3.1.2., 4.1.2. | 1.1.2., 2.2.1.<br>3.1.2., 4.1.2. |
| 31 | Qızılgülün nağılı | 2 | 93 | 89-91 | 1.1.3., 2.2.2.<br>3.1.3., 4.1.3. | 1.1.2., 2.1.2.<br>3.1.1., 4.1.1. |
| 32 | Bülbülün nağılı | 2 | 97 | 91-93 | 2.2.1.<br>3.1.1., 4.1.1. | 2.1.1., 2.2.3.<br>4.1.1. |

## Mövzu 1. Bilik günü. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Dinlədiyi mətndə sözləri cümlələrdən fərqləndirməyi bacarır. Oxuduğu mətnin məzmununu qısa şəkildə danışmağı bacarır. Suallara uyğun cümlələr qurur; yeni sözləri və cümlələri düzgün yazır. Sadə cümlələri intonasiyaya uyğun düzgün oxumağı bacarır. Özü mətn qurur. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, diskussiya (müzakirə) | Dərslik, iş vərəqləri | A.d. - 1.1.2 H.b. - 3.1.1<br>T.i. - 1.1.1 A.d. - 1.2.6<br>A.d. - 1.2.5 A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə deyir ki, insanlarla ünsiyyət zamanı ən əsas məsələlərdən biri "*sehrli sözlər*"dən istifadə etməkdir: "*Buyurun*", "*Çox sağ ol*", "*Zəhmət olmasa*", "*Üzr istəyirəm*" və s. Daha hansı "sehrli sözlər"i bilirsiniz? Zəhmət olmasa, indi siz söyləyin. Şagirdlərdən birini seçərək yoldaşları ilə salamlaşma təklif edir. Şagird otaqda sərbəst hərəkət edərək "sehrli sözlər"dən istifadə edir, yoldaşlarını salamlayır. Görüşmə vaxtı 4 dəqiqədir. Şagird çalışmalıdır ki, çox adamla salamlaşsın.

**Motivasiya.** Müəllim lövhədən 2 şəkil asır. 1-ci şəkildə adi mənzildəki otaq şəkli, 2-ci şəkildə sinif otağı təsvir edilib.

**Yardımçı sual.** Uşaqlar, şəkildə təsvir olunmuş otaqlar harada yerləşib?

**Tədqiqat sualı.** İnsan biliyini necə artırır? İlk dəfə bilik gününü harada qarşılayırıq?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri əvvəlcədən hazırladığı rəngli fiqurlara əsasən 3 qrupa bölür. Hər bir qrupa iş vərəqi təqdim olunur. İş vərəqlərində tapşırıqlar yazılıb. Qruplar fəaliyyətə başlayırlar.

*İş vərəqi 1.* – Bilik günü sizin üçün necə bayramdır?

*İş vərəqi 2.* – Bilikli olmaq nə deməkdir?

*İş vərəqi 3.* – Elm, bilik haqqında şeir, atalar sözləri, məsəl və s. bilirsinizmi? (aşağı siniflərdə öyrəndiklərindən)

Hər qrupdan 1 şagird suallara cavab verir. Cavablar dinlənilir. Ən yaxşı cavab müəllim tərəfindən fərqləndirilir.

**Dərsliklə iş.** Dərslikdəki mətn oxunur. Çətin sözlərin mənası (lüğət) izah edilir, çalışma № 1, 2, 3 yerinə yetirilir. Şagirdlər mətni oxuyurlar, tələffüzdəki nöqsanlar müəllim tərəfindən düzəldilir.

**Məlumat mübadiləsi.** "*Savadsız adam kor kimidir*" atalar sözü təhlil edilir.

**Müzakirə.** Şagirdlər bu mövzuda müzakirələr aparırlar, onların cavabları dinlənilir, müzakirə edilir.

Əşya və hadisələrin əlamətlərini təsvir etməyi bacarır.

**Nəticə və ümumiləşdirmə.** Bilik insan həyatında çox vacibdir. Bilik günü mühüm bir hadisə kimi hər il qeyd edilir. Şagirdlər bilik almaq üçün hər il məktəbə tələsirlər. Bu fikirləri şifahi şəkildə ifadə etməklə şagirdlərin nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Elm, bilik haqqında evdəkilərdən atalar sözü soruşub öyrənmək (kitabxanaya da getmək olar) təklif olunur.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mövzudakı mətni danışmaq, çalışma № 6, 7-ni yazmaq tapşırılır.

## Mövzu 1. Bilik günü. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin dili ilə təsvir edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1 .1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Verilmiş tapşırıqları anladığı şəkildə icra edir.<br>Əşya və hadisələrin əlamətlərini təsvir etməyi bacarır.<br>Yeni öyrəndiyi sözləri tərcümə edir.<br>Sözləri və sadə cümlələri düzgün yazmağı öyrənir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Əqli hücum, diskussiya | Dərslik, şəkillər, əşyalar (dərs ləvazimatları), iş vərəqləri | A.d. - 1.1.2 H.b. - 3.1.1<br>T.i. - 1.1.1 A.d. - 1.2.6<br>A.d. - 1.2.5 A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdləri 2 qrupa bölür. Müəllim stolunun üzərinə müxtəlif dərs ləvazimatları düzülür (dəftər, qələm, pozan və s.). Hər iki qrupun şagirdləri gözlərini yumurlar. Müəllim əşyalardan bir neçəsini stolun üstündən götürür. Sonra şagirdlər gözlərini açırlar. Hansı qrup stoldakı dəyişiklikləri çox hiss etsə, qalib gəlir.

**Motivasiya.** Müəllim lövhənin ortasına arxası yapışqanlı boş otaq təsvir edilmiş bir şəkil asır. Şəklin ətrafında arxası yapışqanlı vərəqlərdə parta, stol, stul, güzgülü şkaf, müəllim stolu, yazı taxtası, divan, kreslo, şifoner, xəritə, proyektor təsviri olan şəkillər asılır.

**Yardımçı sual.** Ətrafdakı şəkillərdən hansıları boş otaqda yerləşdirsəniz, sinif otağı yarada bilərsiniz?

**Tədqiqat sualı.** Məktəb ləvazimatları bizə nə üçün lazımdır? İnsan bunlardan nə zaman istifadə edir?

*Birinci cüt* sözlərdə buraxılmış samit səsləri yerinə qoymalıdır.
*İkinci cüt* cümlələrin sonunda düzgün durğu işarələrini qoymalıdır.
*Üçüncü cüt* cümlələrdə sualın yerinə söz yazaraq cümlə qurmalıdır.
Şagirdlər fəaliyyətə başlayırlar. Cavablar dinlənilir.

**Dərsliklə iş.** Dərslikdə çalışma № 6 üzərində iş aparılır. Kiçik mətn qurulur. Mətnin lüğəti tərtib edilir. Çalışma № 7, 8, 9 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Çalışma № 10-da verilmiş sxemlərə əsasən cümlələr tərtib edilir. Şagirdlər bu dərsdə öyrəndikləri və təkrarən xatırladıqları sual bildirən sözləri tələffüz edərək suallara uyğun sözlər fikirləşirlər.

**Müzakirə.** Şagirdlər suallar ətrafında müzakirə aparırlar. Qurduqları mətni təhlil edərək məktəb ləvazimatlarının adlarını, onların suallarını müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Məktəblinin mükəmməl bilik alması üçün onun dərs ləvazimatları olmalıdır. Dərs ləvazimatlarını qorumaq, onlardan səmərəli istifadə etmək lazımdır. Bu barədə fikirlərini ifadə etməklə şagirdlərin şifahi nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə təklif olunur ki, gələn dərsə sevdiyi, ona əziz olan bir dərs ləvazimatını gətirsin və həmin əşya ilə bağlı bir xatirəsini danışsın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Çal.№ 6 üzrə qurulmuş mətni danışmaq, çal.№ 11-i yazmaq tapşırılır.

## Mövzu 2. Uşaqların sevinci. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.1.2 - | Sadə cümləni (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümləni düzgün yazır. |
| Məqsəd | Tələb olunan tapşırıqlara əməl edir. Cümlələri düzgün intonasiya ilə tələffüz edir. Mətnləri oxuyur, sözləri və sadə cümlələri düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Əqli hücum, diskussiya | Dərslik, şəkillər | A.d. - 1.1.2 H.b. - 3.1.1 T.i. - 2.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdləri dairə şəklində düzür. "*Gündüz*" dedikdə şagirdlər hərəkət edirlər, "*gecə*" dedikdə dayanırlar. Dayanmayan şagird oyunu tərk edir. Sona qalan şagird qalib gəlir.

**Motivasiya.** Lövhədən 2 tablo asılmışdır. Birincidə ulu öndərimiz uşaqların əhatəsində təsvir olunmuşdur. İkinci tabloda isə Prezidentimiz İlham Əliyev xanımı Mehriban Əliyeva ilə yeni tikilmiş məktəb binasının açılışında iştirak edirlər.

**Yardımçı sual.** Bu şəkillərə baxın. Şəkillərdəki oxşar cəhətlər haqqında nə deyə bilərsiniz?

**Tədqiqat sualı.** Uşaqların yaxşı təhsil alması üçün respublikamızda hansı tədbirlər keçirilir?

**Tədqiqatın aparılması.** Müəllim cütlərə iş vərəqləri paylayır.
*Birinci cüt* cümlələrdə buraxılmış sözləri yerinə qoymalıdır.
*İkinci cüt* sözlərdə buraxılmış sait səsləri yerinə qoymalıdır.

**Tədqiqatın aparılması.** Cütlərlə iş.
Müəllim ayrı-ayrı cütlərə çal.№ 1, 2, 3, 4, 5-dəki tapşırıqların cavabını tapmağı tapşırır.
*Birinci cüt* tapdığı sözü cümlədə işlədir və tərcümə edir.
*İkinci cüt* Heydər babanın tövsiyəsini əzbər deməyə çalışır.
*Üçüncü cüt* tapdığı sözü cümlədə işlədir.
*Dördüncü cüt* söz birləşmələrini tərcümə edərək cümlədə işlədir.
*Beşinci cüt* cümlələri tamamlayır.
***Qeyd:*** Müəllim çalışmaları çətinlik dərəcəsinə görə şagirdlərin səviyyəsini nəzərə alaraq verə bilər.
**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir.
**Məlumat mübadiləsi. Müzakirə.** "*Keyfiyyətli təhsil xalqımızın gələcəyidir*" aforizmi təhlil edilir. Bu fikir ətrafında müzakirə aparılır.

**Nəticə və ümumiləşdirmə.** Biz babalarımızın sözünü qiymətləndirməliyik. Babalarımız isə deyib ki, həyatda hər şeyə nail olmaq üçün yaxşı təhsil almaq vacibdir. Bu mövzu ətrafında şagirdlər fikirlərini müstəqil şəkildə ifadə etməyi, öyrəndikləri yeni sözlərdən istifadə etməklə düzgün cümlə qurmağı bacarırlar.
**Yaradıcı tətbiqetmə.** Müəllim şagirdlərə biliyin əhəmiyyətini təsdiq edən bir neçə atalar sözü tapmağı tapşırır.
**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.
**Ev tapşırığı.** Heydər babanın mətndə verilmiş nəsihətli sözlərini əzbərləyin. Biliyə aid bir neçə atalar sözü tapıb yazın.

## Mövzu 2. Uşaqların sevinci. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümləni (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Verilmiş tapşırıqları başa düşərək yerinə yetirir.<br>Əlavə sözlərin köməyi ilə mətn qurur.<br>Qurduğu mətni danışa bilir. Cümlələri bir-birindən fərqləndirir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Əqli hücum, diskussiya | Dərslik, iş vərəqləri | A.d. - 1.2.1 A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim istənilən bir hərflə başlayan şəhər adı deyir. Şagirdlər isə sıra ilə şəhər adının sonuncu hərfi ilə başlayan digər şəhər adı söyləməyə çalışırlar. Şəhər adı söyləyə bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən Azərbaycan əlifbasını asır. Şəkildə samitlər göy, saitlər qırmızı rəngdə göstərilmişdir.

**Yardımçı sual.** Azərbaycan əlifbasında neçə hərf və neçə səs var?

**Tədqiqat sualı.** Nə üçün bəzi hərflər göy, bəziləri qırmızı rəngdədir? Onların arasında hansı fərqlər var?

**Tədqiqatın aparılması.** Müəllim cütlərə iş vərəqləri paylayır.

*Birinci cüt* verilmiş sözlərdə buraxılmış hərflərin yerinə samit səslər əlavə etməlidir.

*İkinci cüt* verilmiş sözlərdə buraxılmış hərflərin yerinə sait səslər əlavə etməlidir.

*Üçüncü cüt* verilmiş sözləri tərcümə etməlidir.

*Dördüncü cüt* sözlərdə saitlərin altından xətt çəkməlidir.

*Beşinci cüt* sait səslərlə başlayan sözlər yazmalıdır.

**Dərsliklə iş.** Şagirdlər müəllimin köməyi ilə çalışma № 7-dəki mətni tərtib edirlər. Mətni danışmağa çalışırlar.

**Məlumat mübadiləsi. Müzakirə.** Cədvəldə qırmızı ilə yazılmış sait səslər tələffüz edilir. Sözün əvvəlində, ortasında, axırında işlənən saitlərdən ibarət sözlər söylənilir. Sait səslərin xüsusiyyətləri müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Səslərin köməyi ilə sözlər yaranır. Biz səsləri deyirik, hərfləri yazırıq. Səslərin tələffüzü fərqlidir. Sait səslər maneəsiz, sərbəst tələffüz edilir.

**Yaradıcı tətbiqetmə.** Bütün saitlərlə başlayan insan adları tapıb yazmalı (”I” saitindən başqa).

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** 7 №-li çalışmadakı mətni danışmaq, çalışma № 8, 9, 10, 11-i yazmaq.

## Mövzu 3. Azərbaycan dili dərsində. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Verilmiş tapşırıqları anlayaraq icra edir.<br>Mətnə aid sualları seçə bilir.<br>Əşya və hadisələrin əlamətlərinə uyğun onları düzgün təsvir edir. Oxuduğunu müzakirə etməyi bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplara iş | Əqli hücum, səs assosiasiyası, müzakirə | Dərslik, iş vərəqləri | A.d. - 1.2.1 A.d. - 2.2.6<br>A.d. - 1.2.8 A.d. - 1.2.6 |

**Sinfin fəallaşdırılması.** Müəllim lövhədə ağlında tutduğu sözün hərfləri qədər damalar çəkir. Sonra həmin sözü şagirdlərə müxtəlif sözlər vasitəsilə izah etməyə çalışır. Şagirdlər sıra ilə istənilən bir hərfi deməyə başlayırlar. Əgər həmin hərf sözdə varsa, uyğun damanın içərisinə yazılır, həmin şagird yenə də hərf deyir, o hərf sözdə yoxdursa, növbə digər şagirdə keçir. Oyun belə davam edir. Sonuncu hərfi və ya sözü tapan qalib gəlir.

**Motivasiya.** Müəllim lövhədə içində ərəb və müasir Azərbaycan qrafikası ilə yazı olan 2 dairə şəkli çəkir.




**Yardımçı sual.** Bu dairələrdən hansının içindəki yazını oxuya bilərsiniz?

**Tədqiqat sualı.** Sizcə, yazıları oxumaq üçün siz nəyi bilməlisiniz?

**Tədqiqatın aparılması.** Müəlim sinfi 3 qrupa bölür. Hər qrupa iş vərəqləri təqdim edir. İş vərəqlərindəki suallara cavab tapmaq tapşırılır.

*I iş vərəqi.* – Siz hansı dildə yazılmış yazıları oxuya bilərsiniz?

*II iş vərəqi.* – Vətənimizin dövlət dili hansıdır?

*III iş vərəqi.* – Bizim Respublikamızda daha hansı dillərdə danışırlar?

Cavablar dinlənilir. Müzakirə edilir.

**Dərsliklə iş.** Mətn oxunur, tərcümə edilir. Çalışma № 1, 2, 5 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** "*Hər kəsə öz Vətəni şirindir*" atalar sözü təhlil edilir.

**Müzakirə.** Şagirdlərlə bu barədə müzakirə aparılır.

**Nəticə və ümumiləşdirmə.** İnsan üçün ən gözəl və doğma yer onun Vətənidir. Hər kəsin öz vətəni olur. Vətənini sevən onun ana dilini də bilməli və hörmətlə yanaşmalıdır. Bu fikirləri söyləməklə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** Vətən, dil haqqında kiçik şeirlər, atalar sözləri tapıb dəftərə yazmaq.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Azərbaycan dili dərsində*" mətnini danışmaq, çal.№ 4-ü yazmaq.

## Mövzu 3. Azərbaycan dili dərsində. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətni hissələrə ayıraraq ona aid olan sualları seçməyi bacarır.<br>Müəyyən edilmiş mövzuda mətn qurmağı bacarır.<br>Yeni öyrəndiyi sözləri tərcümə edir. Nitq etiketinə dair sözləri deməyi bacarır, düzgün yazmağı, durğu işarələrini qoymağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Əqli hücum, müzakirə | Dərslik, iş vərəqləri | A.d. - 1.1 A.d. - 2.3 T.i. - 2.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə üzərində natamam cümlələr yazılmış kartlar verir. *Məsələn:* "Mən - - - rəngi sevirəm, Mənim ən böyük istəyim - - -, Mən - - - sevirəm". Hər bir şagird öz qeydini edib qarşıdakı adama ötürür. Bütün sinif kartları işlədikdən sonra kartlar toplanır.

**Motivasiya.** Müəllim lövhəyə – ortada böyük hərflərlə "**DİL**" sözünü yazır.




**Yardımçı sual.** Sizcə, bu söz hansı mənalarda işlənir?

**Tədqiqat sualı.** Sizcə, yazıları oxumaq üçün siz nəyi bilməlisiniz?

**Tədqiqatın aparılması.**

Lövhədə alınır:




Şagirdlər bu ifadələrdən hansılarının həqiqi mənada işləndikləri qənaətinə gəlməlidirlər. Təyin edilmiş cütlüklərə Azərbaycan dilinin əhəmiyyəti barədə suallar paylanır.

*I cütlüyün sualı:* Siz Azərbaycan dilini nə vaxtdan bilirsiniz?

*II cütlüyün sualı:* Azərbaycan dilində danışmaq sizə nə verir?

*III cütlüyün sualı:* Azərbaycanda başqa millətlərin də Azərbaycan dilində danışa bilməsi vacibdirmi?

*IV cütlüyün sualı:* Nə üçün Azərbaycan dilini hamı bilməlidir?

Şagirdlər fəaliyyətə başlayırlar. Onların cavabları dinlənilir.

**Dərsliklə iş.** Çalışma № 7-dəki mətn oxunur, tərcümə edilir. Müəllimin köməyilə lüğət tərtib edilir. Çalışma № 8, 9 yerinə yetirilir.

**Məlumat mübadiləsi. Müzakirə.** Dərslikdəki "*Yadda saxla*" başlığı altında verilən fikir şagirdlər tərəfindən oxunur, müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Azərbaycan dili çox zərif və incə dildir. O, bizim Respublikamızın dövlət dilidir. Onu hamının bilməsi vacibdir. Hər kəs düzgün danışmalı, incə və zərif ifadələrdən istifadə etməlidir. Belə sözləri işlətməklə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** Bacardığınız qədər incə və zərif sözlər öyrənib yoldaşlarınıza demək üçün yazın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Çalışma № 7-dəki mətni danışmaq, çalışma № 10 üzərində işləmək.

## Mövzu 4. "İlk dərs" şeiri. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Verilmiş şeirin məzmununu anlayır, əzbər öyrənməyə çalışır, intonasiya ilə oxumağı öyrənir.<br>Oxuduğu mətni lüğət vasitəsilə tərcümə edir.<br>Sözləri düzgün yazmağı öyrənir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Rollu oyun, əqli hücum, müzakirə, klaster | Dərslik, iş vərəqləri | A.d. - 1.2.1<br>A.d. - 1.2.5<br>A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərin hər birinə könüllü olaraq məktəbdə çalışan insanların vəzifələrini tapşırır. Onlar məktəb direktoru, müəllim, kitabxanaçı kimi rolları oynayırlar. Məktəb işçilərinin vəzifələrini "icra edirlər". Bu zaman şagirdlər məktəb işçilərinin vəzifələrinin nə qədər çətin və şərəfli olduğunu iş prosesində görürlər.

**Motivasiya.** Müəllim "**doğma**" sözünü lövhənin ortasında yazır. Şagirdlərdən bu sözlə bağlı ola biləcək sözləri soruşub həmin sözü şaxələndirir. (Bu, **yardımçı sual** ola bilər).




*Məktəb* sözünün altından xətt çəkib şagirdlərin diqqətini bu sözə cəlb edir.

**Tədqiqat sualı.** "Məktəb" sözü sizə nələri xatırladır? İlk dərs günü harada keçir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri 3 qrupa bölür. Hər bir qrupa iş vərəqi təqdim olunur. İş vərəqlərində olan tapşırıqlar müəllim tərəfindən aydınlaşdırılır. Qruplar fəaliyyətə başlayırlar.

*İş vərəqi 1.* – İlk dərs gününüzü xatırlayırsınızmı?

*İş vərəqi 2.* – Məktəb bizə nə üçün doğmadır? İlk dəfə məktəbə gəldiyiniz gündən nələri öyrəndiniz?

*İş vərəqi 3.* – Hər gün məktəbdə bizi nələr gözləyir?

Qrup üzvləri suallar ətrafında müzakirələr aparırlar.

**Dərsliklə iş.** Dərslikdəki şeir ifadəli şəkildə oxunur. Mənası izah edilir. Şagirdlər tərəfindən nəsrə çevrilir. Lüğət öyrədilir. Çalışma № 1, 3, 4 yazdırılır.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Elm ağılın çırağıdır*" atalar sözü təhlil edilir. Şagirdlərin cavabları dinlənilir. Bu barədə müzakirə aparılır.

**Nəticə və ümumiləşdirmə.** Məktəb bizə ana kimi doğmadır. Ora təlim-tərbiyə, elm, bilik, bacarıq, dost, yoldaş qazanmaq və sağlam böyümək üçün ən əlverişli ocaqdır. Günümüzün ən maraqlı hissəsini burada keçiririk. Vətən üçün layiqli övladlar kimi biz məktəbdə formalaşırıq.  R. N. İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Məktəbdə keçən bir gününüzü təsvir edən kiçik həcmli hekayə fikirləşmək.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Şeiri əzbərləmək, çalışma № 7-ni yazmaq.

## Mövzu 4. "İlk dərs" şeiri. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümlələri müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Verilmiş mətnin məzmununu anlayır, ona aid olan sualları seçir, mətni adlandırmağı bacarır.<br>Cümlələri düzgün intonasiya ilə oxumağı bacarır.<br>Oxuduğu mətnin məzmununu çatdırmağı bacarır, söz və ifadələri düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Əqli hücum, klaster,müzakirə | Dərslik, kartoçkalar | A.d. - 1.1.2 A.d. - 2.2.6<br>A.d. - 1.2.3 A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim hər bir şagirdə üzərində şəkil təsvir olunmuş kart verir. Hər bir şəkil cütlüklərdən biridir. *Məsələn:* pişik və top, gül və yarpaq, kitab və dəftər və s. Sonra şagirdlər danışmadan öz cütlərini tapmalıdırlar. Cütünü tapan şagird onun yanında oturur. Şagirdlər bir növ öz yoldaşlarını tapmağa alışdırılırlar.

**Motivasiya.** Müəllim lövhəyə – ortada böyük hərflərlə "**SİNİF YOLDAŞI**" ifadəsini yazır.

**Yardımçı sual.** Hansı uşaqlara sinif yoldaşı demək olar?




Müəllim şagirdlərdən eşitdiyi sözləri bu şəkildə lövhəyə yerləşdirir.

**Tədqiqat sualı.** Sinif yoldaşlarınızı necə görmək istərdiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagird cütlüklərinə aşağıdakı kartoçkaları paylayır.

| *Kartoçka № 1* | *Kartoçka № 2* |
|---|---|
| Sinif yoldaşların ilə münasibətin necədir? | Sinif yoldaşlarından neçəsi ilə dostluq edirsən? Nə üçün? |

| *Kartoçka № 3* | *Kartoçka № 4* |
|---|---|
| Necə insanlar ilə dostluq etmək istəməzdin? | Sinif nümayəndəsindən razısanmı? Nə üçün? |

| *Kartoçka № 5* | *Kartoçka № 6* |
|---|---|
| Parta yoldaşın necə adamdır? Onu təsvir et. | Sinifdə hansı uşaq sinif nümayəndəsi olsa, yaxşı olar? |

Şagirdlər kartoçkadakı sualları cavablandırırlar. Onların cavabları müzakirə edilir.

**Dərsliklə iş.** Çalışma №5-dəki mətn oxunur, lüğət üzrə iş aparılır, çalışma № 6,7 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Şagird çalışma yazarkən samit səslərin seçilməsinə fikir verir. Samit səslər haqqında qısa məlumat şagirdlərə çatdırılır. Onlar çalışma № 8-dəki atalar sözlərində buraxılmış samit səsləri yerinə qoyaraq atalar sözlərini oxuyurlar, onun mənasını izah etməyə çalışırlar.

**Müzakirə.** Çalışma № 11-dəki mətn müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Hər bir şagird məktəbdə, onlar üçün nəzərdə tutulmuş sinifdə təhsil alır. Orada sinif yoldaşları ilə ünsiyyətdə olur, hər birinin yaxşı və pis cəhətlərini görür. Hər kəs çalışmalıdır ki, onu əhatə edən insanlarla səmimi və mehriban olsun. Sinifdə elm, savad almaqla yanaşı, gözəl insani keyfiyyətlər də öyrənsin. Bu fikirləri ifadə etməklə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə sinif yoldaşlarından birini təsvir edən kiçik mətn qurmaq tapşırılır.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Çalışma № 5-dəki mətni öyrənmək.

## Mövzu 5. Uşaqların sevimlisi. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Sözləri və cümlələri düzgün tələffüz edir.<br>Gördüklərini təsvir edir. Mətni danışır.<br>Düzgün yazır. Sözləri və cümlələri tərcümə edir.<br>Sözləri düzgün yazmağı öyrənir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi | Dərslik,şəkillər, iş vərəqləri | A.d. - 1.2.3 T.i. - 2.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllim uşaqları 4 qrupa bölür. Hər qrup verilmiş vərəqdə tez zamanda ilin dörd fəslindən birinin şəklini çəkir. Hansı qrup daha gözəl çəksə, o qrup qalib gəlir.

**Motivasiya.** Lövhədən "*Tülkü həccə gedir*", "*Tıq-tıq xanım*" nağıllarının şəkilləri asılmışdır.

**Yardımçı sual.** Bu şəkillər hansı nağıllardandır?

**Tədqiqat sualı.** Bu nağılları uşaqlar üçün kim yazmışdır?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim iş vərəqləri paylayır.

*I qrup.* Azərbaycan uşaq şair və yazıçılarından kimləri tanıyırsınız? Hansı əsərləri ilə tanışsınız? Bu haqda qısa məlumat verin.

*II qrup.* Müsbət keyfiyyətləri bildirən sözlərdən bir neçəsini cümlədə işlədin.

*III qrup.* Verilmiş keyfiyyətləri bir sözlə adlandırın:

gecə-gündüz çalışan, çox işləyən –

vətənini, xalqını sevən adam –

heç nədən qorxmayan, çəkinməyən –

dərslərindən həmişə əla qiymət alan –

dərs ləvazimatlarını, üstünü təmiz saxlayan –

*IV qrup.* Arı nə üçün doqquz ay çalışır, axı ilimiz on iki aydır? Bu suala cavab tapmağa çalışın.

***Qeyd:*** Müəllim tapşırıqları şagirdlərin dil bilmə səviyyəsinə görə paylaya bilər.

**Dərsliklə iş.** Mətn oxunur, çətin sözlər tərcümə edilir.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Əmək insanı ucaldır*" atalar sözünü necə başa düşürsünüz? Bu barədə şagirdlərin fikirləri dinlənilir, müzakirə aparılır.

**Nəticə və ümumiləşdirmə.** Biz öz şair və yazıçılarımızı tanımalıyıq. Onların əsərlərini oxumalıyıq. Əsərlərdə sadalanan müsbət keyfiyyətlərə yiyələnməliyik. Əsər oxumaqla nitqi zənginləşdirmək olar.

**Yaradıcı tətbiqetmə.** Müəllim tapşırır ki, şagirdlər A.Şaiqin nağıllarından birini öyrənib məzmununu yoldaşlarına danışsınlar.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni qısaca danışmaq, çalışma № 1, 2, 5, 6 üzərində işləmək.

***Qeyd:*** Dili yaxşı bilənlər "*Arı*" şeirini əzbərləyə bilərlər.

## Mövzu 5. Uşaqların sevimlisi. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |

| | |
|---|---|
| Məqsəd | Gördüklərini asanlıqla təsvir edir.<br>Mətnləri oxuyur, tərcümə edir, düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, rollu oyun | Dərslik, cizgi filmi | A.d. - 1.2.5 A.d. - 1.2.8 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdləri 4 qrupa bölür. Hər qrupa 5 dəqiqə ərzində meyvə şəkilləri çəkmək tapşırılır. Hansı qrup bu vaxt ərzində daha çox meyvə şəkli çəkərsə, o qrup qalib gəlir.

**Motivasiya.** Uşaqlar "*Tıq-tıq xanım*" cizgi filminə baxırlar.

**Yardımçı sual.** Cizgi filmindəki nağılın müəllifi kimdir? Daha hansı cizgi filmlərini sevirsiniz?

**Tədqiqat sualı.** Tıq-tıq xanımın hansı keyfiyyətləri sizin xoşunuza gəldi, hansılar gəlmədi? Sizcə, dostu necə tapmaq olar?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim iş vərəqlərini paylayır.

*I qrup.* Arının və kəpənəyin əlamətlərini sadalayın.

*II qrup.* "*Kəpənək*", "*arı*", "*bal*", "*çəmənlik*" sözlərini cümlədə işlədin.

*III qrup.* Mətndən əlamət bildirən sözləri seçib cümlədə işlədin.

*IV qrup.* Biz böcəklərlə hansı fəsildə rastlaşırıq? Həmin fəsli təsvir edin.

**Dərsliklə iş.** Müəllim "*Arı və kəpənək*" mətnini rollar üzrə oxutdurur, çətin sözləri tərcümə edir.

**Məlumat mübadiləsi. Müzakirə.** Arının insanlara böyük xeyri var. Onun xeyri nədir? Bu barədə nə düşünürsünüz? Şagirdlər bu barədə müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Yer üzərində elə bir heyvan, elə bir böcək, elə bir quş yoxdur ki, onun insanlara xeyri olmasın. Buna görə də onları qorumaq lazımdır. Bu fikirləri ifadə etməklə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** İnsanlara xeyir verən böcəklər haqqında məlumat toplamaq yaxşı olar.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 8, 9, 11, 12, 13, 14, 15 üzərində işləmək.

## Mövzu 6. İçərişəhər. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.2 -<br>3.1.2 -<br>4.1.1 - | Sadə cümlələri (əmr nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.<br>Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir.<br>Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Sözləri, cümlələri düzgün tələffüz edir, oxuyur, düzgün yazır. Gördüklərini təsvir edir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, dis - kussiya, BİBÖ | Dərslik,şəkillər, iş vərəqləri | A.d. - 4.1.8 A.d. - 1.2.3 |

**Sinfin fəallaşdırılması.** Müəllim uşaqları qruplara bölür. Hər qrupa bir meyvə adı deyir. Hansı qrup meyvənin daha çox əlamətini desə, o qrup qalib sayılır.

**Motivasiya.** Müəllim lövhədən müxtəlif şəkillər asır. Burada təbiət, İçərişəhər, məktəb təsvir olunmuşdur.

**Yardımçı sual.** Şəkillərdə nə təsvir olunmuşdur? Şəkillər haqqında ayrılıqda nə deyə bilərsiniz?

**Tədqiqat sualı.** Gördükləriniz bizim üçün çox əzizdir. Biz İçərişəhəri milli dəyərlərimizdən hesab edə bilərikmi?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim iş vərəqlərini paylayır.

*I qrup.* İçərişəhər haqqında bildiklərinizi yazın.

*II qrup.* Yardımçı sözlərdən istifadə edərək İçərişəhəri təsvir edin: dar, hündür, ensiz, binalar, maraqlı, tarixi, dalanlar, Qoşa qala qapısı, Qız qalası, Xan sarayı.

*III qrup.* Tarixi abidələrimizdən daha hansılarının adlarını çəkə bilərsiniz?

*IV qrup.* İçərişəhər bizim tarixi abidəmizdir– cümləsinin dəqiq tərcüməsini yazın.

Müəllim cavabları dinləyir, düzəlişlər edir.

**Dərsliklə iş.** Müəllim BİBÖ (*Bilirəm/İstəyirəm biləm/Öyrəndim*) üsulundan istifadə edərək mətni şagirdlərə oxutdurur. Çətin sözləri tərcümə edir. Çalışma № 1, 2, 3 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** İçərişəhər qoruq elan edilmişdir. Nə üçün? Biz onu nə üçün qorumalıyıq? Şagirdlər sual ətrafında müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Azərbaycan qədim tarixə malik olan bir dövlətdir. Onun milli dəyərləri var. İçərişəhər də onun dəyərlərindəndir. Biz onu tarixi abidə kimi qorumalıyıq. İçərişəhər haqqında danışdıqları sözlərlə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** Tarixi abidələrimizin şəklini toplayıb bir albom düzəltmək yaxşı olar.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 4, 6 üzərində işləmək.

## Mövzu 6. İçərişəhər. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümləri düzgün yazır. |
| Məqsəd | Söz və söz birləşmələrindən cümlələr qurur.<br>Mətnin məzmununu anlayır və danışır.Danışdığı sözləri düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Diskussiya, beyin həmləsi, klaster | Dərslik, iş dəf-təri, iş vərəqləri | A.d. - 1.2.1   H.b. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim uşaqları üç-üç qruplara bölür. Hər qrupa tez-tez 15 söz deyir. Ən çox söz yadda saxlayan qrup qalib gəlir.

**Motivasiya.** Müəllim lövhədən Qız qalasının şəklini asıb. Şagirdlər şəklin ətrafında şaxələnmə yolu ilə Qız qalası ilə bağlı sözlər yazırlar.




**Yardımçı sual.** Dairələrdə yazdıqlarınızla nə demək istəyirsiniz?

**Tədqiqat sualı.** Qız qalası nə üçün tarixi abidə sayılır?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim qruplara iş vərəqləri paylayır.

*I qrup.* Qız qalası haqqında nə bilirsiniz?

*II qrup.* Qız qalasını təsvir edin.

*III qrup.* Qız qalası şəhərin hansı hissəsində yerləşir?

*IV qrup.* Qız qalası dənizə yaxındırmı? Onu ziyarət etmisinizmi?

Qruplar cavabları təqdim edirlər. Müəllim düzəlişlər edir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 7, 10, 13, 14 üzərində iş aparılır.

**Məlumat mübadiləsi.** Qız qalası hansı məqsədlə tikilmişdir?

**Müzakirə.** Şagirdlər Qız qalası haqqında öyrəndiklərini müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Vətənimiz qədim olduğu kimi, abidələri də qədimdir. Abidələr bizim dövlətimizdir. Onları qorumaq bizim borcumuzdur. R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Daha hansı tarixi abidələri tanıyırsınız? Bu haqda məlumat toplaya bilərsiniz? Bəlkə atalar sözü və ya tapmaca bilirsiniz?

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 8, 9, 11, 12 üzərində işləmək.

## Mövzu 7. Milli musiqimiz. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Oxuduğu mətni anlayaraq tərcümə edir, danışır, sadə cümlələri yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, BİBÖ, diskussiya | Dərslik, şəkillər, iş vərəqləri | A.d. - 1.2.1 H.b. - 3.1.1<br>A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.**Tapmacalar yazılmış kağızlar iştirakçılara paylanır. Hər bir iştirakçı tapmacanı oxuyub cavabını söyləyir. Cavabını bilmədikdə sağdakı yoldaşına ötürür. Daha çox tapmacaya cavab verən qalib olur.

***Qeyd:*** Tapmacaların musiqiyə, alətlərə aid olması daha məqsədəuyğundur.

**Motivasiya.** Müəllim "*Tıq-tıq xanım*" cizgi filmindən bir musiqi səsləndirir. Şagirdlər qulaq asırlar.

**Yardımçı sual.** Bu musiqi hansı cizgi filmindəndir?

**Tədqiqat sualı.** Nə üçün bu mahnı sizin xoşunuza gəldi? Mahnı hansı dildə ifa olundu?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim iş vərəqləri paylayır.

*I qrup.* Musiqi sizə necə təsir edir?

*II qrup.* Azərbaycan xalq musiqilərindən hansılarını bilirsiniz?

*III qrup.* Azərbaycan xalq musiqi alətlərindən hansılarını tanıyırsınız?

*IV qrup.* Cizgi filmlərindən hansının musiqisi daha çox səslənir? Nə üçün?

Müəllim hər qrupun cavabını dinləyir. Digər şagirdlərin fikirlərini də öyrənir.

**Dərsliklə iş.** Mətn oxunur. BİBÖ üsulu ilə mətnlə tanış olurlar. Çətin sözlər tərcümə edilir. Tapmacanın cavabı axtarılır. Çalışma №1-dəki suallara hər qrup ayrılıqda cavab verir. Çalışma № 2, 3 üzərində iş aparılır. Dili nisbətən yaxşı bilən qrup 4 №-li çalışma üzərində işləyə bilər.

**Məlumat mübadiləsi. Müzakirə.** Musiqinin insana nə xeyri var? Şagirdlərin cavabları dinlənilir, müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Azərbaycan musiqisi çox qədim tarixə malikdir. Azərbaycan dilini bilməyən xarici vətəndaşlar da bu musiqinin sehrindən çıxa bilmirlər. Biz musiqimizi sevməliyik. Azərbaycan musiqisinin sözləri ilə dil zənginləşir.

**Yaradıcı tətbiqetmə.** Həreniz bir Azərbaycan musiqisini ifa etməyi öyrənin. Sözlərini düzgün tələffüz etməyə çalışın.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 5 üzərində iş aparmaq.

## Mövzu: 7. Milli musiqimiz. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.2 - | Sadə cümlələri (əmr nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə aid qaydalara əməl edir. |
| Məqsəd | Düzgün oxuyur. İntonasiyaya riayət edir. Gördüklərini təsvir edir və yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, Venn diaqramı | Dərslik, iş vərəqləri | A.d. - 3.2.5 T.i. - 2.2.1<br>A.d. - 1.2.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim musiqi alətlərinin adını çəkir. Dairədə dayanan uşaqlar bir-bir həmin musiqi alətindən necə istifadə olunduğunu göstərir. Çətinlik çəkən dərhal oyunu tərk edir. Axıra qalan qalib sayılır.

**Motivasiya.** Müəllim lövhədən müxtəlif musiqi alətlərinin şəklini asır. Şəkillərin yanında 2 dairə şəkli çəkilib. Şagirdlər bir-bir yaxınlaşaraq bir dairədə milli musiqi alətlərimizin, digər dairədə xarici musiqi alətlərinin adlarını yazırlar.

**Yardımçı sual.** Musiqi alətlərindən ən qədimi hansıdır?

**Tədqiqat sualı.** Milli musiqi alətləri ilə xarici musiqi alətlərinin oxşar və fərqli cəhətləri hansıdır?




**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

*I qrup.* Hər hansı cizgi filmindən bir mahnının sözlərini axıradək yazın.

*II qrup.* Hansı kinofilmlərdə musiqi alətlərimiz səsləndirilir? Yadınıza salın.

*III qrup.* Azərbaycan Respublikasının Dövlət himni haqqında nə bilirsiniz?

*IV qrup.* Məşhur "*O olmasın, bu olsun*", "*Arşın mal alan*" kinofilmlərinin bəstəkarı kimdir? Onun haqqında nə bilirsiniz?

*Qeyd:* Müəllim iş vərəqlərini paylayarkən şagirdlərin dili bilmə səviyyəsini nəzərə almalıdır.

**Dərsliklə iş.** Şeir intonasiya ilə oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 6, 7 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** Ən qədim musiqi alətimiz hansıdır? Nə üçün o qədim sayılır?

Sualların cavabları dinlənilir, müzakirə aparılır.

**Nəticə və ümumiləşdirmə.** Hər xalqın öz musiqisi var, lakin bütün musiqi janrları insanlara xidmət edir, insanlar üçündür. Şagirdlər musiqi barədə söylədikləri fikirlərlə lüğət ehtiyatlarını zənginləşdirirlər.

**Yaradıcı tətbiqetmə.** Uşaqlar üçün yazılmış mahnılardan birini tapın və oxuyun.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Şeiri əzbərləmək, çətin sözləri öyrənmək, çal.№8, 9 üzərində işləmək.

## Mövzu 8. Bizim qəhrəmanlarımız. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətnin məzmununu çatdırmağı bacarır. Yaxşı və pis insani keyfiyyətləri ayırmağı bacarır. Müvafiq qaydaya uyğun çalışmanı yazılı surətdə yerinə yetirir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik, plakat, iş vərəqləri | A.d. - 1.2.3 A.d. - 3.1.1<br>A.d. - 2.2.6 T.i. - 2.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllim istənilən hərflə başlanan Azərbaycan şəhərlərindən birinin adını deyir. Şagirdlər sıra ilə şəhər adının sonuncu hərfi ilə başlayan digər şəhər adı söyləməyə çalışırlar. Düşünmə müddəti 15 saniyədən artıq olmamalıdır. Şəhər adı söyləyə bilməyən şagird oyunu tərk edir. Oyun bu minvalla davam edir. Müəllim şagirdlərə işğal olunmuş şəhərlərimizin adlarını xatırladır.

**Motivasiya.** Müəllim lövhədə "*Vətəni kim qorumalıdır?*" sualını yazır, şagirdlərdən sualla bağlı fikirlərini söyləməyi xahiş edir. Cavablar dinlənildikdən sonra müəlim Milli Qəhrəmanların şəkli olan plakatı lövhədən asır.

**Yardımçı sual.** Bu şəkillərdə kimləri görürsünüz?

**Tədqiqat sualı.** Nə üçün bəzi adamlara Milli Qəhrəman deyirlər?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri 3 qrupa bölür. Qruplara iş vərəqləri paylayır. İş vərəqlərində suallar yazılıb.

*I iş vərəqi.* Vətəni qorumağın əhəmiyyəti nədir?

*II iş vərəqi.* Vətəni yalnız hərbçilər qorumalıdır?

*III iş vərəqi.* Siz özünüzü Vətəni qorumağa layiq bilirsinizmi?

Qrupların cavabları dinlənilir. Ən yaxşı cavab fərqləndirilir.

**Dərsliklə iş.** "*Bizim qəhrəmanlarımız*" mətni üzərində iş. Mətn ifadəli oxunur, lüğət mənimsədilir. Çal.№ 1, 2, 3, 4, 5 yerinə yetirilir, **q-ğ, k-y** əvəzlənməsi izah edilir.

**Məlumat mübadiləsi.** "*İgid ölər, adı qalar*" atalar sözü təhlil edilir.

**Müzakirə.** Şagirdlər bu mövzuda müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Yurdumuz qəhrəmanlar məskənidir. Tarixən çox qəhrəmanlar öz canlarını Vətən uğrunda qurban vermişlər. Hər kəs öz Vətənini göz bəbəyi kimi qorumalıdır. Bu fikirləri ifadə etməklə şagirdlərin lüğət ehtiyatları zənginləşir.

**Yaradıcı tətbiqetmə.** Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş insanlar haqqında əlavə məlumat toplamaq.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mövzudakı mətni öyrənmək, çalışma № 7, 8, 9-u yazmaq.

## Mövzu 8. Bizim qəhrəmanlarımız. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin dili ilə təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətnin məzmununu danışmağı bacarır, yeni sözləri mənimsəyir, sait və samit səsləri ayırmağı və onları sözlərdə buraxılmış hərflərin yerinə yazmağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Beyin həmləsi, diskussiya | Dərslik,şəkillər, iş vərəqləri | A.d. - 1.1.2<br>A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim lövhədə ağlında tutduğu sözün (qəhrəman sözünün) hərfləri qədər damalar çəkir. Sonra həmin sözü şagirdlərə müxtəlif sözlər vasitəsilə izah etməyə çalışır. Şagirdlər sıra ilə istənilən bir hərf deməyə başlayırlar. Əgər həmin hərf sözdə varsa, uyğun damanın içərisinə yazılır, həmin şagird yenə də hərf deyir, yoxdursa, növbə digər şagirdə keçir. Oyun bu şəkildə davam edir. Sonuncu hərfi və ya sözü tapan şagird qalib gəlir.

**Motivasiya.** Müəllim lövhədən Şəhidlər xiyabanında əbədi məşəlin təsviri olan şəkli asır.

**Yardımçı sual.** Bu şəkildə hara təsvir edilib?

**Tədqiqat sualı.** Deyə bilərsinizmi, şəhərimizin ən hündür yerində niyə əbədi məşəl yanır? Onun tarixi haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim cütlərə suallar yazılmış iş vərəqləri paylayır.

*I iş vərəqi.* Şəhidlər xiyabanı barədə nə bilirsiniz?

*II iş vərəqi.* Elini, Vətənini tanıdan daha hansı insanları tanıyırsınız?

*III iş vərəqi.* Görkəmli adamlar – alimlər, şairlər, yazıçılar, rəssamlar, bəstəkarlar Vətənlərinə necə xidmət etmişlər?

*IV iş vərəqi.* Tanınmış insanların xalqın xatirəsində həmişə qalmaları üçün dövlətimiz nə edir?

Şagirdlərin cavabları dinlənilir. Müzakirə edilir. Müəllim çalışır ki, Şəhidlər xiyabanından əlavə, şəhərimizdə Fəxri xiyabanın da olması barədə şagirdlər bildiklərini ifadə edə bilsinlər.

**Dərsliklə iş.** Çalışma № 10-dakı "*Fəxri xiyabanda*" mətni oxunur. Mətn üzrə iş aparılır, çalışma № 11 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Şagirdlərə belə bir sual verilir: "*Sizcə, Şəhidlər xiyabanı ilə Fəxri xiyaban arasında hansı oxşar xüsusiyyətlər var?*"

**Müzakirə.** Şagirdlər verilən sual ətrafında öz mülahizələrini söyləyirlər, müzakirələr aparılır.

**Nəticə və ümumiləşdirmə.** Xalqımızın dəyərli övladları çoxdur. Elm, ədəbiyyat, incəsənət, rəssamlıq, musiqi, memarlıq və s. sənət növlərinin görkəmli nümayəndələri də bizim fəxrimizdirlər. Xalqımız onların xatirələrini daim uca tutur. Onların həyat yolu bizim üçün bir nümunədir. R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Bir görkəmli şəxsiyyət haqqında əlavə məlumat toplamaq.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Çalışma № 9-dakı mətni danışmaq, çalışma № 12,13-ü yazmaq.

## Mövzu 9. Azərbaycanım mənim. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.1 -<br>3.1.1 -<br>4.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir.<br>Mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur.<br>Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Sözləri düzgün tələffüz edir, oxuyur, yazır. Suallara cavab verir. Müzakirə aparmağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, müşahidə | Dərslik, DVD, şəkillər, iş vərəqləri | A.d. - 1.2.1<br>A.d. - 3.1.2 |

**Sinfin fəallaşdırılması.** Uşaqlar vətənlə bağlı şeir, atalar sözü söyləyirlər. Kim daha çox məlumatlıdırsa, o, qalib hesab olunur.

**Motivasiya.** Əvvəlcə musiqi səslənir. Şagirdlər R.Behbudovun ifasında "*Azərbay - canım*" mahnısını dinləyirlər.

**Yardımçı sual.** Eşitdiyiniz mahnını kim ifa edir? Mahnıda nədən bəhs edilir?

**Tədqiqat sualı.** Mahnıda işlənmiş "*Azərbaycan*" sözünü hansı sözlə əvəz etmək olar? Vətən nə deməkdir?

Müəllim şagirdlərin cavablarını dinlədikdən sonra onlara Vətənimizin ən gözəl guşələri, sərvətləri təsvir olunmuş şəkillər paylayır. Şagirdlər şəkilləri müşahidə edərək Azərbaycan, təbiət, insanlar haqqında bildiklərini deyirlər.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

*I qrup.* Sən Vətənin üçün nə edərdin?

*II qrup.* Vətənimizlə niyə fəxr edirik?

*III qrup.* Vətən haqqında nə demək istərdin?

*IV qrup.* Torpaqlarımızın azad edilməsi üçün nə edərdiniz?

*V qrup.* "*Azərbaycan*" sözünün hər hərfinə uyğun bir neçə söz fikirləşin.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Anam, doğma Vətənimsən*" ifadəsində nə üçün "*Ana*" adı "*Vətən*"lə bir çəkilir?

**Dərsliklə iş.** Şeir oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 2, 3, 4, 5, 6, 7 üzərində iş aparılır.

**Nəticə və ümumiləşdirmə.** Vətən insanın doğulduğu yerdən başlanır. Vətən müqəddəsdir. Onu sevmək lazımdır. Amma Vətəni sevmək azdır. Onu qorumaq, gözəlləşdirmək də lazımdır.

**Yaradıcı tətbiqetmə.** "*Vətən*" mövzusunda hansı şeirləri bilirsən?

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Şeiri əzbərlə. Çalışma № 8-də verilmiş nitq etiketlərinə öz əlavələrinizi edərək yazın.

## Mövzu 9. Azərbaycanım mənim. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Sözləri düzgün tələffüz edir, oxuyur, yazır. Fikirlərini toplayaraq cavab verir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, müşahidə | Dərslik, DVD, şəkillər, iş vərəqləri | A.d. - 1.2.1 A.d. - 3.1.2 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə tez-tez Azərbaycanın şəhər və kəndlərinin adını çəkməyi tapşırır. Təkrar edən və gec cavab verən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən Azərbaycan xəritəsini asır.

**Yardımçı sual.** Xəritədə hansı ölkə təsvir olunmuşdur? O, canlılardan hansına bənzəyir? Hansı dənizin sahilindədir?

**Tədqiqat sualı.** Nə üçün xəritədə bəzi ərazilər qırmızı ilə çəkilib? Torpaqlarımızın işğalı ilə bağlı nə bilirsiniz?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

*I qrup.* Vətən sənin üçün nədir?

*II qrup.* Sən indiki yaş səviyyəndə Vətən üçün nə edə bilərsən?

*III qrup.* Azadlıq yolunda şəhid olmuş uşaqlardan kimləri tanıyırsınız?

*IV qrup.* Torpaqdan niyə pay olmaz?

Cavablar dinlənilir. Müəllim düzəlişlər edir.

**Dərsliklə iş.** Şagirdlər çalışma № 13-dəki mətni oxuyurlar. Çətin sözlər tərcümə edilir. Çalışma № 9, 10, 11, 12 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** Sən mətndəki şahın yerinə olsaydın, necə hərəkət edərdin? Məgər kiçik bir torpaq sahəsi verməklə Vətən torpağı azalar?

**Nəticə və ümumiləşdirmə.** Müəllim şagirdlərin fikirlərini ümumiləşdirərək belə nəticəyə gəlir: "*Vətən müqəddəsdir. Onun sərvətlərini, təbiətini gözəlləşdirmək, ərazi bütövlüyü uğrunda mübarizə aparmaq lazımdır*". R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Albom vərəqində Azərbaycanın xəritədəki təsvirini çəkin və itirilmiş torpaqları göstərməyə çalışın.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma № 13-də verilmiş mətni danışmaq, çalışma № 14-ü yazmaq.

## Mövzu 10. Bakı. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Gördüklərini təsvir edir, mətni ifadəli oxuyur.Tapşırıqları yerinə yetirir, yazır, tərcümə edir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Beyin həmləsi, diskussiya | Dərslik, şəkillər, iş vərəqləri | A.d. - 1.1.2 A.d. - 2.2.1 A.d. - 1.2.3 |

**Sinfin fəallaşdırılması.** Lövhədə ayrı-ayrı xətlər çəkilmiş bir plakat asılır. Şagirdlərdən hər biri xətləri birləşdirərək nə isə yaratmalıdır. Nəticədə kiçik bir şəhər alınmalıdır. Hansı qrup yaxşı çəksə, qalib sayılır.



**Motivasiya.** Müəllim lövhədən dairə şəklində şəkillər asır.




**Yardımçı sual.** Şəkillərdə nə təsvir olunmuşdur?

**Tədqiqat sualı.** Şəkillərdə təsvir olunanların yerləşdiyi məkan haradır? Bu məkan nə üçün "*Odlar yurdu*" adlanır?

**Tədqiqatın aparılması.** Cütlərlə iş.
Müəllim bütün cütlərə iş vərəqləri paylayır.
– Şəhərimizdəki teatrlar haqqında məlumat verin. Hansı tamaşalara baxmısınız?
– Şəhərimizdəki muzeylər haqqında məlumat verin. Hansı muzeylərdə olmusunuz?
– Qız qalası haqqında məlumat verin.
– Hansı parklarımız və bağlarımız var? Hansı daha çox xoşunuza gəlir?
– Xəzər dənizi haqqında məlumat verin. Hansı çimərlikləri xoşlayırsınız?
– Neft Daşları haqqında məlumat verin.
– Hansı ali məktəblərimiz var?
– Bakı ətrafındakı kəndlərdən hansıları tanıyırsınız?
– Şəhərimizdə hansı heykəllər var?
Cütlər cavabları təqdim edirlər. Müəllim səhvləri düzəldir.

**Dərsliklə iş.** Mətni oxuyarkən dərslikdə heç bir qeydiyyat etmədən boş buraxılmış damalarda 2 №-li çalışmadakı sözlərdən istifadə edilir. Çalışma №3, 4, 5 üzərində iş aparılır.

**Qeyd:** Bu tipli çalışmalar mətn üzərində heç bir qeydiyyat aparmadan şagird dəftərində yerinə yetirilir.

**Məlumat mübadiləsi.** "*Vətənimin paytaxtı*
*Qara gözlü qızıdır*" misraları haqqında nə deyə bilərsiniz?

**Nəticə və ümumiləşdirmə.** "*Əgər Azərbaycan kraliçadırsa, Bakı onun tacıdır*" kəlmələri əbəs yerə deyilməmişdir. Bakı sözün həqiqi mənasında gözəl şəhərdir. O, gündən-günə daha da böyüyür və gözəlləşir. Bu fikirləri ifadə etməklə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** Bakı şəhərinə aid şəkillər toplayın və kiçik albom düzəldin. Albomu sinif kolleksiyasına qoyun.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 6 üzərində iş aparmaq.

## Mövzu 10. Bakı. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri  düzgün yazır. |
| Məqsəd | Eşitdiklərini anlayır. Anladıqlarını düzgün tələffüz edir. Düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qrupla iş | Beyin həmləsi, Venn diaqramı, diskussiya | Dərslik, şəkillər | A.d. - 3.1.2   A.d. - 2.2.6 |

**Sinfin fəallaşdırılması.** Şagirdlər dairə boyunca düzülürlər. Onlardan biri aparıcı olur. Aparıcı şagird hər hansı bir texniki vasitənin adını çəkir. Digər şagirdlər həmin texnikanın işlədilməsi qaydalarını söyləyirlər. Deyə bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən 2 şəkil asır. Birində məişət cihazları, digərində isə tikintidə işlədilən texniki vasitələr təsvir edilmişdir.

**Yardımçı sual.** Şəkildə insan əməyini yüngülləşdirən hansı texniki vasitələr təsvir edilmişdir?

Şagirdlər sadalayırlar. Müəllim onlara kömək edir.

**Tədqiqat sualı.** Bakı şəhəri gündən-günə gözəlləşir. Paytaxtımıza daha da gözəllik verən yüksəkmərtəbəli binalardır. Şəkillərdə gördüyünüz hansı texniki vasitələrdən tikintidə daha çox istifadə edilir?

Şagirdlər şəkillər üzrə işləyirlər.

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.

Müəllim Venn diaqramı üsulu ilə şəkildə göstərilən məişət və tikinti texnikasının oxşar və fərqli cəhətlərini sadalayır və bunu lövhədə çəkir. Şagirdlər onların gördüyü işləri ifadə edən hərəkət bildirən sözləri sadalayırlar.




Cavablar dinlənilir. Səhvlər müəllim tərəfindən düzəldilir.

**Dərsliklə iş.** Çalışma № 7-dəki mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çal.№ 8, 9 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** İnsan əməyini yüngülləşdirən daha hansı texniki vasitələr var? Kənd təsərrüfatında hansı texniki vasitələrdən istifadə edilir? Şagirdlər bu suallara tapdıqları cavabları öz yoldaşları ilə bölüşürlər, onları müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** İnsan dünyanın ən ali varlığıdır. Həyatda hər şey insan üçündür. Bakı şəhəri bizim paytaxtımızdır. Onun gözəlliyi bizim əlimizdədir. Bu fikirləri söyləməklə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir. R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Hər şagird ən çox sevdiyi texniki vasitə haqqında məlumat toplayıb yazsın.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma № 7-ni danışmaq, çalışma № 10, 11, 12, 13 üzərində iş aparmaq.

Sadə cümlələri (əmr nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.

## Mövzu 11. Xəzər dənizi. 1-ci saat

| Məzmun standartları | | | |
|---|---|---|---|
| 2.1.2 -<br>3.1.2 -<br>4.1.1 - | Sadə cümlələri (əmr nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.<br>Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir.<br>Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. | | |
| Məqsəd | Eşitdiyi cümlələri düzgün tələffüz edir. Mətnin məzmununu danışır və yazır. | | |
| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
| Kiçik qruplarla iş | Diskussiya, beyin həmləsi | Dərslik, şəkillər, iş vərəqləri | A.d. - 1.2.1 H.b. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə Respublikamızda olan bütün çay və göllərin adlarını deyir. Şagirdlər adı çəkilənin çay və ya göl olduğunu bilməlidirlər. Kim deyə bilməsə, oyunu tərk edir. Axıra qalan qalib hesab olunur.

**Motivasiya.** Müəllim lövhədən Azərbaycan xəritəsini asır.

**Yardımçı sual.** Uşaqlar, Vətənimizin sərhədlərini göstərə bilərsinizmi? (Müəllimin köməyilə)

**Tədqiqat sualı.** Siz yay fəslini çox sevirsiniz, çünki yayda səyahətə çıxırsınız, istirahət edirsiniz. Uşaqlar daha çox harada istirahət etməyi sevirlər? Hansı çimərlikləri tanıyırsınız?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim müzakirəni bitirdikdən sonra qruplara iş vərəqləri paylayır.

*I qrup.* Xəzərin sərvətləri haqqında bildiklərinizi deyin.

*II qrup.* Neft Daşları haqqında nə bilirsiniz?

*III qrup.* Xəzərin xalqımıza xeyri haqqında bildiklərinizi deyin.

*IV qrup.* Biz Xəzəri necə qorumalıyıq?

Müəllim hər qrupun cavablarını dinləyir. Qruplar bir-birinin cavabına əlavələr edə bilərlər. Bu zaman qrup bal qazanır.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3, 4 üzərində iş aparılır.

**Məlumat mübadiləsi.** Neft Daşlarını dünyanın möcüzəsi hesab edirlər. Nə üçün?

**Müzakirə.** Şagirdlər bu fikir barədə müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Biz çox xoşbəxt xalqıq, çünki torpaqlarımızın böyük hissəsini Xəzərin dalğaları döyəcləyir. Xəzər bizim sərvətimizdir. Onu Allah bizə bəxş etmişdir. R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Azərbaycanın Xəzər sahilində yerləşən ərazilərinin adlarını yazın.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 5, 6 üzərində iş aparmaq.

## Mövzu 11. Xəzər dənizi. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətni intonasiya ilə tələffüz edir, düzgün oxuyur və yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Diskussiya | Dərslik, şəkillər, iş vərəqləri | A.d. - 1.2.1 H.b. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim stolun üstünə çoxlu şəkillər qoyub. Şəkillərdə suda, quruda yaşayanlar təsvir olunmuşdur. Şagirdlər onları ayırmalıdır. Hansı şagird səhv edərsə, oyunu tərk edir.

**Motivasiya.** Müəllim şagirdlərə tapmaca deyir: "*Qanadı var, uça bilməz,*
*Quru yerdə qaça bilməz.*"

Şagirdlər müxtəlif cavablar söyləyirlər. Nəhayət, "*balıq*" sözü alınır.

**Yardımçı sual.** Balıq nə üçün uça bilməz, qaça bilməz?

**Tədqiqat sualı.** Xəzər dənizində hansı balıqlar yaşayır?

Müəllim sualların cavabını aldıqdan sonra ayrı-ayrı cütlərə iş vərəqləri paylayır.

**Tədqiqatın aparılması.** Cütlərlə iş.

*I cüt.* Balıqdan hazırlanan yeməklər haqqında danışın.

*II cüt.* Ev şəraitində balığı necə saxlamaq olar?

*III cüt.* Balığın insan orqanizminə xeyri nədir?

*IV cüt.* "*Balıq*" sözündə nə zaman "**q**" samiti "**ğ**" samitinə keçir? Nümunələrlə göstərin.

*V cüt.* Balığın əlamətlərini göstərin.

***Qeyd:*** Şagirdlərin sayından asılı olaraq müəllim tapşırıqları təkrar edə bilər.

Müəllim hər qrupun cavabını dinləyir. Qruplar bir-birinin cavabına əlavələr edə bilərlər. Bu zaman qrup bal qazanır.

**Dərsliklə iş.** Şeir oxunur (çalışma № 7). Çətin sözlər tərcümə edilir. Müəllimin köməyilə uşaqlar şeiri nəsrə çevirirlər. Çalışma № 8, 9, 10 üzərində iş aparılır.

**Məlumat mübadiləsi.** Quşlar, balıqlar, heyvanlar təbiətin gözəlliyidir. Sizcə, onları təbiətdən qoparıb ayrıca saxlamaq düzgündür?

**Müzakirə.** Şagirdlər bu barədə müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Bütün canlılar təbiətə məxsusdur. Canlıların hamısı bəşəriyyətin ən qüvvətli canlısı olan insan üçündür. Onları azadlıqdan məhrum etmək olmaz. Bu fikirlərlə R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Xəzər dənizində yaşayan balıqlar haqqında məlumat toplayın.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Şeiri əzbərləmək, çalışma № 11, 12 üzərində iş aparmaq.

## Mövzu 12. Göygöl. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətnin məzmununu başqasına çatdırmağı bacarır.<br>Əşyaların əlamətlərinə görə onlardan söz birləşmələri qurur, onları cümlədə |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik disk, iş vərəqləri | A.d. - 1.2.1 A.d. - 1.2.6<br>A.d. - 1.2.3 A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim istənilən bir hərflə başlanan su hövzələrindən birinin (göl, çay, dəniz) adını deyir. Şagirdlər növbə ilə bildikləri su hövzələrindən birinin adını deyirlər (Bu su hövzələri yalnız Azərbaycanda yerləşməlidir). Düşünmə müddəti 15 saniyədən artıq olmamalıdır. Söz tapa bilməyən şagird oyunu tərk edir. Oyun bu qaydada davam edir.

**Motivasiya.** Müəllim "*Göygöl*" mahnısını səsləndirir.

**Yardımçı sual.** Bu mahnıda təsvir olunan göl haqqında nə bilirsiniz?

**Tədqiqat sualı.** "*Göygöl*" harada yerləşir? O, nə üçün belə adlanır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri 4 qrupa bölür, hər qrupa iş vərəqləri təqdim olunur (qrupların sayı çox olduqda eyni iş vərəqindən 2 qrupa verilə bilər). Müəllim şagirdlərə "*Göygöl*" mətnini oxuyur. Mətn oxunduqdan sonra şagirdlərə iş vərəqlərində tədqiqat işini yazılı şəkildə davam etdirmək tapşırığı verilir. İş vərəqlərində təqdim olunmuş tapşırığı şagirdlər kiçik qruplarla birlikdə müzakirə apararaq yerinə yetirirlər. Müəllim şagirdlərin tapşırıqları yerinə yetirməsinə 15 dəqiqə ayrıldığını qeyd edir.

*I qrupun sualı:* Göygöl haqqında nə isə bilirsinizmi? Bilirsinizsə, haqqında bir neçə cümlə yazın.

*II qrupun sualı:* Göygölün yaxınlığındakı Gəncə şəhəri haqqında nə bilirsiniz? Bir neçə cümlə ilə bu barədə yazın.

*III qrupun sualı*: "Qoruq" nə deməkdir? Nə üçün Göygöl qoruq elan edilib? Bildiklərinizi yazın.

*IV qrupun sualı:* Siz Vətənimizin daha hansı görməli yerləri haqqında məlumat verə bilərsiniz?

Müəllim iş vərəqlərində çətin yeni sözlərin tərcüməsini də verir. Şagirdlər fəaliyyətə başlayırlar. Onların cavabları dinlənilir. Yeni fikirlər mətnin məzmunu ilə müqayisə edilir. Şagirdlər bir-birlərinin cavablarını müzakirə edirlər. Müzakirə 5 dəqiqə çəkir.

**Dərsliklə iş**. Dərslikdəki çalışma № 1, 2, 4, 5 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Göygölün gözəlliyi, yerləşdiyi ərazi, dövlət tərəfindən qorunması barədə söylənilən fikirlər təhlil edilir.

**Müzakirə.** Şagirdlər bu barədə fikirlərini müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Şagirdlər Göygöl haqqında məlumat almış olurlar. Mətni mənimsəyib belə nəticəyə gəlirlər ki, Göygöl Vətənimizin milli sərvətidir. Onu qorumalıyıq, tarixini bilməliyik. Vətənimizin təbii və milli sərvətlərinin hamısı xalqa məxsusdur. Şagirdlər bu fikirləri söyləməklə lüğət ehtiyatlarını zənginləşdirirlər.

**Yaradıcı tətbiqetmə.** Vətənimizin görməli yerlərindən biri haqqında məlumat hazırlayın. Onu danışmağa çalışın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mövzu 12-ni danışmaq, çalışma № 6-nı yazmaq.

## Mövzu 12. Göygöl. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |

| | |
|---|---|
| Məqsəd | Şeiri düzgün intonasiya ilə oxumağı bacarır. Sözlərin mənalarını anlayır, əşyaları qruplaşdırıb adlandırır, spesifik səsləri seçməyi bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik, iş vərəqləri | A.d. - 1.1.2 A.d. - 1.2.1 A.d. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim sinfi 3 qrupa bölür. Hər qrupdan bir nəfər xəyallarında tutduqları yeri müəllimə təsvir edir. Bu yer Azərbaycanın hər hansı görməli yerlərindən biri olmalıdır. Hansı qrupun təsvir etdiyi yer müəllimin diqqətini qazanarsa, həmin qrup qalib gəlir.

**Motivasiya.** Müəllim dairədə Göygöl yazılmış vərəqin tərs üzünü lövhədən asır. Kənarlarda həmin sözün mənasını aça bilən sözlər yazılır.




**Yardımçı sual.** Bu ağ dairəcikdə hansı sözü yerləşdirmək olar?
Şagirdlərin cavabı dinlənilir.

**Tədqiqat sualı.** Uşaqlar, sizin artıq Göygöl haqqında kifayət qədər məlumatınız var. Onu hansı sözlərlə təsvir etsəniz, daha maraqlı alınar?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərə əlamət bildirən sözlər yazılmış (lüğəti ilə) iş vərəqləri paylayır.

*I işçi qrupu:* – mavi, gözəl, şəfalı, heyranedici, nəhəng, şəffaf.
*II işçi qrupu:* – uca, başı qarlı, sakit, qədim, təbii.
*III işçi qrupu:* – günəşli, zərif, güzgülü, mənzərəli, yaşıl, meşəli.

Şagirdlərə bu sözlərdən istifadə etməklə Göygölü təsvir etmək tapşırığı verilir.
Şagirdlər fəaliyyətə başlayırlar. Cavablar dinlənilir.

**Dərsliklə iş.** Müəllim ifadəli şəkildə "*Göygöl*" şeirini oxuyur. Göygölün təsvirinin şair tərəfindən necə verildiyini vurğulayır. Çətin sözlər tərcümə edilir, izahat verilir. Çalışma № 7, 8, 9, 10, 11 üzərində iş aparılır.

**Məlumat mübadiləsi.** "*Dünyada ən gözəl yer Vətəndir!*" atalar sözünün mənası təhlil edilir.

**Müzakirə.** Bu atalar sözünün mənası müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Göygöl öz gözəlliyi ilə Vətənimizin təbii sərvətləri içərisində ən layiqli yer tutur. Bu tarixi yer qəhrəmanların yaşadığı bir yer olub. Vətənimizin hər bir qarışı bizim üçün müqəddəsdir. Bu fikirləri söyləməklə şagirdlərin şifahi nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** "*Göygöl*" haqqında əlavə məlumat toplamaq.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma № 6-dakı "*Göygöl*" şeirini əzbərləmək, dili yaxşı bilənlər üçün çalışma № 12, 13-ü yazmaq.

## Mövzu 13. Dağlar gözəli Şəki. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Gördüklərini təsvir edir. Mətnin məzmununu danışır. Düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | BİBÖ, klaster | Dərslik, DVD | A.d. - 1.1 T.i. - 1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdləri qruplara bölür. I qrup ikihecalı, II qrup üçhecalı, III qrup dördhecalı şəhər və kənd adı deməlidir. Hansı qrup çox ad çəksə, qalib hesab edilir.

**Motivasiya.** Müəllim DVD-də "*Şəki*" mahnısını səsləndirir. Şagirdlər dinləyirlər.

**Yardımçı sual.** Mahnıda hansı şəhərin adı tez-tez çəkilirdi?

Uşaqlar cavab verirlər.

**Tədqiqat sualı.** Mahnıda Şəki necə təsvir olunmuşdur?

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.

Müəllim bu zaman klaster üsulu ilə işləyir (şaxələnmə).




Dairələrə sözləri şagirdlər özləri yazırlar. Müəllim onları istiqamətləndirir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər izah edilir. Mətn oxunarkən müəllim BİBÖ üsulundan (Bilirəm/İstəyirəm Biləm/Öyrəndim) istifadə edir. Çalışma № 1, 2, 3, 4 üzərində iş aparılır. 5 №-li çalışmadakı şeir intonasiya ilə oxunur.

**Məlumat mübadiləsi. Müzakirə.** Azərbaycanın daha hansı rayonlarını tanıyırsınız? Şəki başqa rayonlardan nə ilə fərqlənir? Şagirdlər bu barədə müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Şəki vətənimizin gözəl bir parçasıdır. Bu gün Şəki nəinki azərbaycanlıların, hətta xarici qonaqların da diqqətini cəlb edir. Şəki haqqında söylənilən fikirlərlə şagirdlərin şifahi nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Mətndə oxuduqlarınıza, şeirdə eşitdiklərinizə əsasən gözəl bir dağ kəndi şəkli çəkin.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 6 üzərində iş aparmaq. Dili nisbətən yaxşı bilənlər şeiri əzbərləyə bilərlər.

## Mövzu 13. Dağlar gözəli Şəki. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.2 - | Sadə cümləri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Oxuduğu mətndəki sözləri düzgün tələffüz edir, mətni danışır və düzgün yazmaq bacarığını nümayiş etdirir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qrupla iş | Beyin həmləsi, rollu oyun | İş vərəqləri, yol nişanları | A.d. - 1.2.8 A.d. - 3.1.2. A.d. - 2.2.6 |

**Sinfin fəallaşdırılması.** Şagirdlər dairə şəklində düzülürlər. Hər şagird bir lətifə söyləyir. Lətifə bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən bir neçə yol hərəkəti nişanı asır.

**Yardımçı sual.** Gördükləriniz nə nişanlardır?

**Tədqiqat sualı.** Bu nişanlar nəyə işarədir?

**Tədqiqatın aparılması.** Müəllim sinifdəki bütün uşaqlara iş vərəqləri paylayır. Vərəqlərdə yol nişanları təsvir olunmuşdur. Şagirdlər nişanların mənasını izah etməlidirlər.



piyada keçidi



uşaqlar



velosipedlə hərəkət qadağandır




dayanmadan keçmə qadağandır



piyada zolağı



velosiped zolağı



piyada keçidi



yeraltı keçid



piyadaların hərəkəti qadağandır



ilk tibbi yardım



təhlükəli yol




sürət məhduddur

Şagirdlərin sayına görə müəllim tapşırığı təkrar edə bilər. Müəllim şagirdlərin cavablarını dinləyir.

**Dərsliklə iş.** 7 №-li çalışma oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 8, 9, 10, 13 üzərində iş aparılır. Çalışma № 14 üzərində dialoqlar qurulur.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Əgər yollarda işıqlar varsa, yol polisi nə üçündür?*" sualına cavab tapmağınız yaxşı olar. Bu fikir müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Yol hərəkəti qaydaları insanların təhlükəsizliyi üçün yaradılmışdır. Biz həyatımızı qorumaq üçün onlara əməl etməliyik. Yol hərəkəti qaydaları Azərbaycan dilində öyrədilir. Bununla da şagirdlərin nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Daha hansı yol hərəkəti nişanları var? Yoldaşlarını onunla tanış et.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma № 7-ni danışmaq. Yol hərəkəti nişanlarını əzbərləmək. Çalışma № 11, 12 üzərində işləmək.

## Mövzu 14. Təbiət. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.2.3 - | Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) ibarət kiçikhəcmli mətnlər qurur və təqdim edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətn qurur, mətnin məzmununu danışır, sadə cümlələri yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
| --- | --- | --- | --- |
| Kiçik qruplarla iş | Klaster, diskussiya | Dərslik, iş və-rəqləri, şəkillər | A.d. - 1.2.3 T.i. - 2.2.1<br>A.d. - 3.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllimin tapşırığı ilə 4 şagird lövhəyə çıxır. Onların hər biri 4 ünsürü – hava, su, od və yeli şərti işarələr ilə təsvir etməlidir. Digər şagirdlər isə gördüklərinin nə olduğunu deməlidirlər.

**Motivasiya.** Müəllim lövhədən bir neçə şəkil asır. Şəkillərdə ağaclar, çiçəklər, heyvanlar, quşlar, balıqlar təsvir edilmişdir. Müəllim şagirdlərə şəkillərdə gördüklərini təsvir etməyi tapşırır. Nəhayət, ümumi nəticəyə gəlirlər ki, gördüklərinin hamısı bir yerdə "*təbiət*" deməkdir. Müəllim mərkəzi dairəyə "**Təbiət**" sözünü yazır.




**Yardımçı sual.** Şəkillərdə nəyi görürsünüz? Şaxələnmədə bir-birilə əlaqəli olan sözləri və ya anlayışları sadalayın.

**Tədqiqat sualı.** Təbiət bizə nə verib? Biz nə üçün təbiəti qorumalıyıq?
Müəllim şagirdlərin cavablarını dinləyir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim şagirdləri qruplara bölərək hər qrupa bir ad verir.

*Flora qrupu* (bitkilər aləmi). Bitkilər aləmi deyəndə gözünüzün önündə nə canlanır?

*Fauna qrupu* (heyvanlar aləmi). Heyvanlar aləmi deyəndə gözünüzün önündə nə canlanır?

*Hava qrupu.* Havanın təbiətdə rolu nədən ibarətdir?

*Su qrupu.* Suyun təbiətdə rolu nədən ibarətdir?

Müəllim şagirdlərin cavablarını dinləyir. Düzəlişlər edir. Şagirdlərin tələffüzündəki qüsurları düzəldir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3, 4 üzərində iş aparılır.

**Məlumat mübadiləsi.** "*Ətraf mühit, təbiət bizə nə verir və bizdən nə gözləyir?*" mövzusunda fikir mübadiləsi aparılır.

**Müzakirə.** Şagirdlər bu barədə fikirlərini müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Təbiət də anadır, çünki o, bizi yaşadır. Təbiət bizə çox şey bəxş etmişdir. Biz təbiəti sevməli, ona qayğı ilə yanaşmalıyıq. Təbiəti qorumasaq, Yer üzündə həyat məhv olar. Bu fikirləri ifadə etməklə şagirdlərin lüğət ehtiyatı zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** Hər şagird bir təbiət mənzərəsi çəkib gətirsin.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 5, 6, 7 üzərində işləmək. Dili nisbətən yaxşı bilənlər atalar sözlərini əzbərləyə bilərlər.

## Mövzu 14. Təbiət. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin dili ilə təsvir edir. |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Sözləri düzgün tələffüz edir.<br>Gördüklərini təsvir edir, danışır və düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Diskussiya, beyin həmləsi, rollu oyun | Sünbül, dərslik, iş vərəqləri | A.d. - 1.2.1 T.i. - 2.2.5<br>H.b. - 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə tapşırır ki, hərə undan hazırlanmış bir məmulatın adını desin. Kim gec cavab verərsə, oyunu tərk edəcək.

**Motivasiya.** Müəllim sinfə sünbül gətirir.

**Yardımçı sual.** Gördüyünüz bu bitki nədir? Bu, nə üçündür?

**Tədqiqat sualı.** Sünbülün insan həyatında rolu nədən ibarətdir?

Müəllim cavabları dinlədikdən sonra özü əlavələr edir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim qruplara iş vərəqləri paylayır.

*I qrup.* Çörək nə üçün müqəddəsdir?

*II qrup.* Çörək süfrəyə gələnə qədər hansı mərhələlərdən keçir?

*III qrup.* Çörəyi nə üçün yerə atmaq olmaz?

*IV qrup.* Çörəyə qənaət etmək necə olur?

Müəllim cavabları dinləyir. Düzəlişlər edir. Səhv tələffüz edilmiş sözləri düzəldir.

**Dərsliklə iş.** Çalışma № 8-dəki mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 9, 10 üzərində iş aparılır. Çalışma № 14 rollar üzrə oxunur.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Çörək insanın qidasının əsasını təşkil edir və təbiətin bizə bəxş etdiyi nemətdir*" mövzusunda fikir mübadiləsi aparılır. Şagirdlərin fikirləri müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** İnsan həyatını çörəksiz təsəvvür etmək çətindir. Ölkəmizdə çörək ən əsas ərzaq məhsulu hesab olunur. Ona görə də ona böyük hörmət qoyulur. İnsanlar çörəyə and içirlər. Nitq prosesində bu ifadələrdən istifadə etmək lazımdır.

**Yaradıcı tətbiqetmə.** Müəllim şagirdlərə çörək haqqında şeir, tapmaca, atalar sözü deməyi və sünbüldən alınan məhsulların şəklini çəkməyi tapşırır.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq (çal.№ 8), çalışma № 12, 13 üzərində işləmək. Dili nisbətən yaxşı bilənlər 11№-li çalışmada verilmiş tapmacanı əzbərləyə bilərlər.

## Mövzu 15. Günəş. 1-ci saat

| Məzmun standartları | | | |
|---|---|---|---|
| 1.1.1 -<br>2.1.2 -<br>3.1.1 -<br>4.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir.<br>Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.<br>Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur.<br>Eşitdiyi sözləri, sadə cümlələri düzgün yazır. | | |
| Məqsəd | Verilmiş mətnin məzmununu anlayır, düzgün intonasiya ilə oxumağı bacarır, kiçikhəcmli tapşırıqları düzgün yazmağı bacarır. | | |
| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | Dərslik, əşyalar, iş vərəqləri | A.d. 1.1.2<br>A.d. 1.2.8 H.b. 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim uşaqları dairə şəklində düzür. "*Gündüz*" dedikdə şagirdlər hərəkət edirlər. "*Gecə*" dedikdə isə dərhal dayanırlar. Gecə deyilən kimi dayanmayan şagird oyunu tərk edir. Oyun belə davam etdirilir. Sona qalan şagird qalib gəlir.

**Motivasiya.** Müəllim sinfə bir stolüstü lampa gətirir. Onu işıqlandırır.

**Yardımçı sual.** Bu əşya bizə nə üçün lazımdır? (İşıq verir)

**Tədqiqat sualı.** Bu, süni işıqdır. Bəs Yer üzünü işıqlandıran nədir?

**Tədqiqatın aparılması.** Müəllim uşaqlardan "*Günəş*" sözünü aldıqdan sonra sinfi üç qrupa bölür. Qrupları adlandırırlar. I qrup: "*Şüa*". II qrup "İşıq". III qrup "*İstilik*" adlandırılır. Müəllim bu adların mənasını şagirdlərə başa salır. Qruplara iş vərəqələri paylanır.

*I iş vərəqi:* "*Günəş*" Yer üzünü işıqlandırmaqdan əlavə daha nə edir? Onun faydası nədir?

*II iş vərəqi:* Hansı fəsildə biz Günəşi daha yaxından hiss edirik? Bu barədə danışın.

*III iş vərəqi:* Tapmacaların cavablarını tapın və izah edin:

| I tapmaca | II tapmaca | III tapmaca |
|---|---|---|
| Bir kişinin dörd evi var,<br>Biri yaşıldı, o biri al.<br>Biri sarıdı, o biri çal. | Bir sinidə iki toyuq,<br>Biri isti, biri soyuq. | Göydən bir ağac düşdü<br>Barsız, budaqsız.<br>Onu bir quş yaladı,<br>Dilsiz, dodaqsız. |
| (*Fəsillər*) | (*Ay, Günəş*) | (*Qar, Günəş*) |

(Cavablar müəllimlər üçündür). Qruplar fəaliyyətə başlayırlar.

**Dərsliklə iş.** Dərslikdə mövzu 15 üzərində iş aparılır, lüğət mənimsədilir, çalışma № 1, 2, 3 yerinə yetirilir.

**Məlumatın mübadiləsi.** Çalışma № 4-dəki tapmacalar oxunur, mənaları təhlil edilir, cavablar alınır.

**Müzakirə.** Tapmacaların cavabları müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Biz günəşli respublikada yaşayırıq. Günəş öz istiliyini və işığını bizdən əsirgəmir. İlin bütün fəsilləri Günəş Yeri qızdırır. Xüsusən, yay ayları qızmar günəşin şüaları altında keçir. Günəş olmasa, həyatımız qaranlıqda keçər, yaşaya bilmərik. Bu fikirləri şagird öz sözlərilə ifadə etməyi bacarmalıdır.

**Yaradıcı tətbiqetmə.** Siz Günəşi necə təsəvvür edirsiniz, şəklini çəkin.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Evə mövzu 15-i danışmaq, çalışma 5-i yazmaq.

## Mövzu 15. Günəş. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Oxuduğu mətnin məzmununu anlayır, əşya və hadisələrin əlamətlərini təsvir edə bilir, suallara düşünülmüş cavab verə bilir, söz və ifadələri düzgün yazmağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik, tablolar, iş vərəqləri | A.d.1.2.3 T.i.2.2.5<br>A.d. 1.2.6 |

**Sinfin fəallaşdırılması.** Hər bir iştirakçı dərsin mövzusu ilə bağlı paylanılan kağız parçası üzərində fikirlərini yazır. O həmin kağızı qatlayır və göstərilən qutunun içərisinə atır. Qutunun içərisindəki kağızlar qarışdırılır və hər kəs qutunun içindən yeni kağız seçir. Bu zaman hər bir iştirakçı götürdüyü kağızı oxumalıdır. Bu oyunda əsas məqsəd qutunun içindəki fikirlərin müzakirəsidir. Bütün yazılar ucadan oxunur və müzakirə edilir.

**Motivasiya.** Müəllim lövhədən dörd tablo asır. I şəkildə günəşli günün təsviri, II şəkildə yağışlı günün təsviri, III şəkildə küləkli bir günün, IV şəkildə qarlı bir günün təsviri verilib.

**Yardımçı sual.** Bu şəkilləri müqayisə edə bilərsinizmi?

**Tədqiqat sualı.** Hansı hava şəraiti insanın sağlamlığı üçün daha faydalıdır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri dörd qrupa bölür. Hər qrupa iş vərəqi paylanır.

*I iş vərəqinin sualı:* Bir neçə cümlə ilə günəşli günü təsvir edin.

*II iş vərəqinin sualı:* Bir neçə cümlə ilə küləkli günü təsvir edin.

*III iş vərəqinin sualı:* Günəşin insanlara xeyri barədə bildiklərinizi yazın.

*IV iş vərəqinin sualı:* Küləkli günün insanlara xeyri varmı? Nə üçün Bakıya küləklər şəhəri deyirlər?

Qruplar fəaliyyətə başlayırlar. Şagirdlərin cavabları dinlənilir.

**Dərsliklə iş.** "*Günəş güclüdür, ya külək*" mətni oxunur, izah edilir, çətin sözlər izah edilir, çalışma № 6, 7, 9, 10 yerinə yetirilir.

**Məlumatın mübadiləsi.** Şagirdlərə çalışma № 8-də verilmiş yanıltmaclar oxunur, şagirdlər onu deməyə çalışırlar. Hansı səsin daha çox işlənməsinə fikir verilir. Bu səslər barədə şagirdlər bildiklərini deyirlər.

**Müzakirə.** Şagirdlər mətndən öyrəndiklərini müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Şagirdlər bir daha günəşin faydalı və güclü olduğunu dərk edirlər. Heç bir qüvvənin Günəşin qarşısında tab gətirə bilməyəcəyinin şahidi olurlar. Şagirdlər bu fikirləri öz sözlərilə ifadə etməyi bacarmalıdırlar.

**Yaradıcı tətbiqetmə.** Müəllim şagirdlərə "*Günəşli günün faydası*" mövzusunda kiçik bir mətn qurmağı tapşırır.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Günəş güclüdür, ya külək*" mətnini danışmaq, çal. 8, 11, 12-ni yazmaq.

## Mövzu 16. Torpaq. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Gördüklərini təsvir edir. Eşitdiyi, oxuduğu sözləri tərcümə edir və düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | DVD, şəkillər, iş vərəqləri, dərslik | T.i.2.2.5 A.d.3.1.2 A.d.1.2.3 |

**Sinfin fəallaşdırılması.** Müəllim əlində dibçək, torpaq və bitkidən kiçik bir zoğ tutaraq şagirdlərə yaxınlaşır. Şagirdlər zoğu dibçəyə əkməkdə müəllimə kömək edirlər.

**Motivasiya.** Müəllim şagirdlərə "*Dədə Qorqud*" filmindən bir parçanı nümayiş etdirir. Kadr filmin son hissəsindəndir. Qaraca çoban torpağı daşlardan təmizləyərək balaca oğlana nəsihət verir.

**Yardımçı sual.** Qaraca çoban nə üçün torpağı təmizləyir?

**Tədqiqat sualı.** İnsan həyatında torpağın rolu nədən ibarətdir? Müəllim şagirdlərin fikirlərini dinləyir.

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri qruplara bölür.

*I qrup.* "*Bağa baxarsan, bağ olar,*
*Baxmazsan, dağ olar*" atalar sözünü necə izah edə bilərsiniz?

*II qrup.* Torpaq deyir: "*Öldür məni, dirildim səni*". Bu, nə deməkdir?

*III qrup.* Biz torpağı necə qoruya bilərik?

*IV qrup.* "*Torpaq – bərəkətdir*" nə deməkdir?

Müəllim cavabları dinləyir. Əlavələr edir. Şagirdlərin tələffüzündəki səhvləri düzəldir.

***Qeyd:*** Müəllim tapşırıqları etməkdə şagirdlərə kömək edə bilər.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Ana . . ., Vətən . . ., Torpaq . . . anlayışları bizə nə deyir?*" mövzusunda fikir mübadiləsi aparılır.

**Nəticə və ümumiləşdirmə.** Biz öz həyatımız üçün torpağa borcluyuq. Torpaq bizi yedirdir, içirdir. Torpaq öz qoynunda bizə sığınacaq verib, bizi yaşadır. O, bizim evimizdir. Bu fikirlərlə şagirdlər lüğət ehtiyatlarını zənginləşdirirlər.

**Yaradıcı tətbiqetmə.** Torpaq mövzusu ilə bağlı şəkil çəkmək tapşırılır.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 4 üzərində işləmək.

## Mövzu 16. Torpaq. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümləni (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Ona verilən tapşırıqları anlayır, əməl edir. Sözləri düzgün tələffüz edir. Kiçikhəcmli mətnlər yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | İş vərəqləri, şəkillər, dərslik | A.d.1.1.2 T.i.2.2.1<br>A.d.1.2.8 A.d. 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim dərsi "*Cümlə düzəlt*" oyunu ilə başlayır. Aparıcı seçilir. O, uşaqlara müəllimin əvvəlcədən hazırladığı yarımçıq sözləri deyir. Kim cümləni səhv düzəltsə, oyunu tərk edir.

1. Biz bağda . . .
2. Bağda çoxlu . . .
3. Qırmızı güllər mənim . . .
4. Bostanda . . .
5. Meşədə çoxlu . . .
6. Uşaqlar məktəbin həyətində . . . və s.

**Motivasiya.** Müəllim lövhədən "*meyvə bağı*" təsvir edilmiş bir şəkil asır.

**Yardımçı sual.** Şəkildə hansı bağ təsvir olunmuşdur? Hansı meyvə ağaclarını görürsünüz?

**Tədqiqat sualı.** Meyvə ağaclarının belə barlı, qollu-budaqlı olmasına nə səbəb olmuşdur? Müəllim şagirdlərin cavablarını dinləyir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.
Müəllim şagirdlərə iş vərəqləri paylayır. Vərəqlərdə sxemlər çəkilib.




***Qeyd:*** Qırmızı rəngdə yazılanlar müəllim üçündür.
*I qrup.* Torpağın bizə bəxş etdiyi yerüstü sərvətlər haqqında nə bilirsiniz?
*II qrup.* Torpağın bizə bəxş etdiyi yeraltı sərvətlər haqqında nə bilirsiniz?
*III qrup.* Torpağın sərvətlərini necə qorumaq olar?
*IV qrup.* Bağda, həmçinin bostanda bitən sərvətləri sadalayın.
Qruplar təqdimat hazırlayırlar. Müəllim düzəlişlər edir.

**Dərsliklə iş.** Çalışma № 5-də verilən mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 6, 7, 8 üzərində iş aparılır. Çalışma № 10 üzərində iş aparıldıqdan sonra şagirdlər cütlərə bölünərək 11 №-li çalışmanı icra edirlər. 12 №-li çalışma da oxunur və icra edilir.

**Məlumat mübadiləsi. Müzakirə.** İnsan özündən sonra iz qoymalıdır, xeyirxah işlər görməlidir. Siz balacasınız, lakin bu az yaşınızda nə isə etmisinizmi?

**Nəticə və ümumiləşdirmə.** Vətən bizimdir. Bu torpağın altının və üstünün sərvətləri də bizimdir. Onları qorumaq, onlardan səmərəli istifadə etmək lazımdır. Biz torpağa qayğımızı hər işdə nümayiş etdirməliyik. Şagirdlər bu fikirləri şifahi tərzdə ifadə etməyi bacarmalıdırlar.

**Yaradıcı tətbiqetmə.** Öz yaxınlarınızın içərisində torpağa qayğı ilə yanaşan görmüsünüzsə, onun haqqında yazın.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma № 5-i danışmaq, çalışma № 9-u yazmaq.

## Mövzu 17. Su həyatdır. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Dinlədiyi mətnin məzmununu danışmağı bacarır, lüğətdəki sözləri mənimsəyir, mətni hissələrə ayırmağı bacarır, şeirin məzmununu danışmağı bacarır, düzgün yazmağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, müzakirə | Dərslik, iş vərəqləri | A.d.1.2.1 A.d.1.2.3 A.d.1.2.6 H.b. 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə sudan hansı məqamlarda istifadə edildiyini göstərən hərəkətləri nümayiş etdirməyi tapşırır. Şagirdlərdən biri suyu içməyi, digəri su töküb xörək bişirməyi, bir başqası su töküb ağac əkməyi və başqa hərəkətləri göstərirlər. Hansı şagird fikirləşib hərəkət nümayiş etdirə bilməsə, oyunu tərk edir. Ən yaxşı hərəkət nümayiş etdirən qalib gəlir.

**Motivasiya.** Müəllim stolun üstünə iki dibçək qoyur. Birinin torpağı bərk, susuz, çiçəkləri, yarpaqları solğundur. O birinin torpağı nəm, çiçəkləri, yarpaqları təravətlidir.

**Yardımçı sual.** Bu çiçəkləri fərqləndirə bilərsinizmi?

**Tədqiqat sualı.** Çiçəklərdən birinin solmasına səbəb nədir?

Şagirdlər fikirlərini söyləyirlər.

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri üç qrupa bölür. Hər qrupa iş vərəqləri paylayır.

*I iş vərəqi:* Susuz həyat necə olar?

*II iş vərəqi:* Gündəlik həyatınızda hansı məqamlarda sudan istifadə edirsiniz?

*III iş vərəqi:* Təbii su harada olur? Bu barədə bildiklərinizi yazın.

Şagirdlərin cavabları dinlənilir. Su haqqında məlumatları artır.

**Dərsliklə iş.** Mövzu "*Su həyatdır*" mətni oxunur, təhlil edilir, çətin sözlər mənimsədilir, çalışma № 1, 2, 4 yerinə yetirilir.

**Məlumatın mübadiləsi.** Çalışma № 5-dəkı "*Təmizlik*" mətni üzərində iş aparılır. Şagirdlərə bu fikir ətrafında düşünmək tapşırılır: "*Təmizliyin*" faydası nədir? Şagirdlərin cavablarından biri də su ilə yuyunmaqdır. Bu fikir şeirin məzmununa uyğun olduğu üçün şeir təhlil edilir.

**Müzakirə.** Təmizliyin faydası, suyun xeyri haqqında fikirlər müzakirə edilir.

**Nəticəvə və ümumiləşdirmə.** Təmizliyin faydası barədə danışan şagirdlər lüğət ehtiyatını zənginləşdirirlər.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə belə bir tapşırıq verilir: Hər gün yuxudan oyanıb nə edirsiniz? Su olmasa halınız necə olar?

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni öyrənmək, çalışma № 3, 6-nı yerinə yetirmək.

## Mövzu 17. Su həyatdır. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Oxuduğu mətnin məzmununu danışmağı bacarır, yeni sözlərin mənasını mənimsəyir, sözləri ana dilinə tərcümə etməyi bacarır, hərəkət bildirən sözləri mənimsəyir və düzgün tələffüz edir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya | |
|---|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, mü - zakirə, rollu oyun | Dərslik, şəkillər, iş vərəqləri | A.d.1.1.2<br>A.d.1.2.3 | T.i. 2.2.5<br>A.d.1.2.6 |

**Sinfin fəallaşdırılması.** Müəllim sinfi fəallaşdırmaq üçün uşaqlardan bir aparıcı seçir. Aparıcı bir cümlə deyir. Şagirdlər ya bu yarımçıq cümləni davam etdirməli, ya da cümlədə buraxılmış sözü yerinə qoymalıdırlar. Aparıcı deyir:

1. Balıqlar susuz yaşaya ... .
2. Su ... .
3. Əl-üzümüzü ... yuyuruq.
4. Yazda çaylarda ... çox olur.
5. Dənizin ... duzlu olur.
6. Bulaqların ... içməlidir və s.

Aparıcı əlindəki çubuğu kimə versə, cümləni davam etdirməlidir. Cümləni davam etdirə bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən balıq, xərçəng, delfin, balina, suiti təsvirləri olan şəkillər asır.

**Yardımçı sual.** Bu şəkillərdə gördüklərinizin arasında necə bir oxşarlıq var?

**Tədqiqat sualı.** Təsvir olunanlar susuz yaşaya bilərlərmi?
Şagirdlər fikirlərini söyləyirlər.

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri üç qrupa bölür. Hər qrupa iş vərəqləri paylayır.

*I iş vərəqinin sualı:* Suda yaşayan heyvanlar haqqında nə bilirsiniz ?

*II iş vərəqinin sualı:* Akvariumda balıq saxlaya bilərsinizmi? Sizcə, bunun üçün nə etmək lazımdır?

*III iş vərəqinin sualı:* Dənizlərdə, okeanlarda böyük balıqlar yaşayır. Onlar haqqında nə bilirsiniz?

Şagirdlər fəaliyyətə başlayırlar. Onların cavabları dinlənilir.

**Dərsliklə iş.** "*Xilaskar delfinlər*" mətni oxunur, tərcümə edilir, çətin sözlər mənimsədilir, çalışma № 8, 9, 10, 11 yerinə yetirilir.

**Məlumatın mübadiləsi.** Çalışma №12-dəki "*Etiraz etmirəm*" dialoqu uşaqlar tərəfindən rollar üzrə oxunur. Məzmunu şagirdlər tərəfindən təhlil edilir.

**Müzakirə.** Şagirdlər dialoqda qoyulmuş fikri müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Şagirdlərin rabitəli nitqi inkişaf etdirilməli, lüğət ehtiyatı zənginləşdirilməlidir.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə dənizdə, çayda yaşayan balıqlardan hansınınsa şəklini çəkmək tapşırılır.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Xilaskar delfinlər*" mətnini öyrənmək, çalışma №12, 13-ü yazmaq.

## Mövzu 18. Hava. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Oxuduğu mətnin məzmununu anlayır, düzgün intonasiya ilə oxumağı bacarır, spesifik səsləri ayırır, öyrəndiyi mətnin məzmununu danışmağı bacarır, düzgün şəkildə yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya | |
|---|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik, əlavə oxu materialları, iş vərəqləri | A.d.1.1.2 | A.d.1.2.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim uşaqları dairə ilə düzür. Şagirdlərdən biri dərindən nəfəs alır və verir. Sonra ondan sağdakı şagird dərindən nəfəs alır və verir. Dairə boyunca növbə ilə dərindən nəfəs alıb – vermə davam edir. Əməliyyata başlayan şagirdə növbə çatanda oyun yenidən dərindən nəfəs alıb – vermə iki dəfə olmaqla sol tərəf istiqamətində davam edir. Oyun başa çatır.

**Motivasiya.** Müəllim şagirdlərə belə bir tapmaca söyləyir:

O nədir ki, görmürük?
Heç əl vura bilmirik?
O olmasa ölərik,
Nəfəs ala bilmərik?!

**Yardımçı sual.** Bizim nəfəs almağımız üçün nə lazımdır?

**Tədqiqat sualı.** Havanı insan necə qəbul edir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri üç qrupa bölür. Hər qrupa suallar yazılmış iş vərəqləri paylayır.

*I iş vərəqi:* Havanı görürsünüz, eşidirsiniz, yoxsa hiss edirsiniz?

*II iş vərəqi:* Havanın hərəkətini necə hiss edirsiniz? (Meh və külək vasitəsilə cavabı alınmalıdır).

*III iş vərəqi:* Hava hər yerdə eynidirmi? Onu çirkləndirən nədir?

Cavablar dinlənilir.

**Dərsliklə iş.** Mövzu 18-də "*Hava*" mətni oxunur, məzmunu izah edilir, çətin sözlər mənimsədilir, çalışma № 1, 2, 3, 4, 5 yerinə yetirilir.

**Məlumatın mübadiləsi.** Çalışma № 6-dakı dialoq oxunur, havanın müxtəlifliyi barədə şagirdlərin mülahizələri dinlənilir.

**Müzakirə.** Cavablar müzakirə edilir. Çalışma № 7 yerinə yetirilir.

**Nəticə və ümumiləşdirmə.** Şagirdlər havanın nə olduğunu və əhəmiyyətini öyrənirlər. Havanın çirklənməsinin qarşısını almaq üçün nə etmək lazım olduğunu dərk edirlər. Bu fikirləri ifadə etməklə dili anlamaq bacarıqlarını nümayiş etdirirlər.

**Yaradıcı tətbiqetmə.** Sevdiyiniz hava şəraitini (sakit, küləkli, yağışlı, qarlı, günəşli və s.) təsvir edən kiçik bir mətn qurub, dəftərinizə yazın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mövzu 18-dəki "*Hava*" mətnini öyrənmək, çalışma № 8-i yazmaq.

## Mövzu 18. Hava. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Dinlədiyi mətnin məzmununu anlayır, qısa şəkildə danışmağı bacarır, kiçik-həcmli mətnlər qurur, ilin fəsilləri haqqında bildiklərini çatdırmağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, müzakirə | Dərslik, iş vərəqləri | A.d.1.1.2 A.d.1.2.3 T.i.2.2.5 A.d.2.2.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdləri dörd qrupa bölür. Hər qrup verilmiş böyük vərəqdə müəllimin tapşırığı ilə ilin dörd fəslindən birinin şəklini çəkir. Hansı qrup daha gözəl şəkil çəkə bilibsə, o qrup qalib gəlir.

**Motivasiya.** Müəllim lövhədən iki şəkil asır. 1-ci şəkildə gözəl dağ kəndi – dağın qoynunda bulaqlar, meşəlik və s., 2-ci şəkildə isə zavodlardan çıxan tüstüyə bürünmüş qara dumanlar içərisində şəhər şəkli təsvir edilib.

**Yardımçı sual.** Bu şəkillərdə hara təsvir edilib? Hansı şəkildə təsvir edilmiş yerdə sağlam yaşamaq, rahat nəfəs almaq olar?

**Tədqiqat sualı.** Sizcə, havanın çirklənməsinin qarşısını necə almaq olar? Bunun üçün nə etmək lazımdır?

**Tədqiqatın aparılması.** Müəllim sinfi üç qrupa bölür. Hər qrupa suallar yazılmış iş vərəqləri paylayır.

*I iş vərəqindəki sual:* Bizi əhatə edən havanı necə hiss edirik?

*II iş vərəqindəki sual:* Bizi əhatə edən hava təmiz olmasa nələr baş verər?

*III iş vərəqindəki sual:* Evdə, sinifdə havanın təmiz olması üçün nə etmək lazımdır?

Qrupların cavabları dinlənilir. Müzakirə edilir.

**Dərsliklə iş.** Mövzu 18-də çalışma № 9-dakı mətn oxunur, məzmunu izah edilir. Şagirdlərə oxutdurulur, tələffüzlərindəki nöqsanlar müəllim tərəfindən düzəldilir. Çalışma № 10, 11, 12 yerinə yetirilir. "**H**" səsinin işlənməsinə xüsusi diqqət yetirilir.

**Məlumatın mübadiləsi.** Çalışma №13-dəki sözlər oxunur, izah edilir, vurğu haqqında şaqirdlərə məlumat verilir.

**Müzakirə.** Şagirdlərin fikirləri müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Hava insan həyatı üçün çox vacibdir. Hər kəs təmiz hava ilə nəfəs alsa, sağlam olar. Sağlam bədəndə sağlam ruh olar. Sağlam insanın həyatı fərəhli keçər. Ona görə də havanın çirklənməsinin qarşısını almaq lazımdır. Bu fikirləri şagird müstəqil şəkildə ifadə etməyi bacarmalıdır.

**Yaradıcı tətbiqetmə.** İlin fəsillərindən birini öz sözlərinizlə təsvir edərək dəftərinizə yazın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Çalışma № 9-dakı mətni danışmaq, çalışma № 14-ü yazmaq.

## Mövzu 19. Hacıleylək və sərçə. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 -<br>2.1.1 -<br>3.1.1 -<br>4.1.3 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir.<br>Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir.<br>Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur.<br>Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Sözləri, cümlələri başa düşür. Tapşırıqlara əməl edir. Düzgün, ifadəli oxuyur, yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | İş vərəqləri, şəkillər, dərslik, | A.d.1.2.1 H.b. 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim belə sual verir: *"Dost necə olmalıdır?"*

Şagirdlər fikirlərini vərəqdə yazırlar, vərəqi qatlayırlar və otaqda hamıya ötürülən papağın içinə atırlar. Sonra kağızlar qarışdırılır. Hər kəs papaqdan bir kağız götürüb oxuyur. Kağızda yazılanlar müzakirə oluna da bilər.

**Motivasiya.** Müəllim lövhədən iki şəkil asır. 1-ci şəkildə ağır zənbilini daşıya bilməyən qadına kömək edən uşaq, 2-ci şəkildə yıxılan balaca uşağa fikir verməyən oğlan təsvir edilmişdir.

**Yardımçı sual.** Şəkillərdə nəyi görürsünüz? Təsvir edin.

**Tədqiqat sualı.** Hansı uşaq düzgün hərəkət etmişdir? Bu hərəkəti siz necə adlandırardınız?

**Tədqiqatın aparılması.** Müəllim sinfi üç qrupa bölür.

*I qrup:* Hansı hərəkətlər yaxşı sayılır?

*II qrup:* Hansı hərəkətlər pis sayılır?

*III qrup:* Əvvəl yaxşı hərəkətləri yazın, sonra onun əksini yazın.

Cavablar dinlənilir. Müəllim səhvləri düzəldir.

**Dərsliklə iş.** Mətn oxunur, çalışma № 1, 2, 3, 4, 5 üzərində iş aparılır.

**Məlumatın mübadiləsi. Müzakirə.** Hamı bir-birinə qarşı xeyirxah olmalıdır. Xeyirxahlıq ən ali insani keyfiyyətdir. Ətrafdakılara qarşı həmişə diqqətli olmalıyıq. Diqqətsiz olsaq nə baş verər?

R.N.İ. üzrə iş aparmaq məqsədilə şagirdlər arasında müzakirə aparılır.

**Nəticə və ümumiləşdirmə.** Ətrafdakılara diqqət, hörmət ilk növbədə insanın özünə hörmətdir. Babalarımız yaxşı deyiblər: "*Hörmət edərsən, hörmət görərsən*".

R.N.İ. üzrə iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Həyatda rastlaşdığınız bir xeyirxah hərəkət haqqında yazın. Onu danışmağa çalışın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 6 üzərində işləmək.

## Mövzu 19. Hacıleylək və sərçə. 2-ci sa

| Məzmun standartları | |
|---|---|
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 2.2.3 - | Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) ibarət kiçikhəcmli mətnlər qurur və təqdim edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Gördüklərini təsvir edir. Mətn qurur, danışır. Eşitdiklərini yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya | |
|---|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | Dərslik, iş vərəqləri | A.d.1.2.6 | A.d.3.1.1 |

**Sinfin fəallaşdırılması.** Uşaqlar dairə üzrə düzülürlər. Onlardan biri ev heyvanının adını çəkir, digər şagird həmin heyvanın balasının adını deyir, başqa birisi onun nə yediyini deyir. Deyə bilməyən şagird oyunu tərk edir. Beləliklə, heyvanlar haqqında təsəvvür yaranır. Şagirdlər düşündüklərini sözlə ifadə etməyi öyrənirlər.

**Motivasiya.** Müəllim lövhəyə müxtəlif quşların, ev heyvanlarının, çöl heyvanlarının, ev quşlarının şəkillərini qarışıq halda yapışdırır.

**Yardımçı sual.** Siz şəkildə nə görürsünüz?

**Tədqiqat sualı.** Gördüyünüz heyvanların insan həyatında rolu nədən ibarətdir? Müəllim cavabları dinləyir və şagirdlərin nitq səhvlərini düzəldir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim qrupları adlandırır və tapşırıq verir ki, hər qrup özünə aid olan heyvanları lövhədən götürüb kağızın üstünə yapışdırsın.

*I qrup:* Ev quşlarının adlarını sadala və əlamətlərini söylə.

*II qrup:* Çöl quşlarının adlarını sadala və əlamətlərini söylə.

*III qrup:* Ev heyvanlarının adlarını sadala və əlamətlərini söylə.

*IV qrup:* Çöl heyvanlarının adlarını sadala və əlamətlərini söylə.

Müəllim cavabları dinləyir və düzəlişlər edir.

**Dərsliklə iş.** Mətn oxunur (çalışma № 7). Çətin sözlər tərcümə edilir. Çalışma № 8, üzərində iş aparılır.

**Məlumatın mübadiləsi. Müzakirə.** Heyvanlar bizim dostlarımızdır. Bəs vəhşi, yırtıcı heyvanlar necə? Onların nə kimi xeyri var?

Şagirdlər bu suallar ətrafında müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Hevanları sevmək, onlara qayğı göstərmək lazımdır. Çunki onlar bizi həm qida ilə təmin edir, həm də onlar bizim “dördayaqlı”dostlarımızdır. Bu fikirləri şagirdlər müstəqil şəkildə ifadə etməyi bacarmalıdırlar.

**Yaradıcı tətbiqetmə.** Sevdiyin heyvan və ya quş haqqında məlumat topla. Onu öz sözlərinlə danışmağa çalış.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 11 üzərində iş aparmaq.

## Mövzu 20. Ləpirlər. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisəni III şəxsin dili ilə təsvir edir. |
| 3.1.2 - | Oxuduğu mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümləri düzgün yazır. |
| Məqsəd | Gördüklərini təsvir edir. Mətnin məzmununu danışır. Cümlələri düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | Dərslik, iş vərəq-ləri, şəkillər | A.d.1.2.1 T.i. 2.2.5 |

**Sinfin fəallaşdırılması.** Partada cüt-cüt oturan şagirdlərdən biri öz yoldaşına müsbət keyfiyyət bildirən söz deyir. Yoldaşı onun əksi olan sözü söyləməlidir. Hansı şagird söyləməsə oyunu tərk edir. Axıra qalan cütlük qalib sayılır.

**Motivasiya.** Müəllim lövhədən şəkil asır. Şəkildə insan təsvir edilmişdir. O getdikcə torpağın üstündə izi qalır.

**Yardımçı sual.** Şəkillərdə nə təsvir olunmuşdur?

**Tədqiqat sualı.** Nə üçün deyirik ki, insan özündən sonra iz qoyur? "*İz qoyur*" kəlməsini siz necə başa düşürsünüz?

Müəllim cavabları dinləyir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3, 4, üzərində iş aparılır.

**Tədqiqatın aparılması.** Şagirdlər qruplara bölünür.

*I qrup:* İnsan var-dövlət dalınca getsə necə olar?

*II qrup:* İnsan xoşbəxtlik dalınca getsə necə olar?

*III qrup:* İnsan dostluq dalınca getsə necə olar?

*IV qrup:* Siz hansı ləpirin dalınca gedərdiniz? Nə üçün?

Cavablar dinlənilir.

**Məlumatın mübadiləsi. Müzakirə.** "*Dost dar gündə tanınar*"atalar sözünü necə başa düşürsünüz?

Bu sual ətrafında müzakirə aparılır.

**Nəticə və ümumiləşdirmə.** Dosta inam və etibar olmalıdır. İnsanın dostu çox olarsa, bu onun üçün var-dövlətdir. Şagirdlərin lüğət ehtiyatları bu fikirləri ifadə etməklə zənginləşdirilir.

**Yaradıcı tətbiqetmə.** Öz dostun haqqında yaz. Yazdığını danışmağa çalış.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 5, 6 üzərində iş aparmaq.

## Mövzu 20. Ləpirlər. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Sözləri düzgün tələffüz edir, danışır, düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Beyin həmləsi, diskussiya | Dərslik, iş vərəqləri | A.d.1.2.8 A.d.2.2.6 H.b. 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim belə bir tapşırıq verir. Hərə öz parta yoldaşının mənfi və müsbət keyfiyyətlərinin adını çəkir. Beləliklə, şagirdlər bir-birinin xüsusiyyətlərini öyrənirlər.

**Motivasiya.** Müəllim şagirdlərə M. Füzulinin "*Meyvələrin bəhsi*" şeirini oxuyur.

**Yardımçı sual.** Eşitdiyiniz şeirdə hansı meyvələrin adı çəkilir?

**Tədqiqat sualı.** Meyvələr niyə mübahisə edirlər? Onların insan həyatında xeyri nədir? Cavablar dinlənilir. Tələffüzdə olan səhvlər düzəldilir.

**Tədqiqatın aparılması.** Cütlərlə iş.

*I cüt:* "*Yaxşılıq nədir?*" sualına cavab verin.

*II cüt:* "*Dost necə olmalıdır?*" sualına cavab verin.

*III cüt:* "*Lovğalıq nədir?*" sualına cavab verin.

*IV cüt:* İnsanla dostluq yaxşıdır, yoxsa heyvanla?

*V cüt:* Heyvanlar necə danışır?

*VI cüt:* Bitkilər necə danışır?

Cavablar dinlənilir.

**Dərsliklə iş.** Çalışma № 7-dəki mətn oxunur. Çətin sözlər izah edilir. Çalışma № 8, 9 üzərində iş aparılır.

**Məlumatın mübadiləsi. Müzakirə.** Səncə, bitkilər canlıdır?

Bu sual ətrafında şagirdlər müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Həyatda təkcə insanların, heyvanların yox, bitkilərin də canı var. Onlar da canlılar kimi yaşayır, yeyir, içir. Bitkilər də özlərinə qarşı diqqət tələb edir.

**Yaradıcı tətbiqetmə.** Hansı qəribə bitki ilə rastlaşmısan? Onun haqqında danışmağa çalış.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Çalışma № 7-də verilmiş mətni danışmaq, çal. № 10-u yazmaq.

# Mövzu 21. Peşmançılıq. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.3 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Sözləri düzgün tələffüz edir. Gördüklərini təsvir edir. Sözləri başa düşür və tərcümə edir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | Əşyalar, iş vərəqləri, dərslik | A.d.1.2. 5 T.i. 2.2.1<br>A.d.1.2.6 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə bir meyvə adı deyir. Həmin meyvə adının son hərfi ilə başlayan meyvə adını başqa bir şagird deyir. Oyun davam edir. Meyvə adı deyə bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim stolun üstünə müxtəlif əşyalar düzür və şagirdlərə təklif edir ki, əşyaları bir-bir gəlib götürsünlər. Şagirdlər əşyaları götürən zaman müxtəlif nitq etiketlərindən istifadə etməlidirlər.

**Yardımçı sual.** Siz hansı nitq etiketlərini eşitdiniz?

**Tədqiqat sualı.** Nitq etiketləri nə üçündür? Cavablar dinlənilir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3 üzərində iş aparılır. İş dəftərindəki çalışma yerinə yetirilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

Müəllim qruplara iş vərəqləri paylayır.

*I qrup.* Tahir babaya nə deməli idi?

*II qrup.* Üzr istəmək üçün hansı nitq etiketlərindən istifadə olunur?

*III qrup.* Yay fəslini təsvir edin.

*IV qrup.* Hansı işlərlə məşğul olan adamlara "*bağban*" deyilir?

Cavablar dinlənilir.

**Məlumat mübadiləsi. Müzakirə.** İcazə almaq həmişə lazımdırmı?

Şagirdlərin fikirləri müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Bütün etiketlərə riayət etmək hər bir insanın borcudur. Bu, bizim mədəni olduğumuzu göstərir. Nitq etiketlərindən istifadə etmək lüğət ehtiyatımızı zənginləşdirir.

**Yaradıcı tətbiqetmə.** Yoldaşınla dialoq qurmağa çalış.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 4, 5, 6, 7 üzərində işləmək, qaydanı yadda saxlamaq.

## Mövzu 21. Peşmançılıq. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 -<br>2.2.1 -<br>3.1.2 -<br>4.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir.<br>Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir.<br>Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir.<br>Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Tapşırıqları başa düşərək əməl edir. Gördüklərini təsvir edir. Eşitdiklərini düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik, tablolar, iş vərəqləri | A.d.1.1. T.i. 1.1<br>A.d.1.2.3 A.d.1.2.8<br>H.b. 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə bir yanıltmac söyləyir:

*"Bazarda nə ucuz, mis ucuz, küncüt ucuz."*

Şagirdlər bu yanıltmacı təkrarlayırlar. Kim deyə bilməsə, oyunu tərk edir. Axıra qalan şagird qalib sayılır.

**Motivasiya.** Müəllim lövhədən bir şəkil asır. Şəkildə bağ təsvir olunmuşdur. Uşaqlar böyüklərə kömək edərək işləyirlər.

**Yardımçı sual.** Şəkildə nə təsvir olunmuşdur?

**Tədqiqat sualı.** Kiçik yaşda olan şagirdlər bağda necə kömək edə bilərlər?
Müəllim cavabları dinləyir.

**Tədqiqatın aparılması.** Müəllim lövhədə "*bağban*" sözünü yazır. Bütün sinif həmin sözlə bağlı müxtəlif sözlər fikirləşirlər. Kim daha çox söz desə, həmin şagird fərqləndirilir.



**Dərsliklə iş.** Dərslikdən 8 №-li çalışmada verilmiş şeir ifadəli oxunur. Çətin sözlər tərcümə edilir. Müəllimin köməyilə şagirdlər şeiri nəsrə çevirirlər. Çalışma № 9, 10, 11 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Bağa baxarsan, bağ olar, baxmazsan dağ olar*" atalar sözü nə deməkdir?

Şagirdlər bu fikrə münasibət bildirib, müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Babalarımızın bizə miras qoyduğu torpağın qədrini bilməliyik. Əkdiyimiz hər ağac bizdən yadigar qalacaq. Bu fikirləri ifadə etməklə şagirdlərin rabitəli nitqi inkişaf etdirilməlidir.

**Yaradıcı tətbiqetmə.** Siz nə vaxtsa torpaqda nə isə əkmisiniz? Bu haqda danışın.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Şeiri əzbərləmək, çalışma № 12, 13, 14 üzərində işləmək.

## Mövzu 22. "Yeddi nar çubuğu" nağılı. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümləni müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümləni düzgün yazır. |
| Məqsəd | Oxuduğu şeirin məzmununu nəsrə çevirib danışmağı bacarır, çətin söz və ifadələrin mənasını anlayır, dostluq haqqında mülahizələrini çatdırmağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, müzakirə | Dərslik, iş vərəqləri | A.d.1.1.2 A.d.2.2.6<br>A.d.1.2.8 A.d 3.1.2 |

**Sinfin fəallaşdırılması.** Müəllim uşaqları stullarda əyləşdirir. Bir uşaq aparıcı seçilir. Aparıcı deyir: Mən bir və ya bir neçə söz deyəcəyəm. Siz onu cümlədə işlətməlisiniz. Yarımçıq qalmış cümləni bitirməlisiniz. Mən əlimdəki çubuğu kimə versəm, cümləni o quracaq:

1. Mənim dostum . . .
2. Dünən mən . . .
3. Mən məktəbə gəlirəm ki, . . .

Şagirdlər oyunu başa çatdırırlar, müəllim öz münasibətini bildirir.

**Motivasiya.** Müəllim lövhəyə (və ya plakata) ". . . *bir olsa, dağ oynadar yerindən*" cümləsini yazır.

**Yardımçı sual.** Nöqtələrin yerinə hansı sözü yazmaq olar?

**Tədqiqat sualı.** Uşaqlar, siz "*birlik*" sözünü necə başa düşürsünüz? O, nə zaman yaranır?

"*Birlik*" və "*bir olsaq*" ifadələri eyni mənada işlənirmi?

**Tədqiqatın aparılması.** Müəllim sinfi 4 qrupa bölür. Hər qrupa iş vərəqləri paylanır. İş vərəqlərindəki suallar aşağıdakı kimidir:

*I iş vərəqi.* "*Birlik*" sözünü necə başa düşürsünüz? Buna aid şəkil çəkin və fikrinizi izah edin.

*II iş vərəqi.* Atalar sözlərinin içərisindən birliyə aid olanını seçin və nə üçün belə düşündüyünüzü izah edin: 1) "*Dost dar gündə tanınar*"; 2) "*Güc birlikdədir*", 3) "*İşləməyən dişləməz*".

*III iş vərəqi.* İnsanlar arasında birliyin olması üçün nə etmək lazımdır? Düşündüklərinizi izah edin.

*IV iş vərəqi.* Keçən dərslərdən birində öyrəndiyiniz hekayəni səhnələşdirin.

Qruplar işə başlayırlar. Hər qrup təqdimata hazırlaşır. Hazırladıqlarını təqdim edirlər. Hər qrupun işi özləri və yoldaşları tərəfindən qiymətləndirilir.

**Dərsliklə iş.** Mövzu 22-dəki mətn üzrə iş aparılır. Çalışma № 2, 3, 4, 5, 8 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Müəllim şagirdlərə sual verir: "*Biz bu gün nə öyrəndik? Dostlarınla birlikdə olanda özünü güclü hesab edirsənmi?*"

**Müzakirə.** Şagirdlər bu suallar ətrafında müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Şagirdlər "*Güc birlikdədir*" fikrini dərk edir, dostlarla, yoldaşlarla birlik yaratmağın faydasını başa düşürlər. Sözləri hissələrə bölür, onların mənalı hissələrini seçməyi bacarırlar.

**Yaradıcı tətbiqetmə.** Ailənizdə birliyin olmasını təsvir edən bir əhvalatı danışmağı öyrənin.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mövzunun məzmununu öyrənmək, çalışma № 1, 6, 7-ni yazmaq.

## Mövzu 22. "Yeddi nar çubuğu" nağılı. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 -<br>2.2.1 -<br>3.1.1 -<br>4.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir.<br>Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir.<br>Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur.<br>Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Dinlədiyi mətnin məzmununu anlayır, çatdırmağı bacarır. Yeni sözləri mənimsəyir, yazı qaydalarına uyğun tapşırıqları yerinə yetirməyi bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, müzakirə | Dərslik, iş vərəqləri | A.d.1.2.3 T.i. 2.2.5<br>A.d.2.2.1 A.d.4.1.8 |

**Sinfin fəallaşdırılması.** Hər kəs ayağa qalxır və özünə partnyor tapır. Mərkəzdə bir nəfər aparıcı durur, müxtəlif tapşırıqlar verir. *Məsələn:* "*Əl-ələ*", "*Arxa-arxaya*", "*Baş-başa*", "*Əllə düzəlmək*" və s. Hər bir cütlük bu tapşırıqlara əməl edir. Aparıcı "*Adam- adama*" deyəndə isə, özü də daxil olmaqla hər kəs yeni partnyor tapır və bu zaman mərkəzdə yeni bir aparıcı ortaya çıxır.

**Motivasiya.** Müəllim lövhədə boş bir dairəcik çəkir. Kənarlarda bu dairədə yazılacaq sözü izah edən köməkçi sözlər yazılır. Şagirdlərə sual verilir.




Şagirdlər "**dost**" sözünü tapırlar. Bu söz boş xanaya yazılır.

**Yardımçı sual.** Bu dairədə hansı söz yazıla bilər?

**Tədqiqat sualı.** "*Dost*" sizin üçün nə deməkdir?

Uşaqlar bu sözün yaratdığı təəssüratları - assosiasiyaları söyləyirlər.

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri istənilən sayda qruplara bölür. Bütün qruplara eyni tapşırıq verilir: "*Hərə öz dostu haqda mülahizələrini desin. Kimin dostu daha yaxşıdır?*" sualına cavab verməyə çalışın. Qruplar növbə ilə öz mülahizələrini söyləyirlər. Hər qrupun nümayəndəsi gəldikləri qərarı əsaslandırmalıdır. Axırda müəllim kimin daha yaxşı dostu olduğunu əsaslandırmaqda şagirdlərə kömək edir.

**Dərsliklə iş.** Dərslikdəki "*Dostum*" şeiri üzərində iş aparılır. Çalışma № 10, 11, 12 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Çalışma № 13-dəki dialoq oxunur. Bu dialoq dostluğa həsr olunduğu üçün oradakı fikirlərə diqqət yetirilir, məzmunu təhlil edilir. Bu səhifədəki qaydaya diqqət yetirilir.

**Müzakirə.** Şagirdlər dostluq haqqındakı fikirlərini müzakirə edirlər. Müəllim onları istiqamətləndirir, nitqlərindəki səhvləri düzəldir.

**Nəticə və ümumiləşdirmə.** İnsanın dostu çox olarsa, bu, onun üçün böyük vardövlətdir. Dostluq ən gözəl insani keyfiyyətdir. Dost hər anda sənə arxadır. Yaxşı dost tapmaq üçün özün də yaxşı insan olmalısan. Əsl dostu əldə etmək çox çətindir. Onu qorumaq lazımdır. Bu barədə mülahizələrini söyləməklə şagirdlərin rabitəli nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Sevdiyiniz dostu təsvir edə biləcək bir hekayə fikirləşib danışın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Dostum*" şeirini əzbərləmək, tələffüzü fərqli sözləri seçib yazmaq.

## Mövzu 23. Səbət əhvalatı. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Sözləri başa düşür, düzgün tələffüz edir, düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Rollu oyun, beyin həmləsi | Dərslik, şəkillər, iş vərəqləri | A.d.1.1.2 H.b. 3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim 100-ə qədər olan rəqəmləri on-on üstünə gəlmək-lə ( 10, 20, 30, 40 ...) və əksinə saymağı şagirdlərə tapşırır. Kim növbəti rəqəmi tap - mırsa, oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən bir ağac şəkli asır. İzah edir ki, bu ağacın budağını bir uşaq sındırıb.

**Yardımçı sual.** Sizcə, uşaq düz hərəkət edib?

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər izah edilir. Çalışma № 1, 2, 3, 4 üzərində iş aparılır. 5 №-li çalışma dialoq şəklində oxudulur. (Rollar üzrə)

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

*I qrup.* Baba necə adamdır?

*II qrup.* Elbəy necə uşaqdır?

*III qrup.* "*Əkiblər yeyirik, əkirik yesinlər*" atalar sözünü izah edin.

*IV qrup.* Mətndəki hadisəyə oxşar bir hadisə danışın. Siz məktəbdə bununla tez-tez rastlaşırsınız?

**Məlumat mübadiləsi.** Sənin çəkdiyin rəsmi yoldaşın cırarsa, sən necə hərəkət edərdin?

**Müzakirə.** Bu məsələni şagirdlər müzakirə edirlər, müəllim nitqdəki səhvləri düzəldir.

**Nəticə və ümumiləşdirmə.** Hər bir insan başqasının işini qiymətləndirməlidir. O zaman onun da işinə qiymət verərlər. Bu haqda şagirdlər fikirlərini sətbəst şəkildə ifadə etməyi bacarırlar.

**Yaradıcı tətbiqetmə.** Yaxşılığa aid şahidi olduğun hadisələrdən birini öz sözlə-rinlə danış.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 6 üzərində işləmək.

## Mövzu 23. Səbət əhvalatı. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini təsvir edir. |
| 2.2.3 - | Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) ibarət kiçikhəcmli mətnlər qurur və təqdim edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Gördüklərini təsvir edir. Oxuduqlarını danışır və düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | Şəkillər, iş vərəqləri, dərslik | A.d.1.2.3 T.i. 2.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə tez-tez meyvə adları deyir. Şagirdlər həmin meyvənin əlamətlərini deməlidirlər. Kim deyə bilməsə, oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədə yazır:



*Alma ağacı* *Şam ağacı* *Əncir ağacı* *Albalı ağacı*

**Yardımçı sual.** Lövhədə hansı ağacların adları yazılıb?

**Tədqiqat sualı.** Bu ağaclardan insanlar necə istifadə edirlər?
Cavablar dinlənilir. Şagirdlərə lüğətdən istifadə etmək təklif olunur.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.
*I qrup.* Hansı ağaclardan daha çox istifadə edilir?
*II qrup.* Hansı çiçəklərdən təbabətdə istifadə edilir?
*III qrup.* Hansı tərəvəzlərdən təbabətdə istifadə edilir?
*IV qrup.* Hansı meyvələr insan orqanizminə daha xeyirlidir?
Cavablar dinlənilir. Müəlim düzəlişlər edir.

**Dərsliklə iş.** Mətn oxunur (çalışma № 7). Çətin sözlər tərcümə edilir. Çalışma № 8, 9, 10, 11 üzərində iş aparılır.

**Məlumat mübadiləsi.** Südün insan orqanizminə hansı faydası var?

**Müzakirə.** Şagirdlər öz fikirlərini söyləyib müzakirə aparırlar. Müəlim şagirdlərin nitqinə düzəlişlər edir.

**Nəticə və ümumiləşdirmə.** Təbiət bizə hər şey verir. Elə bir bitki, ağac, meyvə yoxdur ki, insan orqanizmi üçün faydalı olmasın, lakin biz təbiətin nemətlərindən yerində istifadə etməyi bacarmalıyıq. Azərbaycan dilində çoxlu bitkilərin adlarını öyrənməliyik.

Bu mövzuda R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Hansı ağacın insan həyatında rolu daha böyükdür?

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma № 7-ni danışmaq, çalışma № 12, 13, 14 üzərində işləmək.

## Mövzu 24. Pis adət. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.2.3 - | Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) ibarət kiçikhəcmli mətnlər qurur və təqdim edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| Məqsəd | Eşitdiklərini başa düşərək əməl edir. Mətnləri danışır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Səs assosiasiyası, diskussiya | Dərslik, şəkillər | A.d.1.1.2 A.d.1.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə müxtəlif peşələri xarakterizə edən sözlər söyləyir. Şagirdlər bir sözlə cavab verməlidirlər. Kim cavab verə bilmirsə, oyunu tərk edir.

İnsanları müalicə edən - . . . (həkim)
İnsanlara bilik verən - . . . (müəllim)
Maşın sürən - . . . (sürücü)
Bina tikən - . . . (inşaatçı)
Ağaclara qulluq edən - . . . (bağban)
Gül becərən - . . . (gülçü)
İnəkləri sağan - . . . (sağıcı)
Sürünü çəmənlikdə otaran - . . . (çoban)
Şəkillər çəkən - . . . (rəssam)
Musiqi bəstələyən - . . . (bəstəkar)
Quş saxlayan - . . . (quşçu)
Mahnı oxuyan - . . . (müğənni)

Beləliklə, şagirdlərin söz ehtiyatı artırılır.

**Motivasiya.** Müəllim sinifdə "*Yalançı çoban*" hekayəsini danışır (Çoban gülüş doğurmaq üçün yalandan qışqırır ki, "canavar məni parçaladı". Bu hal bir neçə dəfə təkrar olunur. Üçüncü dəfə qışqıranda həqiqətən də canavar sürüyə hücum edir, lakin camaat inanmır).

**Yardımçı sual.** Nə üçün axırıncı dəfə camaat çobana inanmadı?

**Tədqiqat sualı.** Daha hansı xüsusiyyətlər insanlara inamı azaldır?
Müəllim cavabları dinləyir. Nitqdəki nöqsanlara düzəlişlər edilir.

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.
Müəllim sinfə suallarla müraciət edir:
- Adam nə üçün yalan danışmaz?
- Adam nə üçün başqasının sözünü, işini hes kəsə deməz?
- Yoldaşının səhvini üzünə demək məgər pis xüsusiyyətdir?
- Sən ev tapşırığını köçürməyə yoldaşına niyə vermədin? və s.

Cavablar dinlənilir. Müəlim düzəlişlər edir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3, 4 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** Hansı xüsusiyyələr insana baş ucalığı gətirir?
Şagirdlər öz fikirlərini söyləyirlər, müzakirə aparırlar.

**Nəticə.** Xalqımız çox müdrik xalqdır. Babalarımızdan bizə gözəl davranış qaydaları qalıb. Biz onlara həmişə riayət etməliyik. Şagirdlərin rabitəli nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Dostunun hansı xüsusiyyəti xoşuna gəlmir? Bu barədə düşün.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 5, 6 üzərində işləmək. Atalar sözlərini yadda saxlamaq.

## Mövzu 24. Pis adət. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.1.2 - | Sadə cümləlari (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| Məqsəd | Cümlələri düzgün tələffüz edir. Eşitdiklərini düzgün danışır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Səs assosiasiyası, müzakirə | DVD, dərslik, (cizgi filmi) | A.d.1.2.8 A.d.2.2.1 |

**Sinfin fəallaşdırılması.** Bir şagird ortada dayanaraq müxtəlif hərəkətlər edir. Digər şagirdlər həmin hərəkətin adını söyləyirlər.

**Motivasiya.** Müəllim şagirdlərə "*Xeyir və Şər*" cizgi filmini göstərir.

**Yardımçı sual.** Cizgi filmində nə gördünüz?

**Tədqiqat sualı.** Cizgi filmində müşahidə etdiyiniz hansı hərəkətlər müsbət, hansılar mənfidir?

Cavablar dinlənilir. Şagirdlərin müstəqil nitqinə nəzarət edilir.

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.

Müəllim sinfə suallarla müraciət edir:

– Qonağı necə qarşılamaq lazımdır?
– Qonaq qarşısında ev paltarında gəzmək olar?
– Qonaq qarşısında tez-tez saata baxmaq olar?
– Qonaq evdə olarkən iş görmək olar?
– Qonağın gətirdiyi hədiyyəyə necə münasibət göstərmək lazımdır? və s.

**Dərsliklə iş.** Çalışma № 6-dakı mətn oxunur. Çətin sözlər izah edilir. Çalışma № 7, 8, 9, 10, 11, 12 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** "*İnsanın gözəlliyi, onun ağlında və gözəl davranışındadır*" atalar sözünü necə başa düşürsünüz?

Şagirdlər bu suallar ətrafında mülahizələrini söyləyir, müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Uşaqların böyüklər qarşısında özünü apara bilməsi onun valideynlərinə başucalığı gətirir. Məgər valideyn özünü pis aparan, davranış qaydalarına əməl etməyən uşağı ilə fəxr edə bilər? Əlbəttə, yox. Şagirdlərin rabitəli nitqi bu mövzu ətrafında mülahizə yürütməklə inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Hansı kinofilmlərdə, cizgi filmlərində gözəl davranış qaydalarına aid nümunələr var?

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma № 6-nı danışmaq, çalışma № 13, 14, 15, 16, 18 üzərində işləmək. Dili nisbətən yaxşı bilənlər çal.№ 17-də verilmiş şeiri əzbərləyə bilərlər.

## Mövzu 25. Balaca. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.2 - | Sadə cümlələri müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisələri III şəxsin dili ilə təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Sözləri intonasiya ilə tələffüz edir. Oxuduğunu danışır və yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qrupla iş | Səs assosiasi - yası, diskussiya | DVD, dərslik | A.d.1.2.1 T.i. 2.2.1 A.d.2.2.6 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə müxtəlif ölçüdə əşyalar göstərir. Şagirdlər həmin əşyanın əlamətlərini deməlidirlər. Deyə bilməyən şagird oyunu tərk edir. Axıra qalan qalib sayılır.

**Motivasiya.** Müəllim şagirdlər üçün Oqtay Zülfüqarovun "*Günəş olaram*" mahnısı - nı səsləndirir.

"Qışda, şaxtada, buzda,
Günəş çimir hovuzda.
Lap istisində yayın
Çimir içində çayın.

Qoy gətirim ləyəni,
Su tök, yuyundur məni.
Ay ana, böyüyəndə
Günəş olaram mən də".

**Yardımçı sual.** Balaca qızın arzusu nədir?

**Tədqiqat sualı.** Bəs sizin arzunuz nədir? Böyüyəndə siz nəçi olmaq istəyirsiniz? Müəlim cavabları dinləyir.

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.

Müəllim sinfə suallarla müraciət edir:

– Öz arzusuna çatmaq üçün insan nə etməlidir?
– Bütün insanlar arzularına çatırlar?
– İnsan öz arzusuna çatmaq üçün neçə yaşından çalışmalıdır?
– Mahnıda eşitdiyiniz balaca qızın arzusu "*günəş olmaqdır*". Siz bunu necə başa düşürsünüz?
– Qızcığaz nə üçün məhz günəş olmağı arzulayır?
– İnsanlar da Günəş kimi ola bilərlərmi?

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma .№ 1, 2, 3, 4 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** Siz həyatda necə insanlara Günəş kimi baxırsınız? Bu sual ətrafında şagirdlər müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Həyatda yaxşı insan, xeyirxah peşə sahibi olmaq üçün yaxşı oxumaq, təhsil almaq lazımdır. Şagirdlərin söz ehtiyatı yeni sözlər hesabına artır.

**Yaradıcı tətbiqetmə.** Xeyirxahlıq mövzusunda hansı şeiri, atalar sözlərini bilirsi - nizsə, yazın və onu öyrənin.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 5, 6 üzərində işləmək.

## Mövzu 25. Balaca. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir. |
| Məqsəd | Cümlələri intonasiya ilə tələffüz edir. Oxuduqlarını başa düşür və tərcümə edir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | DVD, dərslik, iş vərəqləri | A.d.1.2.8 A.d.1.2.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə müxtəlif çay, göl, dəniz, dağ, şəhər, kənd adları söyləyir (Qafqaz, Xəzər, Maral, Sumqayıt, Ordubad, Kür, Samur, Araz, Mingəçevir, Dəvəçi və s.). Uşaqlar eşitdiklərinin sadalananlardan hansı olduğunu deməlidirlər. Deyə bilməyən oyunu tərk edir. Axıra qalan qalib hesab edilir.

**Motivasiya.** E. Rəhimovanın ifasında "*Həyat, söylə, sən kiminsən?*" mahnısı səsləndirilir.

**Yardımçı sual.** Uşaqlar, mahnıda nədən danışılır?

**Tədqiqat sualı.** Vətən bizə nə verib? Cavablar dinlənilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

*I qrup.* Dağ sənin olsaydı, nə edərdin?

*II qrup.* Çay sənin olsaydı, nə edərdin?

*III qrup.* Meşə sənin olsaydı, nə edərdin?

*IV qrup.* Gördüklərin sənindir, bəs sən onları necə qoruyursan?

Cavablar dinlənilir.

**Dərsliklə iş.** Çalışma № 7 və 8-də verilmiş şeirlər oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 9, 10 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Vətən sənə hər şeyi bağışlayıb. Sən ona nə bağışlardın?*" mövzusunda müzakirə aparılır. Şagirdlərin rabitəli nitqi inkişaf etdirilir.

**Nəticə və ümumiləşdirmə.** Biz Vətənimizin qədrini bilməli, onu sevməli və qorumalıyıq. Bu bizim öz Vətənimiz, anamız qarşısında olan müqəddəs borcumuzdur. Şagirdlər yeni sözlərdən nitqlərində istifadə edirlər. R. N. İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Təbiətdə ən çox xoşuna gələn nə varsa, şəklini çəkə bilərsən.

**Qiymətləndirmə.** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı.** Çalışma №8-də verilmiş şeiri əzbərləmək, çalışma № 11, 12, 13 üzərində işləmək.

## Mövzu 26. Şir və siçan. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |

| | |
|---|---|
| Məqsəd | Oxuduğu mətnin məzmununu, çətin sözlərin mənasını mənimsəyir, nitq etiketlərini düzgün tələffüz edir, cümlələri Azərbaycan dilinə tərcümə edib yazmağı bacarır, durğu işarələrini yada salıb öyrənir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük və kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik | A.d.1.1.2 A.d.1.2.3 A.d.1.1 T.i. 1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim sinfə müxtəlif meyvələr gətirir. Bu meyvələri stolun üstündə 2 yerə bölərək yığır. Bir tərəfə yığdığı meyvələri kobud sözlərlə uşaqlara təklif edərək vermək istəyir. Uşaqların heç biri meyvələrə yaxınlaşmır. İkinci tərəfə yığdığı meyvələri uşaqlara mehribancasına, sevə-sevə təqdim edib vermək istəyir. Uşaqlar bir-bir yaxınlaşırlar. Müəllim uşaqlardan birinci dəfə niyə yaxınlaşmadıqlarını soruşur. Uşaqlar fikirlərini söyləyirlər. Müəllim onların fikirlərinə münasibət bildirir.

**Motivasiya.** Müəllim lövhəyə bir-birindən aralı 2 söz yazır. Onları ortada olan "**Söz**" dairəciyi ilə birləşdirir.




**Yardımçı sual.** Əgər sizin bildiyiniz nəzakətli və kobud sözləri toplasaq, hansı daha çox olar?

**Tədqiqat sualı.** Biri sizə yaxşılıg etmək istəsə, lakin buna qüvvəsi çatmasa, ona istehza ilə cavab vermək olarmı?

**Tədqiqatın aparılması.** Şagirdlərin cavabları dinlənilir. Müəllim şagirdlərin diqqətini "*Şir və siçan*" mətninə cəlb edir. İfadəli şəkildə mətni oxutdurub, çətin sözlərin mənasını izah edir. Sonra şagirdləri 3 qrupa bölür. I qrupa çal.№ 1, II qrupa çal.№ 2, 4, III qrupa çal.№ 3 üzərində işləməyi tapşırır. Şagirdlər fəaliyyətə başlayırlar. Onların cavabları dinlənilir. I və II qruplardan 2 şagird seçilərək çal.№ 8-dəki dialoqu oxuyur. Sinifdə çal.№ 5, 7, 10 yazdırılır.

**Məlumat mübadiləsi.** "*Yaxşılıq yerdə qalmaz*" atalar sözü oxunaraq təhlil edilir.

**Müzakirə.** Atalar sözünün mənası müzakirə edilir. Dialoqdan çıxan nəticə haqqında şagirdlər müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Hər bir sözü deməzdən əvvəl fikirləşmək lazımdır. Çalışmaq lazımdır ki, kobud sözlərlə insanların qəlbini incitməyəsən. Nəzakətli sözlərdən, mədəni ifadələrdən istifadə etmək insanı başqalarının yanında hörmətli edər. Şagirdlər mədəni olmağın səbəblərini anlayır və həyatda düzgün davranış qaydalarına uyğun hərəkət etməyi mənimsəyirlər. Nəzakətli sözlərdən nitqlərində istifadə etməyə çalışırlar.

**Yaradıcı tətbiqetmə.** İnsanlar kobud sözlər işlətdikdə hansı hadisələr baş verir? Bu mövzuda şəkillər çəkməyə çalışın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Şir və siçan*" mətnini danışmaq, çalışma № 6-nı yazmaq və çalışma №9-u yadda saxlamaq.

## Mövzu 26. Şir və siçan. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisələri III şəxsin dili ilə təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Öyrəndiyi mətnin məzmununu çatdırmağı bacarır, çətin söz və ifadələrin mənasını başa düşür, saatı təyin etməyin qaydalarını öyrənir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik, iş vərəqləri | A.d.1.2.1 A.d.2.2.6 A.d.1.2.3 A.d. 4.1.8 |

**Sinfin fəallaşdırılması.** Müəllim nitq etiketlərinə dair cümləni deyir, şagird davam etdirməlidir. *Məsələn:* Zəhmət olmasa .. , Hansı şagird davam edə bilmirsə, oyundan çıxır. Axıra qalan şagird qalib olur.

**Motivasiya.** Müəllim elektron lövhədə mövzuya uyğun atalar sözünü işiqlandırır.

**Yardımçı sual.** Bu atalar sözünün mənasını necə izah edərsiniz?

**Tədqiqat sualı.** Sizcə, yalnız nəyinsə müqabilində (əvəzində) yaxşılıq etmək lazımdır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri 3 qrupa bölür. Hər bir qrupa yazılmış suallar paylayır.

*I iş vərəqi.* Hansı əməllər yaxşılıq sayılır?

*II iş vərəqi.* Siz kiməsə yaxşılıq etmisinizmi?

*III iş vərəqi.* Sizə yaxşılıq edən adama münasibətiniz necə olur?

Şagirdlər fəaliyyətə başlayırlar. Cavablar dinlənilir. Qruplar bir-birlərinə kömək edə bilərlər.

**Dərsliklə iş.** "*Muradın cavabı*" mətni oxunur, təhlil edilir, suallara cavab verilir, çətin sözlərin lüğəti mənimsədilir. Sinifdə çalışma № 12, 13 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Şagirdlərə saatı bilmək qaydaları öyrədilir. Çalışma №14-də saatın neçə olduğu təyin edilir. Şagirdlər verilmiş tapmacanın cavabını (çalışma № 16) tapıb, ona aid şeir oxuyurlar. Çalışma №17-dəki şeir təhlil edilir, lüğəti mənimsədilir.

**Müzakirə.** Vaxtı təyin etmək qaydaları müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Şagird başqaları ilə ünsiyyətdə olarkən nitqinə fikir verməli, düzgün, zərif söz və ifadələrdən istifadə etməyi bacarmalıdır. Vaxtı başqasından soruşanda da mədəni cavab vermək, adamlarla düzgün ünsiyyət qurmağı bacarmaq lazımdır. Uşaqlar özlərindən böyüklərə "*bəli*", "*xeyr*" sözləri ilə cavab verməlidirlər. Şagirdlər nitqlərində belə sözlərdən istifadə etməlidirlər.

**Yaradıcı tətbiqetmə.** "*İctimai nəqliyyatda sərnişinlərə müraciət formaları*" mövzusunda nitq məşqinə hazırlaşmaq.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Muradın cavabı*" mətnini öyrənmək, çalışma № 17-dəki şeiri əzbərləmək, çalışma № 15-i yazmaq.

## Mövzu 27. Ağacların bəhsi. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Oxuduğu mətnin məzmununu anlayır, əşya və hadisələrin əlamətlərini təsvir edə bilir, suallara düşünülmüş cavab verə bilir, söz və ifadələri düzgün yazmağı bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya | |
|---|---|---|---|---|
| Cütlərlə iş | Beyin həmləsi, müzakirə | Dərslik, şəkillər | A.d.1.1.2<br>A.d.1.2.8 | A.d.2.2.1<br>A.d. 3.1.2 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərin dövrəyə düzülməsini xahiş edir. Yanında duran şagirdə ağaclardan birinin adını deyir. Onun yanında duran şagird bu işi davam etdirməlidir. Ağac adı tapa bilməyən şagird oyunu tərk etmiş olur.

**Motivasiya.** Müəllim lövhədən 2 şəkil asır. Bir şəkildə yaşıl yarpaqları olan söyüd ağacı, o biri şəkildə üzərində meyvələri olan alma ağacı təsvir edilib.

**Yardımçı sual.** Bu ağacların fərqi nədir?

**Tədqiqat sualı.** Meyvə ağaclarının xeyri niyə çox olur?

**Tədqiqatın aparılması.** Müəlim şagirdləri cütlərlə əyləşdirir. 6 cüt alınır. Hər cütə tapşırıqlar verir.

*I cütün tapşırığı:* Hansı meyvə ağaclarını tanıyırsınızsa, adlarını yazın.

*II cütün tapşırığı:* Ağacların məişətdə faydası nədir?

*III cütün tapşırığı:* Meşələrin çox olmasının xeyri nədir?

*IV cütün tapşırığı:* Ağaclara necə qulluq etmək lazımdır?

*V cütün tapşırığı:* Şəhərdə çoxlu ağac əkmək lazımdırmı?

*VI cütün tapşırığı:* Ağacların budaqlarını sındıran uşaqlara münasibətiniz necədir?

Şagirdlər fəaliyyətə başlayırlar. Onların cavabları dinlənilir. Qruplar bir-birlərinə kömək edə bilərlər.

**Dərsliklə iş.** Mövzu 27-dəki "*Ağacların bəhsi*" mətni üzərində iş aparılır, lüğət mənimsədilir. Çal. № 1, 2, 3, 4, 6 yerinə yetirilir.

**Məlumat mübadiləsi. Müzakirə.** Şagirdlər M.Ə.Sabir haqqında məlumatı oxuyur, şairin "*Uşaq və buz*" şeiri ilə tanış olurlar. Şeiri təhlil edirlər.

Şagirdlər yaxşı və pis keyfiyyətlər barədə müzakirə aparırlar.

**Nəticə və ümumiləşdirmə.** Şagirdlər yaxşı və pis keyfiyyətlər barədə mülahizə yürütməyi bacarırlar. Lovğalanmaq, öyünmək kimi xüsusiyyətlərin pis əlamət olduğunu anlayırlar. "*Hər şeydən yaxşısı insanlara faydalı olmaqdır*" fikrini təsdiqləyirlər. Şagirdlərin rabitəli nitqi bu fikirlərə əsasən inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Sevdiyiniz ağaclardan birinin şəklini çəkin, onun faydası barədə danışın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Ağacların bəhsi*" mətnini danışmaq, çalışma № 5, 7, 9-u yazmaq. Şeir əzbərləmək istəyən şagirdlər "*Uşaq və buz*" şeirini əzbərləyə bilərlər.

# Mövzu 27. Ağacların bəhsi. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 -<br>2.2.1 -<br>3.1.2 -<br>4.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir.<br>Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir.<br>Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir.<br>Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Mətnin məzmununu mənimsəyir, suallara cavab verməyi öyrənir, müzakirə aparır, mətnin məzmununu çatdırmağı, yazı prosesində durğu işarələrindən düzgün istifadə etməyi bacarır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik, şəkillər, iş vərəqləri | A.d.1.2.5 T.i. 2.2.5<br>A.d.2.2.6 A.d.4.1.8 |

**Sinfin fəallaşdırılması.** Şagirdlər dairə formasında düzülürlər. Birinci şagird bir dəfə əl çalıb, istənilən bir rəqəmi 2 dəfə deyir. Hamı bir dəfə əl çalıb, birinci şagirdin dediyi rəqəmi 2 dəfə təkrar edir. Daha sonra ikinci şagird əvvəlki rəqəmi təkrar edir və fərqli rəqəm deyir. Hamı ikinci şagirdin dediyi sonuncu rəqəmi 2 dəfə deyir. Kim yanılarsa, oyunu tərk edir. Oyun bu qaydada davam edir.

**Motivasiya.** Müəllim lövhədən 2 şəkil asır. Birinci şəkildə yanındakı oğlanın badalaq vurması nəticəsində yıxılan qız şəkli, o biri şəkildə isə yıxılan qıza kömək edən, onu qaldırmağa cəhd edən oğlan şəkli təsvir edilmişdir.

**Yardımçı sual.** Bu oğlanlardan hansı düzgün hərəkət edir?

**Tədqiqat sualı.** İnsanın tərbiyəli olması onun hərəkətlərindən hiss olunurmu?

**Tədqiqatın aparılması.** Müəllim sinfi 3 qrupa bölür. Hər qrupa suallar yazılmış iş vərəqləri paylayır.

*I iş vərəqi.* Uşaqlar tərbiyəli olmağı kimdən öyrənirlər?

*II iş vərəqi.* Tərbiyəsiz uşaqlara insanların münasibəti necə olur?

*III iş vərəqi.* Əgər sinifdəki uşaqlar bir-birlərilə pis davransalar, məktəbdə oxumaq maraqlı olardımı?

**Dərsliklə iş.** Çalışma № 10-dakı "*Düzgün tərbiyə*" mətni üzərində iş aparılır. Çalışma № 11, 12, 13, 14 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** "*Əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir*" atalar sözünün mənası şagirdlər tərəfindən təhlil edilir.

**Müzakirə.** Şagirdlər atalar sözü barədə dediklərini müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Tərbiyəli olmaq insan üçün çox vacib bir keyfiyyətdir. Tərbiyəsiz insanlarla eyni cəmiyyətdə yaşamaq hər kəsi narahat edər. Məktəb də təlim-tərbiyə ocağıdır. Məktəbdə hər kəs tərbiyəli davranmalı, başqaları ilə ünsiyyətdə qurmaqda diqqətli olmalıdır. Şagirdlərin rabitəli nitqi bu fikirlərə əsasən inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Tərbiyə, düzgün davranış haqqında atalar sözləri tapıb öyrənmək.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Düzgün tərbiyə*" mətnini danışmaq, çalışma № 15, 16, 17 yazmaq.

## Mövzu: §28. Cırtdanın nağılı. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.1 - | Müraciətlərə uyğun tapşırıqlara əməl edir. |
| 2.1.1 - | Söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Sözləri başa düşür, düzgün tələffüz edir, danışır və düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Səs assosiasiyası, əqli hücum | DVD, dərslik, iş vərəqləri | A.d.1.1.2 A.d.2.2.6 |

**Sinfin fəallaşdırılması.** Şagirdlər dairə qururlar. Müəllim şagirdlərdən birinə kibrit çöpü verir ki, o, çöpü gizlətsin. Başqa bir şagird çöpü axtarır. Şagird çöpü olan uşağa yaxınlaşanda digərləri "*istidir*", uzaqlaşdıqda isə "*soyuqdur*" qışqırırlar. Əgər çöp tapılarsa, şagird qalib sayılır.

**Motivasiya.** Müəllim şagirdlərə DVD-də "*Cırtdan*" cizgi filmini nümayiş etdirir.

**Yardımçı sual.** Cizgi filmində nə təsvir olunmuşdur?

**Tədqiqat sualı.** Uşaqlar necə azad oldular? Cavablar dinlənilir.

**Tədqiqatın aparılması.** Cütlərlə iş.

*I cüt.* Cırtdanın əlamətlərini sadalayın.

*II cüt.* Divin əlamətlərini sadalayın.

*III cüt.* Meşəni təsvir edin.

*IV cüt.* Divin evini təsvir edin.

*V cüt.* Daha hansı Azərbaycan cizgi filmlərini tanıyırsınız?

Cavablar dinlənilir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3, 4 yerinə yetirilir.

**Məlumat mübadiləsi. Müzakirə.** Həyatda hər bir insan çətinliyə düşə bilər. Çətinliyə qalib gəlmək üçün ağılla hərəkət etmək lazımdır. Ağıl gücdən üstündür.

**Nəticə və ümumiləşdirmə.** İnsan çalışmalıdır ki, yoldaşlarına kömək etsin. Onları darda qoyub qaçmasın. "*Dost dar gündə tanınar*", – deyib babalarımız. Şagirdlər bu fikirləri öz sözləri ilə ifadə edirlər. R.N.İ. üzərində iş aparılır.

**Yaradıcı tətbiqetmə.** Cırtdanın şəklini çəkin.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 5, 6 üzərində işləmək.

## Mövzu 28. Cırtdanın nağılı. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisələri üçüncü şəxsin dili ilə təsvir edir. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Gördüklərini təsvir edir və yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qrupla iş | Səs assosiasiyası, diskussiya | Dərslik | A.d.1.2.3 T.i.2.2.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə bütün cizgi filmləri personajlarının adlarını sadalayır. Şagirdlər həmin cizgi filminin adını söyləyirlər. Suallara ən çox cavab verən şagird qalib hesab edilir.

**Motivasiya.** Müəllim şagirdlərə Molla Nəsrəddin lətifələrindən birini danışır: "Molla Nəsrəddin bir nəfərlə söhbət edir. Həmin adam yalandan deyir: – Atamın bir tövləsi var idi və həmin tövlə o qədər böyük idi ki, 10 günə axırına çatmaq olmurdu. Molla onun cavabında deyir: – Mənim atamın da bir çubuğu var idi ki, həmin çubuqla o, buludları qovurdu. Bunu eşidən adam təəccüblənərək deyir: – Yalan danışma! Bəs atan o çubuğu harada saxlayırdı? Molla cavab verir: – Sənin atanın tövləsində."

**Yardımçı sual.** Eşitdiyimiz nə idi?

**Tədqiqat sualı.** Lətifədə nə tənqid edilir? Cavablar dinlənilir.

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.

Müəllim sinfə suallar verir:

– Lətifədəki adam yalan danışırdı, yoxsa olanı şişirdirdi?
– Yalan danışmaq nə üçün pis əlamət sayılır?
– Yalan danışmağın hansı fəsadları (acı nəticələri) var?
– Sizcə, heç yalan danışmaq olmaz?
– İnsana yaxşılıq gətirən yalan danışıla bilər?
– Xoşməramlı yalanın şahidi olan var?
– Kim nümunələr göstərə bilər?

**Dərsliklə iş.** Çalışma № 7 oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 8, 9, 10 üzərində iş aparılır. Çalışma № 11-də olan şeir oxunur. Dili nisbətən yaxşı bilənlər onu əzbərləyə bilərlər.

**Məlumat mübadiləsi.** "*Yalançının evi yandı, heç kim inanmadı*" məsəli sizə nə deyir?

**Müzakirə.** Şagirdlər məsəli müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** "*Yalan ayaq tutar, yeriməz*", – deyib babalarımız. İnsanlar çalışmalıdırlar ki, həmişə müsbət əməllər sahibi olsunlar. Şagirdlərin nitqi yeni sözlərlə zənginləşir.

**Yaradıcı tətbiqetmə.** "*Xoşməramlı yalan*" mövzusunda maraqlı nə bilirsiniz? Onu danışmağa hazırlaşın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çal.№ 12, 13 üzərində işləmək, şeiri əzbərləmək.

## Mövzu 29. Ana-bala məhəbbəti. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.3 - | Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) ibarət kiçikhəcmli mətnlər qurur və təqdim edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətnlər qurur, danışır və yazır. |

| Iş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Əqli hücum, diskussiya | Dərslik | A.d.1.2.6 A.d.3.1.2 |

**Sinfin fəallaşdırılması.** Müəlim şagirdlərə müxtəlif heyvanların adlarını söyləyir. Uşaqlar həmin canlının anasının adını deməlidir. Məsələn: dayça – at, quzu – qoyun, çəpiş – keçi, dana – inək, cücə – toyuq, küçük – it, xotuq – eşşək. Deyə bilməyən şagird oyunu tərk edəcək.

**Motivasiya.** Müəllim şagirdlərə bir tapmaca deyir:

O nədir ki, yemişdim.
Yeməsəydim ölmüşdüm.
İndi də ver, yemirəm.
Yemirəm də, ölmürəm.

**Yardımçı sual.** Tapmacanın cavabını tapın.

**Tədqiqat sualı.** Dünyada ən ali, müqəddəs hansı məhəbbətdir?
Cavablar dinlənilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.

*I qrup.* Ananın balaya olan məhəbbətini nədə görürsünüz?

*II qrup.* Balanın anaya olan məhəbbətini nədə görürsünüz?

*III qrup.* Mətnin axırıncı abzasını təlim dilinə tərcümə edin.

*IV qrup.* Lüğətdə verilmiş sözləri cümlədə işlədin.

Cavablar dinlənilir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 1, 2, 3, 4, 5, 6, 7 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Sevsin, yaşa dolsun, yaşasın deyə,*
*İnsana hər zaman ana gərəkdir*"
misraları ilə şair nə demək istəyir?

**Nəticə və ümumiləşdirmə.** Anamız bizi dünyaya gətirib, böyüdüb. Biz hər zaman ona borcluyuq. Şagirdlərin rabitəli nitqi bu fikirləri ifadə etmək, cümlə qurmaq hesabına inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Ana-bala məhəbbəti haqqında şeir, atalar sözü, bayatı tapın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 8-i yazmaq, çalışma № 9-u əzbərləmək.

## Mövzu 29. Ana-bala məhəbbəti. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Sözləri, cümlələri düzgün tələffüz edir. Gördükləri haqqında məlumat verir və yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qruplarla iş | Səs assosiasiyası, diskussiya | Şəkil, dərslik | A.d.1.1.8 A.d.2.2.6 |

**Sinfin fəallaşdırılması.** Uşaqlar dairə şəklində düzülürlər. Müəllim tapşırır ki, onların hər biri tez-tez öz qohumlarının adlarını çəksin. Ləngiyən şagird oyunu tərk edir. *Məsələn:* bibim Əminə, xalam Aygün, əmim Kamil, dayım Rüstəm, nənəm Firəngiz, babam Aydın.

**Motivasiya.** Müəllim lövhədə bir ev şəkli asır. Şagirdlər bir-birinə yaxınlaşaraq evin pəncərələrində ailə üzvlərinin adlarını yazır və ya şəklini çəkirlər.

**Yardımçı sual.** Gördüyünüz mənzildə kimlər yaşaya bilər?

**Tədqiqat sualı.** Ailə üzvlərinin məhəbbətini necə qazanmaq olar?

Cavablar dinlənilir.

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.

Müəllim şagirdlərə suallar verir:

– Siz özünüzü necə aparmalısınız ki, sizə "*mənim balam*" desinlər?

– Kimlər adama belə müraciət edirlər?

– "*Ay bala, sakit ol*" kəlməsi də mehribançılığı bildirir?

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər tərcümə edilir. Çalışma № 11, 12, 13, 14 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** Hər kəsin məhəbbətini qazanmaq o qədər də asan iş deyil. Məhəbbəti itirmək isə daha da qorxuludur. Şagirdlər bu fikirləri müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** "*Bala*" kəlməsi ana məhəbbətindən doğmuşdur. Bu məhəbbət heç vaxt zəifləmir, əksinə, illər keçdikcə daha da qüvvətlənir. Şagirdlərin rabitəli nitqi bu fikirləri ifadə etməklə inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Sən gününün çox vaxtını evdə kiminlə keçirirsən? Bu mövzuda esse yaz.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni oxumaq, çalışma № 15, 16 üzərində iş aparmaq.

## Mövzu 30. Şir və tülkü. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir . |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Gördüklərini təsvir edir, oxuduğu mətnin məzmununu danışır, yazı qaydalarına uyğun yazmağı bacarır, yalan danışmağın pis əlamət olduğunu dərk edir. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qruplarla iş | Söz assosiasiyası, diskussiya | Dərslik | A.d.1.2.5 H.b. 3.1.1<br>A.d.1.2.3 T.İ. 2.2.5 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdləri dövrəyə düzür. Yanında duran şagirdə heyvanlardan birinin adını çəkir. Şagirdə həmin heyvanın əlamətlərini deməsini tapşırır. *Məsələn:* pələng – böyükdür, tülkü – hiyləgərdir və s. Əlamət deyə bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim sinfə belə bir sualla muraciət edir:

Yaxşılıq etmiş insana pislik etməklə cavab vermək olarmı?

Söz assosiasiyası vasitəsilə sinifdə bu sual ətrafında fikirlər söylənilir.

**Yardımçı sual.** Sinfə belə suallar verilir:

– Yaxşılıq dedikdə nəyi başa düşürsünüz?
– Yaxşılıq etmək məcburidirmi?
– Yaxşılıq etdiyin adama bunu tez-tez xatırlatmaq olarmı?
– Yaxşılığa pisliklə cavab verən adama münasibətiniz necə olar?

Şagirdlər müxtəlif cavablar verirlər.

**Dərsliklə iş.** Mövzu 30-dakı "*Şir və tülkü*" mətni oxunur, mətn üzərində iş aparılır. Çətin sözlər izah edilir. Çalışma № 1, 2, 3, 4 şifahi şəkildə yerinə yetirilir. Çalışma № 2-dəki atalar sözlərinin mənası izah edilir. Çalışma № 5 yazılı şəkildə yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Çalışma № 8-dəki dialoq şagirdlər tərəfindən rollarla oxunur, yalançı oğlanın hərəkətini şagirdlər müzakirə edirlər.

**Müzakirə.** Başqalarını aldatmağın pis hərəkət olduğu müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Yalan danışmaq, hiylə yolu ilə başqalarına özünü yaxşı göstərib, arxada pis hərəkət etmək yanlış hərəkətdir. Yaxşılığa qarşı ədalətsiz olub pisliklə cavab vermək tərbiyəsizlikdir. Hər kəs həyatda yaxşılıq etməyi bacarmalıdır. Pislik etmək böyük bir günahdır. Bu fikirləri ifadə etməklə şagirdlərin şifahi nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Yaxşılıq haqqında bir neçə atalar sözü tapıb öyrənmək.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Şir və tülkü*" mətni öyrənilir, çalışma № 6, 7 yerinə yetirilir.

## Mövzu 30. Şir və tülkü. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.2 - | Oxuduğu kiçikhəcmli mətnin məzmunu barədə məlumat verir . |
| 4.1.2 - | Yazı prosesində durğu işarələrinə (nöqtə, sual işarəsi, nida) aid qaydalara əməl edir. |
| Məqsəd | Mətnin məzmununu mənimsəyir, çətin söz və ifadələrin məzmunu öyrənilir, sinif yoldaşları ilə münasibət müzakirə edilir, yaxşılıq etmək kimi insani keyfiyyət alqışlanır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qruplarla iş | Söz assosiasiyası, müzakirə | Dərslik | A.d.1.1.2 T.İ. 2.2.5 A.d.1.2.3 |

**Sinfin fəallaşdırılması.** Müəllim istənilən bir rəqəmi deyir. Şagird sonrakı rəqəmi deməlidir. Rəqəmlər ardıcıl olmalıdır. *Məsələn:* müəllim – beş , şagird – altı ; müəllim –on, şagird – on bir və s. Rəqəmi tez tapa bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim şagirdlərə bir əhvalat danışır:

– Bir gün rəsm dərsində müəllim şagirdlərə ağac şəkli çəkməyi tapşırır. Təranənin rəngli qələmləri evdə qalmışdı. O, parta yoldaşı Rasimdən yaşıl qələm istəyəndə Rasim öz qələmini ona vermədi. Ona görə də Təranənin çəkdiyi ağacların yarpaqları qara rəngdə idi. Müəllim Təranənin şəklini bəyənmədi. Təranə çox məyus oldu.

**Yardımçı sual.** Sizcə, Təranə niyə məyus oldu?

**Tədqiqat sualı.** Parta yoldaşınız sizdən bir əşya istəsə, verərsinizmi?

**Tədqiqatın aparılması.** Söz assosiasiyası üsulu ilə müəllim sinifdə işgüzar səs-küy yaradır. Bütün sinfə suallarla müraciət edir:

– Sinif yoldaşları bir-birlərinə kömək etməlidirlərmi?
– Parta yoldaşınızla oturmaq sizə xoş gəlirmi?
– Necə bir uşaqla bir parta arxasında oturmaq yaxşı olardı?
– Sinif yoldaşına istədiyi şeyi verməmək yaxşı hərəkətdirmi?

Şagirdlər öz fikirlərini söyləyirlər. Hər kəs öz mülahizəsini deyir. Müəllim şagirdlərin fikrini düzgün istiqamətləndirir.

**Dərsliklə iş.** Sinifdə çalışma № 9-dakı mətn oxunur, təhlil edilir. Çalışma № 10, 11 şifahi, çalışma № 12 yazılı yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Çalışma № 13-dəki "*Atalar sözü*" oxunur, təhlil edilir.

**Müzakirə.** Atalar sözünün mənası müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Yaxşılıq etmək hər birimizin əsas vəzifəsi olmalıdır. Yaxşılıq etməyi özünüzə vacib bilin. Sinif yoldaşlarınızla yaxşı davranın, onların qəlbinə toxunmayın. Sinif yoldaşları bir ailə kimi mehriban olmalıdırlar. Şagirdlər "***q***" və "***g***" səsləri ilə yazılan sözləri təkrar edirlər.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "*Yaxşılıq edəndə*" mövzusunda şəkil çəkmək tapşırılır.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Çalışma № 9-u danışmaq, çalışma № 14, 15 -i yazmaq tapşırılır.

## Mövzu 31. Qızılgülün nağılı. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.3 - | Dinlədiyi mətni hissələrə ayırır. |
| 2.2.2 - | Müşahidə etdiyi əşya və hadisələri III şəxsin dili ilə təsvir edir. |
| 3.1.3 - | Oxuduğu məlumat xarakterli kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsi ilə ana dilinə və əksinə tərcümə edir. |
| 4.1.3 - | Kiçikhəcmli mətnlər (açıqca, məktub) yazır. |
| Məqsəd | Mətnin məzmununu anlayır, məzmunu çatdırmağı bacarır, gözəlliyi qorumağın əhəmiyyətini dərk edir, əlamət bildirən sözləri fərqləndirir. |

| İş forması | Usullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Cütlərlə iş | Əqli hücum, müzakirə | Dərslik, kartoçkalar | A.d.1.2.1 A.d. 3.1.1<br>A.d.1.2.3 T.İ. 2.2.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdləri dövrəyə düzür. Yanında duran şagirdə bir gül adı deyir. Şagird başqa bir gül adını yanında duran şagirdə deməlidir. Beləliklə, şagirdlər sözləri bir-birinə ötürürlər. Sözü tapa bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən dekorativ və çöl güllərinin şəklini asır.

**Yardımçı sual.** Bu şəkillərdəki güllər arasında fərq nədir?

**Tədqiqat sualı.** Hansı güllər daha ətirlidir? Onların adlarını çəkə bilərsinizmi?

**Tədqiqatın aparılması.** Müəllim sinifdə parta arxasında oturmuş cütlüklərə kartoçkalar paylayır. Kartoçkalarda çiçək təsvirləri verilib. Hər bir cütlük şəkildəki çiçəkləri təsvir etməlidir. Bu zaman əlamət bildirən sözlərə üstünlük verilməlidir.
Cütlər işləyirlər. Cavablar dinlənilir. Müəllim şagirdlərin nitqinə düzəlişlər edir.

**Dərsliklə iş.** “*Qızılgülün nağılı*” mətni üzərində iş aparılır, sinifdə çalışma № 1, 2, 4, 5 yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Qızılgül haqqında nağıl dinlənildikdən sonra şagirdlər rollar üzrə çalışma №3-dəki dialoqu oxuyurlar. Çətin sözlərin mənası izah edilir.

**Müzakirə.** Dialoqdakı fikirlər müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Həyatda gözəl nə varsa, onun qədrini bilmək lazımdır. Gözəlliyi qorumaq, onu daha da zənginləşdirmək gərəkdir. Hər kəs həyatın bir parçasının belə qədrini bilməli, həyatı gözəlləşdirməlidir. Bu fikirləri ifadə etməklə şagirdlərin şifahi nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** Siz gözəlliyi harada təsəvvür edirsiniz? Bunu çəkməyə çalışın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mövzu 31-i danışmaq, çalışma № 6, 7-ni yerinə yetirmək.

## Mövzu 31. Qızılgülün nağılı. 2-ci saat

| Məzmun standartları | |
|---|---|
| 1.1.2 - | Dinlədiyi sözləri cümlələrdən fərqləndirir. |
| 2.1.2 - | Sadə cümlələri (əmr, nida) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Mətnin məzmununu mənimsəyir, çətin söz və ifadələr öyrənilir, sənət, peşə növlərinin faydası haqqında müzakirələr aparılır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qruplarla iş | Beyin həmləsi, müzakirə | Dərslik | A.d.1.2.8 A.d.2.2.1 A.d.3.1.2 |

**Sinfin fəallaşdırılması.** Müəllim “*Cümləni davam etdir*” oyununu keçirir. Şagirdlərə hərəkət bildirən sözləri xatırladır. *Məsələn*, gülü - dərirlər, suyu - içirlər, çörəyi - . . . və s. Sözü tapa bilməyən şagird oyundan çıxır.

**Motivasiya.** Müəllim sinfə belə bir sualla müraciət edir: İnsana başucalığı gətirən nədir?

**Yardımçı sual.** İnsan nə etsə, ona hörmət edərlər?

**Tədqiqat sualı.** Hansı peşə insana daha çox şərəf gətirir?

**Tədqiqatın aparılması.** Sinif şagirdləri verilmiş suallar ətrafında düşünürlər. Hər kəs öz fikrini söyləyir. Müxtəlif sənət, peşə adları sadalanır. Müəllim bu peşə adamlarının məşğul olduğu sahəni təsvir etməyi təklif edir. Şagirdlər öz mülahizələrini söyləyirlər. Şagirdlərə kömək məqsədilə müəllim lövhədə yazır: *Bu peşə sahibləri nə edirlər?*

– Müəllim . . .
– Həkim . . .
– Bənna . . .
– Bağban . . .

Şagirdlər fikirləri davam etdirirlər. Fəal iştirak edən şagird rəğbətləndirilir.

**Dərsliklə iş.** "*Elçinin ağacı*" mətni oxunur, çalışma № 9, 14 şifahi, çalışma № 10 yazılı yerinə yetirilir.

**Məlumat mübadiləsi.** Çalışma № 11-dəki şeir oxunur, təhlil edilir.

**Müzakirə.** Şeirdəki fikir, altından xətt çəkilmiş misranın mənası müzakirə edilir.

**Nəticə və ümumiləşdirmə.** Faydalı əməklə məşğul olmaq, başqalarına xeyir vermək çox şərəflidir. Ən sadə sənət belə lazımlıdır. Adicə bir ağac əkib, başqaları üçün kölgəlik yaratmaq da insana başucalığı gətirər. Bu mövzuda şagirdlərin rabitəli nitqi inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** "*Böyüyəndə nəçi olmaq istəyirəm*" mövzusunda kiçik bir mətn qurub yazmaq.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** "*Elçinin ağacı*" mətnini öyrənmək, çalışma № 12, 13 -ü yazmaq.

## Mövzu 32. Bülbülün nağılı. 1-ci saat

| Məzmun standartları | |
|---|---|
| 2.2.1 - | Əşya və hadisələrin əlamətlərini (kəmiyyət, keyfiyyət, forma) təsvir edir. |
| 3.1.1 - | Kiçikhəcmli mətnləri sinif səviyyəsinə uyğun olaraq düzgün oxuyur. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Gördüklərini təsvir edir. Oxuduqlarını tərcümə edir və yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplarla iş | Beyin həmləsi, diskussiya | Şəkillər, dərslik, iş vərəqləri | A.d.1.2.3 T.i. 2.2.5<br>A.d.3.1.1 |

**Sinfin fəallaşdırılması.** Müəllim bir-bir quşların adlarını çəkir. Əgər adı çəkilən quş qəfəsdə yaşaya bilirsə, şagirdlər "*istidir, istidir*", əgər yaşaya bilmirsə, "*soyuqdur, soyuqdur*" qışqırırlar. *Məsələn:* Sərçə, bülbül, qaranquş, sarıköynək, sığırçın, qarğa, torağay, tutuquşu, kəklik, bildirçin və s.

**Motivasiya.** Müəllim lövhədən 2 şəkil asır. Birinci şəkildə gözəl bir bağ təsvir edilib. Quşlar budaqlarda oturub oxuyurlar. İkinci şəkildə mağaza təsvir edilib. Burada çoxlu qəfəs var. Qəfəslərdə quşlar büzüşüb oturublar.

**Yardımçı sual.** Uşaqlar, şəkillərdə gördüklərinizi təsvir edin.

**Tədqiqat sualı.** Nə üçün bağdakı quşlar oxuyur, qəfəsdəkilər isə yox? Cavablar dinlənilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş.
*I qrup.* Azadlıq nədir?
*II qrup.* Canlılar arasında azadlığı nədə görürsünüz?
*III qrup.* Biz necə xalqıq?
*IV qrup.* Azadlığı necə qorumaq lazımdır?
Cavablar dinlənilir. Şagirdlərin nitqlərindəki səhvlər müəllim tərəfindən düzəldilir.

**Dərsliklə iş.** Mətn oxunur. Çətin sözlər izah və tərcümə edilir. Çalışma № 1, 2, 3, 4, 5 üzərində iş aparılır.

**Məlumat mübadiləsi.** "*Hər kəsə öz vətəni əzizdir*" atalar sözünü necə başa düşürsünüz?

**Müzakirə.** Bu barədə şagirdlər fikir mübadiləsi aparır, dediklərini müzakirə edirlər.

**Nəticə və ümumiləşdirmə.** Vətən hamı üçündür. Nəinki insanlar, hətta heyvanlar da öz yurdlarını, məskənlərini sevirlər. Bu fikirləri şagird Azərbaycan dilində düzgün ifadə etməyi bacarır.

**Yaradıcı tətbiqetmə.** Vətən haqqında atalar sözləri toplayın. Onlardan bir neçəsini öyrənin.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 6, 7 üzərində işləmək.

Sadə cümlələrdən (nəqli, sual, əmr, nida) ibarət kiçikhəcmli mətnlər qurur və

## Mövzu 32. Bülbülün nağılı. 2-ci saat

| **Məzmun standartları** | |
|---|---|
| 2.1.1 - | Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. |
| 2.2.3 - | Sadə cümlələrdən ibarət kiçikhəcmli mətnlər qurur və təqdim edir. təqdim edir. |
| 4.1.1 - | Eşitdiyi sözləri və sadə cümlələri düzgün yazır. |
| Məqsəd | Eşitdiklərini başa düşərək tələffüz edir, danışır, düzgün yazır. |

| İş forması | Üsullar | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| Böyük qruplarla iş | Əqli hücum, diskussiya | Şəkil, dərslik | A.d.1.2.1 A.d.3.1.1 A.d. 1.2.6 |

**Sinfin fəallaşdırılması.** Müəllim şagirdlərə təlim dilində çiçək adlarını söyləyir. Şagirdlər həmin adları azərbaycanca deyirlər. Cavab verə bilməyən şagird oyunu tərk edir.

**Motivasiya.** Müəllim lövhədən Şəhidlər xiyabanı təsvir olunmuş bir tablo asır.

**Yardımçı sual.** Siz şəkildə nə görürsünüz?

**Tədqiqat sualı.** Xiyabanı ziyarət edənlər şəhidləri necə yad edirlər?
Cavablar dinlənilir.

**Tədqiqatın aparılması.** Böyük qrupla iş.
Müəllim şagirdlərə suallar verir:
– Hansı gülü çox sevirsiniz?
– Güllərin mənaları olduğunu bilirsinizmi?
– Nə üçün əzizlərimizə həm şad günlərində, həm də qəmli günlərində çiçək təqdim edirik?
– Çiçəklərə aid hansı şeirləri bilirsiniz?

**Dərsliklə iş.** Mətn oxunur (çalışma № 8). Çətin sözlər tərcümə edilir. Çalışma № 9, 10, 11 üzərində iş aparılır.

**Məlumat mübadiləsi. Müzakirə.** "*Ağla, qərənfil, ağla*" şeiri nə zaman və hansı səbəbdən yaranıb?

**Nəticə və ümumiləşdirmə.** Şəhidlərimizin xatirəsi bizim üçün həmişə əzizdir. Onları bayramlarda çiçəklərlə yad etmək bizim borcumuzdur. Şagirdlərin şifahi nitqi bu fikirləri ifadə etməklə inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə.** "*Hansı çiçək hansı mənanı ifadə edir?*" mövzusunda məlumat toplayın.

**Qiymətləndirmə.** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı.** Mətni danışmaq, çalışma № 12, 13 üzərində işləmək.

# I Bölmə

## Əlamətdar günlər

### Beynəlxalq Müəllimlər Günü ( 5 Oktyabr )

Müəllim bizim üçün doğma bir insandır. O bizə bilik öyrədir, savad verir. Müəllim məktəbdə uşaqların qayğısına qalır.Hər il respublikamızda **Müəllimlər günü** qeyd edilir. Həmin gün biz sevimli müəllimlərimizə xoş sözlər deyir, onları əla qiymətlərlə sevindiririk. (35 söz)

### Dövlət Müstəqilliyi Günü ( 18 Oktyabr )

Azərbaycan müstəqil respublikadır. Müstəqil olmaq heç kəsdən asılı olmamaq deməkdir. Azərbaycan xalqı öz müstəqilliyini qoruyur və onu inkişaf etdirir. Bu müstəqilliyi resrublikamız 1991-ci ilin 18 oktyabr tarixində qazanmışdır. Müstəqil resrublikamız başqa ölkələrlə dostluq və əməkdaşlıq edir. (*34 söz*)

### Konstitusiya Günü ( 12 Noyabr )

**Konstitusiya** – qanunlar kitabıdır. Burada dövlətimizin əsas qanunları toplanıb. Müstəqil respublikamızın ilk Konstitusiyası 1995-ci ilin 12 noyabr tarixində qəbul edilib. Xalqımız bu qanunlara əməl edir. Konstitusiyamıza əsasən Azərbaycan dili dövlət dili elan edilib. İnsanların hüquqları bu qanunlara əsasən qorunur. (42 söz)

### Milli Dirçəliş Günü ( 17 Noyabr )

Biz hər ilin noyabr ayında **Milli Dirçəliş günü**nü qeyd edirik. 1998-ci ildə azadlıq tələb edən xalqımız şəhərimizin ən böyük meydanına toplaşdı. Onların içərisində uşaqlar da var idi. Adamlar çox böyük fəxrlə əllərində üçrəngli bayraq tutmuşdular. Hamı azadlıq, müstəqillik tələb edirdi. O gündən onların toplaşdığı meydan "**Azadlıq meydanı**" adlanır. (*40 söz*)

### Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ( 31 Dekabr )

Dünyanın bir çox ölkələrində azərbaycanlılar yaşayırlar. Bütün dünya azərbaycanlıları bir-birləri ilə əlaqə saxlayırlar. Dünya azərbaycanlılarının tarixi qurultayı ilk dəfə 2001-ci ilin noyabr ayında keçirilib. Ümummilli liderimiz Heydər Əliyevin təklifi ilə hər il 31 dekabr **Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü** kimi qeyd edilir. (*38 söz*)

### Yeni il bayramı ( 1-2 yanvar )

Biz **Yeni il bayramı**nı qarşılamağı çox sevirik. Yeni ildə Şaxta baba və Qar qız uşaqların qonağı olur, onları sevindirirlər. Hər yerdə yeni il şənlikləri keçirilir. Ən çox sevinən isə uşaqlar olurlar. Hamı uşaqlara müxtəlif hədiyyələr verir. Məktəblilər isə qış tətilini şən keçirməyə hazırlaşırlar. (*36 söz*)

### Şəhidlər unudulmur ( 20 Yanvar )

1990-cı ilin yanvar ayında Azərbaycan xalqı böyük qəhrəmanlıq göstərdi. Güclü qoşundan qorxmayaraq küçələrə çıxdı, azadlıq tələb etdi. Yaşlı insanların içərisində uşaqlar da var idi. Onlar da günahsız yerə şəhid oldular. İndi bu insanlar şəhərimizin ən görkəmli yerində – Şəhidlər Xiyabanındadırlar. Hər il biz Şəhidlər Xiyabanını ziyarət edirik. Çünki şəhidləri heç vaxt unutmuruq. (*40 söz*)

## Ana Dili Günü ( 21 fevral )

Azərbaycan dili bizim dövlət dilimizdir. Ancaq respublikamızda müxtəlif millətlər yaşayırlar. Hər bir xalqın harada yaşamasından asılı olmayaraq, öz ana dili olur. Həmin xalq bu dildə danışır, ona hörmətlə yanaşır. Hər il 21 fevral tarixində biz **Ana dili** gününü qeyd edirik. (*36 söz*)

## Beynəlxalq Qadınlar Günü ( 8 Mart )

Qadınlar dünyada ən mehriban və qayğıkeş insanlardır. Hər il mart ayında onların bayramı keçirilir. Bu gündə nənələri, anaları, bacıları təbrik edirik. Qadınlara çiçək dəstələri bağışlayırlar, hədiyyələr verirlər. Çox vaxt bu gün **Anaların bayramı** da adlandırılır. (*35 söz*)

## Novruz bayramı ( 20 - 24 mart )

**Novruz** – yeni gün deməkdir. Novruzun gəlişini bütün xalqımız sevinclə qeyd edir. Dörd həftə ərzində insanlar Novruzun gəlişinə hazırlaşırlar. Evlərini yığışdırırlar, şirniyyatlar hazırlayırlar, səməni qoyurlar. Novruzda hamı bir-birinə qonaq gedir, bayramlaşır. Uşaqlar Novruz bayramını daha çox sevirlər. (*35 söz*)

## Azərbaycanlıların Soyqırımı Günü ( 31 Mart )

Soyqırım sözünün mənası hər hansı millətin yer üzündən silinməsi deməkdir. Bizim düşmənlərimiz olan ermənilər 1918-ci ildə Azərbaycan xalqını kütləvi şəkildə qırmaq istəmişlər. Şamaxıda, Qubada, Bakıda qırğınlar törədib, xalqı bütünlüklə məhv etmək istəmişlər. Bu, 31 mart tarixində baş vermişdir. (*40 söz*)

## Qurban bayramı ( Tarixi müxtəlif ola bilər )

**Qurban bayramı** mehribanlıq, insanpərvərlik bayramıdır. Bu gündə imkanı olan insanlar qurban kəsir, qohumlara, qonşulara paylayırlar. Hər kəsin evində dadlı yeməklər bişir. Heç kəs ac qalmır. Hamı bir-birinə yardım edir. Qurban bayramı həm də bərabərlik bayramıdır. (*34 söz*)

## Ramazan bayramı ( Tarixi müxtəlif ola bilər )

**Ramazan bayramı** saflıq, təmizlik bayramıdır. İnsanlar bu bayramın keçirilməsinə bir ay hazırlaşırlar. Oruc tuturlar, xeyirxah dualar edirlər. Hamının yaxşı yaşamasını arzulayırlar. Bayramın keçirilməsini şənliklə qeyd edirlər. Bir-birlərinin evinə qonaq gedir, oruc tutanlara pay alır, bayramlaşırlar. (*34 söz*)

## Respublika Günü ( 28 May )

**28 May** müstəqil respublikamızın yaranması günüdür. Bu günü xalqımız təntənə ilə qeyd edir. Azərbaycan Respublikası müstəqil dövlət kimi ilk dəfə 1918-ci ildə tanınmışdır. Azərbaycan öz himni, gerbi, üçrəngli bayrağı ilə dövlətlər içərisində özünə layiqli yer tutmuşdur. (*36 söz*)

# II bölmə

## Sinifdənxaric oxu

### Oyan, oğlum!

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur, get məktəbə,
Sarıl elmə, ədəbə.

***

Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.
Al şəfəqli günəş var,
Pəncərədən parıldar.

***

Qalx ki hamı oyanmış,
Dünya nura boyanmış,
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.

*Abdulla Şaiq*

### Vətən nəğməsi

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək.

***

Bizim ölkənin
Şanlı əsgəri.
Dağlardan mətin
Polad səfləri.

***

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək!

*Abdulla Şaiq*

### Kəpənək

Mənəm qanadlı çiçək,
Adım isə kəpənək.
Al-əlvan xallarım var,
Qızıl kimi parıldar.
Qanadımı açaram.
Budaq-budaq uçaram.
Yuvam, otağım ancaq
Olur yaşıl bir yarpaq.
Ey mehriban uşaqlar,
Siz yaşayın bəxtiyar.
Mənim də bu dünyada
Bir başqa aləmim var.

*Abdulla Şaiq*

### Qışın nəğməsi

Saqqalı ağ, saçı ağ,
Əlində zorba çomaq
Gəldi qocalmış baba,
Şaxta baba, qış baba.
Gurladı boğuq səsi,
Uğuldadı nəğməsi:
“Ay uşaqlar, mən qışam,
Burda mənzil salmışam.
Mən gələndə yağar qar,
Onu sevər uşaqlar.”

*Abdulla Şaiq*

## Təmizlik

Səhər durunca,
Əlimdə fırça
Sildim dişimi,
Bildim işimi.
***
İnanmırsan bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz,
Bax beləyik biz.

*Abdulla Şaiq*

## Bülbül

Oxu, bülbülüm, oxu,
Yazdır, səhər çağıdır.
Oxu, sənin xoş səsin
Şənliklər qaynağıdır.
***
Oxu, oxu, xoş nəğmən
Nəşə versin ellərə.
Şən səsin, xoş nəfəsin
Yayılsın bu çöllərə.

*Abdulla Şaiq*

## Zəfər nəğməsi

Sevin, sevin, ana Vətən!
Təslim oldu zalım düşmən,
Zəfər ilə döndü ordu,
Artıq oldun şəndən də şən.
***
Sən bu xalqın sevincisən,
Gözəllikdə birincisən,
Təbiətin saf qoynunda,
Ən dəyərli bir incisən.
***
Sevin, sevin, ana Vətən!
Artıq oldun şəndən də şən!

*Abdulla Şaiq*

## Vətən

Sən, ey gözəl Vətənim,
Yurdum, yuvamsan mənim.
Səndə xoş ömür sürür
Sevilənim, sevənim.
***
Səni duymaz hər yetən,
Eşqin çıxmaz könüldən.
Böyük anam sənsən, sən!
Varlığımsan sən mənim!
***
Sənindir çarpan ürək,
Səndən doğar hər dilək,
Nə gözəlsən, nə göyçək,
Sən, ey ana Vətənim.

*Abdulla Şaiq*

## Bahar nəğməsi

Günəş doğdu, yayıldı,
Yatan ellər ayıldı.
Açdı çiçəklər, güllər,
Dilə gəldi bülbüllər.
Qar, çovğun gözdən itdi.
Dağlarda lalə bitdi.
Artdı suların səsi,
Sevindirdi hər kəsi.

*Səməd Vurğun*

## Sərçə

Sizə deyim sərçədən,
Yuvasındadır yaz, qış.
Ayrılmayır vətəndən,
Ya qar olsun, ya yağış.

*Rəsul Rza*

## Yay

Yaydır... Günəş parlayır,
Hava saf, hər yan açıq.
Yaşıl bağlar çağırıb
Bizə deyir: – Seyrə çıx!

***

Günəş qızır, çimirik
Hər gün dənizdə, çayda,
Bizə mahnı söyləyir
Axan bulaq da, çay da.

*M. Seyidzadə*

## Şəhidlər xiyabanı

Sinə gərib dünyanın
Payızına, qışına,
Həmişə qərq olubdur
Gül-çiçək yağışına
Şəhidlər xiyabanı.

***

Məzarlar doğma-yaxın,
Məzarlar yan-yanadır.
Övladlarına ağı
Deyən müdrik anadır
Şəhidlər xiyabanı.

*Əbülfəz Naxçıvanlı*

## Ordum varsa, yurdum var!

Mənə ordu gərəkdir,
Xəstəyə dərman kimi,
Nəfəs kimi, can kimi,
Mənə ordu gərəkdir,
Sarsılmaz cahan kimi,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox.

*Zəlimxan Yaqub*

## Qaranquş

Haçaquyruq qaranquş
Eyvanda yuva qurmuş,
Sinəsi bütün ağdır,
Yayda bizə qonaqdır.
Qışda çıxır səfərə;
Uzaq, isti ellərə.
Çör-çöpdən yuva qurur,
Üstünə suvaq vurur.

*Rəsul Rza*

## Payız

Payız gəlib, küləklər
Gəzir yenə bağları.
Hər tərəfə sovurur
Saralmış yarpaqları.
Axıb gedir buludlar
Yenə də karvan-karvan,
Dərələri, dağları,
Bürüyür çiskin, duman.

*M. Seyidzadə*

## Səməni

Ay səməni, saxla məni,
İldə cücərdərəm səni.
Ayaq basdın ölkəmizə,
Bol-bol şənlik gətir bizə.
Çatır-çatır yansın ocaq,
Şadlıq etsin oğul-uşaq.
Sünbül saçlı tarla, əkin,
Parıldasın qızıl təkin.
Bağlar bəzək vursun yenə,
Qızlar məclis qursun yenə.

*Abdulla Şaiq*

## Müəllim

Ey hörmətli müəllim,
Hər könüldə yerin var.
Hər kənddə, hər şəhərdə
Sənin meyvələrin var.

***

Əkdiyin ağacların
Gülü, çiçəyi solmaz.
Dünyada sənin kimi
Barlı bağban tapılmaz.

*Bəxtiyar Vahabzadə*

## Vətənin keşiyində

Laylasında anam mənə
Belə demiş dönə-dönə:
"Bir anan mən, biri Vətən,
Yadda saxla bunları sən.
Canın kimi sev Vətəni,
O bəsləmiş, oğul, səni!
Bayrağını möhkəm saxla.
Sərhədini tez-tez yoxla.
Atan igid qəhrəmandır,
Qorxu bilməz bir insandır,
Qəhrəman ol, oğul, sən də,
Qoru bizi böyüyəndə."
– Gözəl Vətən, gözəl Vətən,
Keşiyində durmuşam mən!

*Mirvarid Dilbazi*

## Üçrəngli bayraq

Bu üçrəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışından
Doğan göy qurşağıdır.

***

Üstündəki ay, ulduz,
Gəlir mənim xoşuma.
Ay üzüyə bənzəyir,
Ulduz onun qaşına.

***

Üçrəngli bayraq bizə
Təsəllidir, dayaqdır.
Yolumuzun üstünə
İşıq saçan mayakdır.

*Rafiq Yusifoğlu*

## Ana

Əziz ana, can ana,
Gözəl mehriban ana.
Böyütdükcə bizi sən,
Dən düşür saçlarına.
Qəhrəmanlar anası,
Sevimli, əziz qadın,
Bizim ana vətənlə
Qoşa çəkilir adın.

*İslam Səfərli*

## Atalar sözü və məsəllər

Ağıl ağıldan üstündür.
Qələm qılıncdan itidir.
Üz ürəyin güzgüsüdür.
Yıxılanı vurmazlar.
Cücəni payızda sayarlar.
Nə əkərsən, onu biçərsən.
Dost dar gündə tanınar.
İşləməyən dişləməz.
Yorğanına bax, ayağını uzat.
Yüz ölç, bir biç.
Doğru sözü danış, acı olsa da.
Yanan yerdən tüstü çıxar.
Köhnə dost düşmən olmaz.
Ehtiyat igidin yaraşığıdır.
Aslanın erkəyi, dişisi olmaz.
Uşağa buyur - dalınca yüyür.
Gün düşməsə, qar əriməz.
Yol – böyüyündür, su – kiçiyin.

## Bayatılar

Əzizim, kətan yaxşı,
Geyməyə kətan yaxşı.
Qürbət yer cənnət olsa,
Yenə də vətən yaxşı.

Dağ başına qondu sar,
Əkdim ağac, verdi bar.
Sirrini dosta demə
Dostunun da dostu var.

Əziziyəm, dost aşı,
Dost xörəyi, dost aşı.
Düşmənin gülləsindən
Yaman olar dost daşı.

## Tapmacalar

Adam deyil – hey qaçır,
Meşə deyil – səs salır.
(*çay*)

Qanadı yoxdur – uçar,
Ayağı yoxdur – qaçar.
(*bulud*)

Yupyumru fincan,
İçi dolu mərcan.
(*nar*)

Bir bardaqda iki rəng su.
(*yumurta*)

Aləmi bəzər,
Özü lüt gəzər.
(*iynə*)

Atdan hündür,
İtdən alçaq.
(*yəhər*)

## Frazeoloji birləşmələr

ağzına su alıb oturmaq
ad çəkmək
ağlına batmaq
ağızdan-ağıza gəzmək
ağız açmaq
ağzı açıla qalmaq
başa vurmaq
baş çəkmək
burnunun ucu göynəmək
can qoymaq
dilə gəlmək
dil tökmək
dilotu yemək
əldən düşmək
ələ almaq
ələ salmaq
əl tutmaq
gözü düşmək
göz qoymaq
haldan düşmək
xoşu gəlmək
işə düşmək
iştahası kəsilmək
qulaq asmaq
mat qoymaq
nəfəsi kəsilmək
özündən çıxmaq
üz döndərmək
üz vermək
yola getmək
yazığı gəlmək
zəhləsi getmək

# III bölmə

## Gündəlik nitqimizdə işlədilən ifadələr

### Tanışlıq zamanı

– Gəl(in) tanış olaq.
– Tanış olaq.
– Tanış olmağımıza çox şadam!
– Biz artıq tanışıq.
– Biz rastlaşmışıq.
– Mən sizi haradasa görmüşəm.
– Sizin haqqınızda mənə danışıblar.
– İcazə verin, özümü təqdim edim!
– Buyurun, tanış olun, bu, mənim böyük qardaşımdır.
– Çox şadam!
– Çox gözəl! Çox xoşdur!

### Dil bilmə

– Xarici dillərdən hansını bilirsiniz?
– Mən azərbaycanca danışmağı (oxumağı, yazmağı) öyrənmək istəyirəm.
– Siz məni başa düşürsünüz?
– Mən sizi yaxşı başa düşürəm, lakin danışmaqda çətinlik çəkirəm.
– Zəhmət olmasa, bir də təkrar edin.
– Xahiş edirəm, başa salın, burada nə yazılıb?
– Bu sözün mənası nədir?
– Bu sözü necə düzgün tələffüz etmək olar?
– Xahiş edirəm, tərcümə edin.
– Xahiş edirəm, bu barədə ətraflı danışın.
– Mən bu dili öyrənirəm və bir az oxuya bilirəm, amma sərbəst danışmağı çox istəyirəm.
– Sizə müvəffəqiyyətlər arzu edirəm.

## Müraciət formaları

– Əziz dostlar!
– Zəhmət olmasa, ...
– Bağışlayın, bilmək istərdim.
– Bağışlayın!
– Bir dəqiqə!
– Əli, mənə məsələni həll etməyə kömək et.
– Nənə, oturun. Bu yer boşdur.

## Görüşmə. Vidalaşma

– Sabahınız xeyir!
– Hər vaxtınız xeyir!
– Axşamınız xeyir!
– Xudahafiz!
– Gecəniz xeyrə qalsın!
– Uğurlar olsun!
– Salamat qalın!
– Sağlıqla qalın!
– Nə xoş görüşdür!
– Nə yenilik var?
– Nə xəbər var?
– Bizi unutmayın!
– Zəng eləyin!
– Yaxşı yol! Uğurlu yol!
– Gecdir.
– Getmək vaxtıdır.
– Vaxtımız çox yaxşı keçdi.
– Bizi unutmayın!

## Dəvət

– Buyurun, əyləşin.
– Xahiş edirəm, mənə yaxınlaşın.
– Gəlin gedək.
– Sən mənimlə gedə bilərsənmi?
– Yaxşı olar ki, muzeyə gedək.
– Sabah bizə qonaq gəlin.
– Bizə yenə (tez-tez) gəlin.
– Gedək gəzməyə.
– Məmnuniyyətlə.

## Arzu. Xahiş

Lütfən, Zəhmət olmasa | göstərin | örtün, açın | dayanın, durun | yaddan çıxarmayın | yazın | başa salın | təkrar edin | gözləyin | çağırın | zəng edin | kömək eləyin

Lütfən,
Zəhmət
olmasa

göstərin
örtün, açın
dayanın, durun
yaddan çıxarmayın
yazın
başa salın
təkrar edin
gözləyin
çağırın
zəng edin
kömək eləyin

Xahiş edirəm, yavaş-yavaş danışın. Mən sizi pis eşidirəm.

## Təşəkkür

– Təşəkkür edirəm!
– Mən sizə çox minnətdaram.
– Siz çox nəzakətlisiniz.
– Siz çox diqqətlisiniz.
– Dəyməz.
– Şərtsiz, şübhəsiz.
– Mütləq.
– Gorünür.
– Ola bilər, bəlkə.
– Yəqin , deyəsən.
– Etirazım yoxdur.

## Təbriklər

– Sizi təbrik edirəm!
– Səmimi qəlbdən.
– Ürəkdən təbrik edirəm.
– Ömrünüz uzun olsun.
– Xəstələnmə.
– Sağal.
– Özünü qoru.
– Sağlam ol (un)!
– Ad günün münasibətilə səni ürəkdən təbrik edirəm!
– Bayramın mübarək!
– Yeni ilinizi təbrik edirəm!

## Təsəlli

– Narahat olmayın!
– Həyəcanlanmayın!
– Buna fikir verməyin!
– Sakit olun!
– Ürəyinizə salmayın!
– Hər şey yaxşı olar!

## Telefonla söhbət

Bəli!
Eşidirəm!
Siz hara zəng edirsiniz!
Siz hansı nömrəni yığırsınız!
Zəhmət olmasa... çağırın
İndi çağıraram!
– Bir dəqiqə gözləyin!
– Dəstəyi qoymayın!
– Telefonda gözləyin!
– O, evdə yoxdur.
– Bir azdan zəng edin!
– Təəssüf ki, o, evdə yoxdur.
– Xahiş edirəm, bir azdan zəng edin.

## Mağazada

– Xahiş edirəm, bir kilo pendir verin.
– Xahiş edirəm, sayın
– Sizdə . . . varmı?
– Xahiş edirəm, bir banka verin.
– Sizdə hansı şirələr var?!
– Xahiş edirəm, bir şüşə
alma şirəsi verin.
– Xahiş edirəm, bir baton,
bir paçka peçenye verin.
– Məndən nə qədər çatacaq?

## Tibbi yardım

– Mən xəstəyəm.
– Özümü pis hiss edirəm.
– Soyuqlamışam.
– Mənim başım (mədəm, dişim, boğazım, qulağım, gözüm) ağrıyır.
– Mənim qızdırmam var.
– Mən qızılca (suçiçəyi) keçirmişəm.

## Hava

– Bu gün hava necədir?
– Bu gün hava yaxşıdır.

– Bu gün | çox soyuqdur. / istidir. / çox istidir. / sərindir. / nəmdir. / bürküdür.

## Vaxt

– Zəhmət olmasa, deyin saat neçədir?
– Sizin saatınız geri qalır.
– Saat dayanıb.
– Sənin saatın dəqiqmi işləyir?
– Əlbəttə.
– On birə səkkiz dəqiqə işləyir.
– Ona on beş dəqiqə qalır.
– On tamamdır.
– Onun yarısıdır.

# IV bölmə

## Üzündən köçürmə yazı nümunələri

**1**

Gözəl bir yay səhəri idi. Günəş işıq saçırdı. Birdən günorta göyün üzünü qara buludlar aldı. Bərk külək əsdi. İldırım çaxdı. Yağış yağmağa başladı.

(*23 söz*)

**2**

Artıq payız gəlib. Köçəri quşlar isti ölkələrə uçurlar. Hər gün yağış yağır. Havalar sərinləşib. Parklarda, bağlarda quşların şən nəğmələri eşidilmir. Hər tərəf sakitlikdir.

(*23 söz*)

**3**

Tətildə biz Gəncəyə istirahətə getmişdik. Gəncə çox gözəl şəhərdir. Şəhər çayın sahilində yerləşir. Əfsanəvi Göygöl də Gəncəyə yaxındır. Ailəmiz orada çox yaxşı istirahət etdi.

(*24 söz*)

**4**

Vətənimiz Azərbaycan çox böyükdür. Onun uca dağları, yaşıl meşələri hamını valeh edir. Azərbaycanın iri şəhərləri var. Bakı Azərbaycanın paytaxtıdır. Bakı qədim, həm də müasir şəhərdir.

(*24 söz*)

**5**

İstirahət günü atam bizi heyvanxanaya apardı. Biz oraya çatanda heyvanların yemək vaxtı idi. Bütün heyvanlar yuvalarından çıxıb yem gözləyirdilər. Oradakı məzəli ayılar daha çox xoşuma gəldi.

(*26 söz*)

**6**

Məktəbə hazırlaşanda çantanı səliqəyə sal. Gündəliyi, dərslikləri, dəftər və qələmlərini çantaya qoymağı unutma. Dərsdə pozan, qələmyonan, yapışqan da sənə lazım ola bilər. Məktəb ləvazimatlarını çantanın onlar üçün ayrılmış xüsusi şöbələrinə yerləşdir.

(*29 söz*)

**7**

Ağacların gövdəsinə baxanda onların meşədə, ya da düzənlikdə bitdiyini bilmək olar. Meşədə bitən ağaclar bir-birlərini küləkdən qoruduqları üçün gövdələri düz, ensiz olur. Düzənlikdə bitən ağacların gövdələri enli, qollu-budaqlı olur.

(*28 söz*)

**8**

Kitab bizim yaxın dostumuzdur. Onu qorumaq lazımdır. Kitabın səhifələrini cırmaq, onları qatlamaq, əzmək olmaz. Kitabxanadan götürülən kitabları vaxtında oxuyub qaytarmaq lazımdır.

(*21 söz*)

## Lüğət üzrə imlalar

*(spesifik səslərin təkrarına aid)*

**I**

corab, cavab, ceyran, camış, camaat, cücə, cənub, cəbhə, cavan, canlı, cəm, cəld, cəsarət, cəza, cığır, cürbəcür, cürətli, cəsur, cisim, ciyər

**II**

əcdad, ədəbiyyat, ədalət, ədəbi, əhali, əxlaq, əjdaha, əkinçi, əqrəb, əla, əlvida, əlvan, ərizə, əncir, ərik, əsəbi, əsgər, əsir, əsl, ətir, əvvəl, əzəmətli, əzik, əziyyət

**III**

gavalı, güldan, geniş, gec, general, geoloq, gerb, geri, gərək, gərgin, gilavar, giləmeyvə, gimnaziya, gözəl, gözətçi, günəbaxan, göyərti, güllü, gülünc, günah, günorta, gürcü, güzgü

**IV**

heyva, həyət, həyat, halva, hadisə, haqq, haqqında, haqlı, hamar, haray, hasar, havayı, heca, hekayə, heykəl, heykəltəraş, heyif, həftə, hirs, hissə, hovuz, hökmdar, hövsələ, hünər, hücum, həyəcan

**V**

xoruz, xahiş, xalça, xalq, xama, xanım, xaric, xatırlamaq, xatirə, xörək, xoşbəxt, xəsis, xəstə, xəstəxana, xətkeş, xəyal, xəritə, xəzinə, xilaskar, xiyar, xortum, xurma, xüsusən

**VI**

ögey, ölkə, öküz, ölçmək, ömür, ördək, önlük, övlad, öyüd, özbək, özfəaliyyət, ölməzlik, öncə, öndəki, öskürmək, ötrü, öymək, öz-özünə, özünəxidmət

**VII**

ürək, ümid, üzük, üfüq, ülkər, ülvi, ümumi, ünvan, ürkək, üstdə, üstəlik, üsul, üzv, üzbəüz, üzdən, üzr, üzrlü, üzrsüz, üstüörtülü, üzüyola, üzüyuxarı

**VIII**

dağ, sağ, yağ, yağlı, yağış, bağlı, bağça, bağla, sağ, sağlam, sağlamlıq, yanğın, yorğan, yarğan, vağzal, uğurlu, tısbağa, sorğu, sarğı, sığırçın, sağıcı, nağıl, müğənni, lüğət, lovğa, qarğa

**IX**

qabaq, qəhrəman, qalib, qalın, qanlı, qanun, qapqara, qardaş, qonaq, qatıq, qulaq, qarğıdalı, qarpız, qovun, qaval, qayçı, qayıq, qaşıq, qayış, qazanc, qazan, qeyrət, qəbz, qədəh, qələbə, qəmgin, qəzet, qəhvəyi, qənd, qəşəng, qıfıl, qırmızı

**X**

kitab, kağız, kafe, kamança, kapitan, kartof, karandaş, karnaval, karvan, katib, keçmiş, köhnə, kəklik, kəlbətin, kiçik, küçə, küçük, kərpic, kirpik, kobud, konfet, konserv, könül, külək, künc, kürək

## Lüğət üzrə imlalar

*(lüğət ehtiyatını zənginləşdirmək məqsədilə)*

**Ad bildirən sözlər:** söyüd, süfrə, zarafat, qohum, rəssam, tapşırıq, ehtiyat, maraq, hünər, üzgüçü, yazıçı, parıltı, dərnək, şorba, ovçu, müəllif, qarışqa.

**Əlamət bildirən sözlər:** qaynar, göyçək, ılıq, rəngli, qəşəng, şöhrətli, ac, tox, fərəhli, tarixi, diqqətli, gur, açıq, layiqli, işıqlı, ehtiyatlı, enli, uzun, qısa, yazıq, qorxulu.

**Say bildirən sözlər:** az, çox, xeyli, səkkiz, doqquz, əlli altı, yüz üç, minlərlə, az-çox, əlli ikinci, beş-altı, qırxıncı, doxsan, səksən, yeddi, yetmiş, altmış, altı.

**Hərəkət bildirən sözlər:** sevinmək, sağalmaq, üzmək, daramaq, sındırmaq, təəccüblənmək, yaymaq, yaşıllaşdırmaq, ruhlandırmaq, duymaq, ayrılmaq, bəzənmək, bərkitmək, dillənmək, oturmaq, yığmaq, soyutmaq, çap etmək.

**Zaman bildirən sözlər:** sabah, axşam, bu gün, dünən, yayda, qışda srağagün, keçən il, səhər, günorta, axşamüstü, səhərəcən, axşama qədər, yazda, payızda, bu il.

## Əlavə mətnlər

### 1. Ən böyük dövlət

Bir gənc tez-tez yoxsulluğundan şikayət edir. Bir qoca gəncə deyir:
– Sən çox dövlətlisən. Niyə şikayət edirsən?
Cavan deyir:
– Hanı mənim dövlətim?
Qoca cavab verir:
– Sənə çoxlu pul versəm, gözlərini, əllərini mənə satarsan?
– Xeyr, mən heç zaman gözlərimi, əllərimi satmaram.
Qoca deyir:
– İndi bildin ki, sən çox dövlətlisən? Dünyada ən böyük dövlət insanın sağlamlığıdır.

### 2. Ovçu və onun dostu

Bir ovçu dostunu özü ilə ova aparır. Ov zamanı onlar ağacda bir quş görürlər. Ovçu quşa güllə atır. Güllə quşa dəymir və o uçur. Ovçunun dostu deyir:
– Afərin!
Ovçu hirslənir və soruşur:
– Mənə gülürsən?
– Xeyr, əzizim, mən sənə gülmədim. Mən quşa afərin dedim. Axı o, canını qurtardı.

## 3. Kərpickəsən qoca

Keçmiş zamanda Şam şəhərində bir qoca kişi yaşayırdı. O, kərpic kəsər, çörək pulu qazanardı. Bir gün qoca yenə işləyirdi. Bu zaman onun yanına bir cavan oğlan gəldi. Qocaya salam verib dedi:

– Ey qoca, nə üçün bu qədər zəhmət çəkirsən? Bu çox ağır işdir. Özünə başqa iş tap. Kimdən bir parça çörək istəsən, sənə verər.

Qoca kişi cavan oğlana dedi:

– Oğlum, mən bu sənəti ona görə öyrənmişəm ki, heç kimdən çörək pulu istəməyim. Əlimin zəhməti ilə yaşayım.

Cavan oğlan bu sözləri eşidib çox utandı və qocadan üzr istədi.

## 4. Şah və xidmətçi

Keçmişdə bir şah vardı. Şahın bir neçə qüvvətli köpəyi vardı. Onun bir adama acığı tutanda onu itlərə atdırardı. İtlər həmin adamı parçalayardı.

Şahın bir cavan xidmətçisi vardı. Bu oğlan itlərlə dostlaşır. Hər dəfə onlara çoxlu ət atır.

Bir gün şah qəzəbləndi. O, oğlanı itlərə atdırdı. Lakin itlər oğlana toxunmadılar.

Şah oğlandan bunun səbəbini soruşdu.

Cavan oğlan dedi:

– Mən itlərə tez-tez ət atırdım. Onlar da mənim yaxşılığımı itirmədilər.

## 5. Ayı və şir

Ayı və şir meşədə gəzirdi. Onlar yem axtarırdılar. Amma əllərinə bir şey keçmirdi. Bir dovşan bu vaxt onlara tərəf gəlirdi. Onlar dovşanı tutdular. Heç biri onu bölməyə razı olmurdu. Ayı və şir vuruşdular və yoruldular. Tülkü uzaqdan bunu görürdü. O, yaxına gəldi və dovşanı götürüb qaçdı. Ayı və şir onun dalınca həsrətlə baxdılar.

## Şəkil üzrə iş nümunələri

Yaz



Yay



Payız



Qış



# Tərcümə üçün mətnlər
## (müəllimlər üçün)

**1**

Bu gün bilik günüdür. Məktəb öz şagirdlərini sevinclə qarşılayır. Birinci dərsdə biz sülh haqqında danışdıq. Bizim borcumuz – yaxşı oxumaqdır. Biz müəllimə yay tətili haqqında danışırıq.

**2**

Nəzakətli sözlər vardır: çox sağ ol, zəhmət olmasa, salam, sağ olun.
Çox vacib sözlər vardır: sülh, azadlıq, sağlamlıq.
Çox qiymətli sözlər vardır: ata, ana, dost, məktəb.
Ancaq çox mühüm bir söz var – **Vətən!**

**3**

Qış gəldi. Çöllərdə və meşələrdə çoxlu qar vardır. Quşlara və heyvanlara qarın içində yem tapmaq çətindir. Sağ olsun məktəblilər! Onlar heyvanlar və quşlar üçün yuva düzəldirlər.

**4**

Musiqini hamı sevir. Yaxşı musiqi əhvalı yaxşılaşdırır. Pis musiqi insanın əsəb sisteminə mənfi təsir edir.

**5**

Küçəni yalnız yaşıl işıqda keçmək olar. Əvvəlcə sola baxmaq lazımdır. Maşın yoxdursa, keçə bilərsən. Küçənin ortasında sağa baxmalısan.

**6**

Bu quşu hamı tanıyır. Qarğanın güclü ayaqları, iri dimdiyi olur. Onun lələkləri qara və ya boz rəngdə olur. Qarğalar hər yerdə yaşayırlar: meşələrdə, dağlarda. Qarğaların çoxu şəhərdə yaşayır.

**7**

**Ana.** Dünyada ən gözəl söz anadır. Bu, uşağın ilk dəfə dediyi sözdür.
Anamın əlləri dünyada ən mehriban və nəvazişlidir. Bu əllər hər şeyi bacarır. Anamın ürəyi ən vəfalı və mehriban ürəkdir.

**8**

Rüstəm əmi bizim qonşumuzdur. O, bizimlə üzbəüz mənzildə yaşayır. Rüstəm əmi institutda işləyir. O, riyaziyyatdan dərs deyir. Onun arvadı Sevda xanım da institutda işləyir. Ancaq o, Azərbaycan dilini tədris edir. Onların bir oğlu və iki qızı var.

**9**

Bu, mənim otağımdır. Bu otaqda mən yaşayacağam. Valideynlərimin otağı mənimlə yanaşıdır. Üzbəüzdə yemək otağı yerləşir. Orada biz nahar edib, qonaqları qarşılayacağıq. Öz dostlarımı mən bu otaqda qəbul edəcəyəm.

**10**

Mənim babam və nənəm kənddə yaşayırlar. Onlar kəndin kənarında yaşayırlar. Onların dörd böyük, işıqlı otağı, iri həyətləri vardır. Həyətdə bağ və bostan var. Bağda çoxlu meyvə ağacları bitir.

Buraxılış məlumatı

# Azərbaycan dili 3

Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
metodik vəsait

**Tərtibçi heyət**

**Müəlliflər:** İradə Əfəndiyeva
Məlahət Ələsgərova

**Redaktor:** Təravət Əliyeva

**Dizayner**: Samir Yüzbaşov

Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2018-048

© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri
və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək,
surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq
qanuna ziddir.

Formatı 57 x 82 1/8. Səhifə sayı 112.
Ofset çapı. Fiziki çap vərəqi 14.
Tirajı 786. Pulsuz. Bakı – 2018.

“XXI” Yeni Nəşrlər Evi
Bakı şəhəri, Mətbuat prospekti, 529 məhəllə

PULSUZ